# ULDUZ

www.azyb.az
www.ayb.az

- Əli Əl-Əmiri :
  “Dünya poetik sanitariyaya möhtacdır...”
- Alpay Azərin “Ali rütbəli nəzarətçilər” i
- Əlizadə Nuri :
  Özüylə söhbəti və şeirləri
- Gənc yazarlar üçün nəzəriyyə dərsi
- Qızıl alma vücudnaməsi
- Dərgidə kitab

*"Müasir sivilizasiyada şair olmaq əvvəlkilərdən çətindir..."*
*Tomas Eliot*



AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
№10 (659) oktyabr 2024

# BU SAYIMIZDA

ULDUZ №10 (659) oktyabr 2024

**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi

**Baş redaktor:**
QULU AĞSƏS

**Redaksiya heyəti:**
Təranə Vahid (Baş redaktor müavini), Hicran Hüseynova (şöbə redaktoru), Dayandur Sevgin (şöbə redaktoru), Taleh Mansur (şöbə redaktoru), Anar Amin, Allahşükür Ağa, Baloğlan Cəlil (Başqırdıstan), Cavid Zeynallı, Elxan Yurdoğlu, Elmar Vüqarlı, Elşən Əzim, Elxan Elatlı, Ələmdar Cabbarlı, Əyyub Qiyas, Furqan, Fuad Cəfərli, Gülnar Ümid, Günay Səma (Voronej), Həyat Şəmi, Hafiz Hacxalıl, Xəyal Rza, Xaqanı Qayıblı (Estoniya), Qılman İman, Nuranə Nur, Nargis, Nilufər Şıxlı (Moskva), Məshəti Musa, Orxan Cuvarlı, Rəsmiyyə Sabir, Səhər Əhməd, Seyfəddin Alaylı (Türkiyə), Saodat Muxammadova (Özbəkistan), Nazim Muradov (Şimali Kipr Türk Respublikası), Şəfa Vəli, Ulucay Akif.

**Bədii redaktor:**
Ədalət Həsən

**Ünvanı:**
AZ1000, Bakı, Xaqani küçəsi, 25 ulduz_dergisi@mail.ru;
www.ayb.az
Telefon: (+99412)498-72-43
Çapa imzalanıb: 11.10.2024
"Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**"ASPOLİQRAF LTD" MMC-də** çap olunub.
Sifariş №41, Tiraj: 300.
Qiyməti: 2 man.
1967-ci ildən çıxır.
Şəhadətnamə №238

**Əlizadə NURİ** 3
Özüylə söhbəti və şeirləri

**Ruslan MOLLAYEV** 8
Aktrisa

**Məti OSMANOĞLU** 12
Ustad dərsləri

**Vüqar RAHİ** 17
Dünya gözü ilə seyr eyləməzlər həqiqəti...

**Alpay AZƏR** 20
Ali rütbəli nəzarətçilər

**Ramil MƏRZİLİ** 28
Buludların köçündə

**Nurlana İŞIQ** 33
Qazinin qızı

**Xanəmir TELMANOĞLU** 37
Qızıl alma vücudnaməsi

**Aysel Xanlarqızı** 41
Yağışa dua






43 **Əli Əl-Əmiri**
Medelin Poeziya Festivalındakı çıxışı

45 **Rey KƏRİMOĞLU**
Torpaq satan dəli qadın

47 **Xəyalə SEVİL**
Tut əlindən ürəyinin

51 **Əfsanə RƏHİMLİ**
Tənbəl ayı

56 **Gülər MÜBARİZ**
Yorğun fotolar

63 **Elxan YURDOĞLU**
Kövrək ürəyində həzin bir kədər...

70 **Anar SEYİDAĞA**
Məndən nə yazıb Allah?

73 **Aydın TAĞIYEV**
"Haçansa bir şair köçər bu eldən…"

78 **Ülkər NİCATLI**
Günah nağılı

84 **Səadət MUSAYEVA**
Son çağırış

87 **İmir MƏMMƏDLİ**
Gölməçədəki günəş

92 **Nemət MƏTİN**
Dərgidə kitab




**"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA" MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**
**satış qiyməti – 2.00 man.**
**abunə qiyməti – 2.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566 – 77 – 80**



# Özüylə söhbəti...



Əlizadə NURİ

Poeziya heyrətdən yaranır – ilahi heyrətdən. “Heyrət, ey büt, surətin gördükdə lal eylər məni...” deyirdi böyük Füzuli. Poeziyanın iliyi, mayası, cövhəri də elə bu heyrətdədir. Poeziya həm də ürəyin sirli-sehrli simfoniyasıdır. Qrasian özünün məşhur “Kamillik elmi” əsərində “ürəyinə və ürəyindəkilərə inan” deyirdi...

Poeziya ömür haqqında, ölüm haqqında bir nəğmədir. Yalandır ki, deyirlər ömür qısadır, əksinə, Tolstoysayağı hərdən adam ölməyəcəyindən qorxur. Düşünürsən, bu boyda ömrün məsuliyyətini necə daşıyacaqsan və elə bu vaxt poeziyanı öz yanında görürsən...

Bizdə şeir yazanların çoxu Tanrıdan yox, kitabdan gəlir. Mütaliə hesabına sözə girişənlər o qədər çoxdur ki... Amma baxırsan ki, heç sısqa istedadları da yoxdur.

Ədəbiyyat bəzən illüzor, utopik xoşbəxtliklər vəd etsə də, hər halda, vizual ahəngi, cazibədarlığı ilə könül oxşayır. “Heç bir insanın ömrü Bodlerin bir misrasına dəyməz” deyəndə çox haqlıydı Akutaqava...

Kant poeziyanı “fikirlərin bədii oyunu” adlandırırdı. Əsas olan fikirlərin hansı havaya oynaması yox, necə oynamasıdır. Əsl şeirin oxucunun milli-mənəvi məfkurəsinə böyük təsiri olur, insan idrakına sığal çəkir əsl poeziya. Deyəsən, Hüqo deyib: “Fransa inqilabını Volterin əsərləri törədib”.

Sonda şöhrət haqqında: Böyük söz ustadlarında şöhrət hissinin olmasına normal baxıram. İnstinktiv olaraq belədir. Əsl poeziya bu qədər əzablı proseslərdən keçirsə, şairin bir qədər şöhrətpərəst olması niyə qıcıq yaratsın ki?

Al Paçinonun gözəl bir sözü var: “Şöhrətpərəstlik günahların ən sevimlilərindən biridir”. Məncə, net və konkret deyilib...

**...və şeirləri**

**FIRLANIR**

Neçə acın yuxusunda
Dəyirman daşı fırlanır.
Bəlkə, elə şərab içib –
Dünyanın başı fırlanır?!

Azdım bir quşun səsində...
Sirr var şamın şöləsində.
Dərdimin yan-yörəsində
Gözümün yaşı fırlanır.

Bu yarpaq da bir çiçəkdi,
Qoxusunu yellər çəkdi...
...Bu dünya bir yelləncəkdi –
Nə qədər naşı fırlanır...

**DÜNYA BU UŞAĞINDI...**

Yerdən göyə yol uzaqdı,
Göydən yerə yaxındı.
Yağış hansı buludundu? –
Ürəyi yumşağındı.

Yağışdı da, yağıb gedir,
O qız yağan bu yağışı
Saçlarına taxıb gedir...
...Adamlar da axıb gedir –
Hamı axın-axındı...

Kim çağırdı qəssabları?
Kim apardı hesabları?
O payızın xatirəsi,
Bu ağacın əzabları
Sonuncu yarpağındı.

Tanrı, bunu nədən cızdın? –
Halal olanlar halsızdı.
Yerdəki rəsmin o qızdı,
Göydə göy qurşağındı.

Əlim də gəlmir oyadam
Bu yuxudan, bu röyadan.
...Xəbəri yoxdu dünyadan –
Dünya bu uşağındı...

**NƏ OLSUN Kİ, BİR MİSRASAN...**

Bir dəfə bəxtim gətirdi,
Dedilər ki, zər tutursan,
Qəm əkib-biçirəm deyə,
Sən məni rəncbər tutursan?!

Ömür axıb gedən çaymış...
O ay – sən baxan bacaymış.
Dünya səndən balacaymış –
Sən nə qədər yer tutursan?!

Bir nəfərsən, min sırasan,
Kirpiyimdə sırsırasan.
Nə olsun ki, bir misrasan,
Gör neçə əsər tutursan?

**NƏFƏSDƏRMƏ**

Günəşi gizlədiblər
Buludun arxasında.
Adam var, toylardadı,
Adam var, öz yasında...

Silkələnir göy üzü,
Buludlar divar-divar.
Ulduzlar elə qəmgin...
Ayın da ay dərdi var.

Tanrı insan yaradıb,
Hər yan haydı, haraydı.
Yoxsa tək darıxdı O? –
Gərək darıxmayaydı...

Yağış da yuya bilmir
Bu dünyadan hüzünü.
Baxıb yaratdığına
Tanrı tutub üzünü...

...Yüz il ömür istəyir,
Əlli il bəs eləmir?
Özünə bir ev tikib
Günü günbəz eləmir...

Hər yan saxta parıltı –
Yox, ora girmirəm mən.
Qaranlıqdan qorxmuram,
İşıqda görmürəm mən.

Onun iştahına bax,
İstəmir tacı düşsün.
Göydən də üç alma yox,
Alma ağacı düşsün...

...Yanında qəm qardaşı,
Bu adam toya gedir.
Ömür – qatar kimidi,
Sonda depoya gedir...

## ƏL AÇDIM – AÇMAMIŞ BİR ÇİÇƏK ÜÇÜN...

Çıxaq sevgimizin günçıxanına,
Nə yolda dayanaq, nə tin kəsdirək.
Bizim bu eşqimiz göydən düşüb ki –
Gedək göy üzünə, kəbin kəsdirək.

Əllərim ümidin boş cibindədi...
Quru yaylığım da yaş cibimdədi.
Xoşbəxtlik dünyanın döş cibindədi –
Neynəyək – dünyanın cibin kəsdirək?!

Gözlərim tor hörür hörümçək üçün...
Əl açdım – açmamış bir çiçək üçün.
Quyuya sallanaq görüşmək üçün,
Sonra o quyunun ipin kəsdirək...

## BU DƏRDİN BAŞINA TAC QOYMUŞAM MƏN...

Mən də yıxılanda sözdən tutmuşam –
Bizi söz gəzdirir can əvəzinə.
Bəlkə, göy üzünü yaralayıblar –
Damır ay işığı qan əvəzinə?!

Sənsiz bu yollarda yol azan səsəm,
Sənsiz neynəyər ki bu halı sərsəm?
Bəlkə, bu dünyanın günəşi sənsən –
Sökülür ürəyim dan əvəzinə?

Vaxtın darağında saç qoymuşam mən,
Neçə gün qələmi ac qoymuşam mən.
Dərdimin başına tac qoymuşam mən –
Taxta çıxartmışam xan əvəzinə...

## MƏNƏ GÖY ÜZÜ VERİN...

Mənə bir yelləncək verin,
tapıb oynadacam uşaqlığımı.

Bir cüt qərənfil verin,
bir şəhid məzarı girib yuxuma...

Mənə bir parça kağız verin,
yığım qələmə qısılan sözləri.
Son şeir vəsiyyət kimi olur.

Bir əlçim bulud verin –
gözlərimə sıxıb özüm yağışa çevirəcəm...

Mənə bir kamança verin –
ağlatmalı nə çox dərd var.

Bir qurtum su verin –
bu ümid çox qurudu,
keçmir boğazımdan.

Məni azadlıqla tanış eyləyin,
görüm halı necədi.

Mənə bir ulduz verin –
isidim əllərimi...

...Bir az göy üzü verin,
bir tikə ay işığı,
Yer üzü sizə qalsın...

## BU ÖMÜR İSLANMIŞ KAĞIZMIŞ, DEMƏ...

Hər gün ürəyimdən durnalar uçur –
Mənim bu canımda payızmış, demə.
Məni bu dünyanın yadına salan
Yaddan çıxartdığım o qızmış, demə.

Bu yol hara belə köçünü çəkir?
Ölüm də kəfənin ucunu çəkir...
Gördüm ki, bir söyüd içini çəkir –
O da mənim kimi yalqızmış, demə.

Udduğum havanın içində dadın...
Yanım – bir az isin, üşüyən qadın.
...Çərpələng düzəltdim, o da uçmadı –
Bu ömür islanmış kağızmış, demə...

## GÖY ÜZÜ BİR ÇƏTİRDİR...

Yağış yağıb... çiçəklər
Elə bil doluxsunub.
Gecəni məst eləyib
Axan çayın ovsunu.

O ay işığına bax,
Kim dəyişər altuna?
Göy üzü bir çətirdi –
Hamı girib altına.

Bu da yaşın əllisi,
Ölüm gəlib haqlayıb.
Sənin yükün ağırdı –
Ver, dərdini saxlayım...

...Çıxıb getdim meşəyə,
Qaldım koğuşlar ilə.
Ad günümü keçirdim
Meşədə quşlar ilə.

İçim səhra olandan
Gözlərimdən qum gəlir.
...Unutmuşdum adımı –
Adıma məktub gəlib...

## ÖMÜR YANMIŞ ZƏMİ KİMİ...

Suçəkən kağız kimiyəm,
Gəzdirirəm can yerinə.
Günəş deyil, bəlkə, qandı
Yığılıbdı dan yerinə?

Məni sevgi fəsli çəkir,
Göy üzünün qəsri çəkir...
O kimdi, eşq rəsmi çəkir
Sinəmin kətan yerinə?!

Ömür – yanmış zəmi kimi,
Su basmış zirzəmi kimi...
...O qız batan gəmi kimi
Dönmədi liman yerinə...

## DÜNYA BOYDA İMARƏTİ NEYNİRƏM?

O söz məni ovsunlamaz, a şair,
Nə məcazı, nə ecazı yoxdusa.
Bir hecası əsir idi vətənin –
Və – tən olmur bir hecası yoxdusa...

Əl tutmuşduq, oynayırdıq ələmnən...
Bir ləl tapıb böldüm onu lələmlən.
...O özünü bir gün vurdu qələmnən –
Neynəyərdi, tapançası yoxdusa?

Dağdan ağır bu minnəti neynirəm?
Sədəqətək sədaqəti neynirəm?
...Dünya boyda imarəti neynirəm –
Sənə baxan bir bacası yoxdusa?!

## BƏLKƏ, SƏN SON BAHARSAN?

Yaman imiş ayrılıq,
Nə yaman sənsizlədim...
Hara alıb apardın,
Bu dünyanı gizlədin?

İndi döyüşmək gərək –
Gəlir bu qəm alayı...
Bir az öz səsiməm mən,
Bir az durna harayı...

Deyirdin yaz gələcək,
Bəs haçanmış, haçanmış?
Axşam çıxıb getmisən –
Ömür axşamacanmış...

Harda durmusan axı –
Yolu sənə göndərim.
Günəşin də ətri var,
Bəlkə, sənə gün dərim?!

...O yandan sərin gəlir –
Bəlkə, sən son baharsan?

Silmişəm gözlərimi –
Gələndə daranarsan...

**ÜŞÜYÜR**

Ağaclar yarpaq yerindən,
Gül nəfəsindən üşüyür.
Payız çatıb quşlara da –
Dimdiyində dən üşüyür.

Gəldi bu qəm boyu bəstə
Mən qəfəsdə, o həvəsdə.
Yaşamaq istəyən xəstə
Öz həvəsindən üşüyür.

Azıb qalıb naşı kimi,
Kor adamın daşı kimi.
Şair də qu quşu kimi
Son nəğməsindən üşüyür...

**MƏN BİR AZ EŞQ TORPAĞIYAM**

Şirin-şirin al canımı,
Qılıncında şəkər saxla.
Bu gün bir az öldür məni –
Sabaha da şikar saxla!

Bəlkə də, eşq torpağıyam –
Bəlkə, elə pirəm, zalım?
Hər gün səni çağırsam da,
Adını bilmirəm, zalım.

Özgəsinə qıyma məni,
Özün elə sitəm mənə.
Bir ipək köynək kimiyəm –
Yaman tez batır qəm mənə...

**SULAR ÇAĞIRIR BİZİ...**

Bir sükuta uduzur
Milyon adamın səsi.
Hara çıxıb getdi ki
O qaraçı nəğməsi?

İndi necə gizləyim,
Mən bu boyda hüzünü?
Quşlar qanadlarıyla
Saxlayıb göy üzünü...

Haqqın səsi batıbmış,
Yoxsa təkcə kar mənəm?
Mən həm günah imişəm,
Həm də günahkar mənəm.

Sular çağırır bizi,
Səs gəlir o quyudan.
Daş intihar edirmiş
Atılaraq qayadan...

...Başımızı kəsdilər –
Baş əymədik şahlara.
Mənə bir ümid verin,
Paylayım uşaqlara...



QATİL



*Hekayə 2012-ci ildə Nəsimi Milli Ədəbiyyat müsabiqəsinin qalibi olub.*

Ruslan MOLLAYEV

# Aktrisa

Bir qadınla tanış olursan. Çox keçmir, sənə aşiq olduğunu bildirir. Onu tam tanımadığın üçün, əslində, özünə deyil, içindəki qüvvəyə aşiq olursan və o, birdən qeyb olur. Əllərinin qanını yuya-yuya "bu, son iş idi" – deyib, həyat tərzində dəyişiklik üçün axşam çağına teatra getməyi planlaşdırırsan. Pərdələr açılır və səhnədə o peyda olur. Ürəyinin döyüntüsünü yanında oturanlar da eşidir.

– Deyəsən, telefonunuz zəng çalır, – deyə sizə pıçıldayırlar.

Özünü ələ alıb diqqətlə tamaşaya baxırmış kimi səhnədəki aktyorların birinə çevrilirsən və bir anda hər şey donur. Təkcə onun dodaqları bir-birinə dəyib açılır. Əlləri havada yellənib saçlarına girir. Kirpiklərini tələsmədən yumub-açır. Birdən bu gün səhər öldürdüyün qatilin can verməsini xatırlayırsan...

Səhnənin ortasında közərə-közərə artan işığın altında iblis paltarını geyinmiş biri dayanır. İblis onun qanadlarını açır. O isə monoloq söyləyir. Deyilən cümlələrə heyrətlənirəm, nəhayət, nədən birdən onun qeyb olduğunu anlayıram. Səhnədə deyilən sözlər, jestlər, hamısı mənimlə görüşdə işlətdiyi kəlmələrdir. Bu, bir tamaşanın məşqi imiş. Ağ mələk paltarını geyinmiş aktrisa cümlələri söylədikcə mən də onunla birgə deyirdim. Yanımda oturan tamaşaçı dirsək vurub sakit olmağımı istədi. Tamaşaçının qulağına pıçıltı ilə – "bax indi adama çevrilib səhnədən yox olacaq" söylədim.

– Baxmısınız? Axı bu premyeradır! – dedi.

Ona fikir vermədən tamaşanı izləməyə davam elədim.

Tamaşaçı təəccüblü halda üzümə baxırdı. Elə bil tamaşa üzümdə gedirdi. Pərdələr bağlandı.

Qrim otağı. Əlimi aktrisanın ətəyinin altına saldım. O gözlərini yumub həzz ala-ala: "Bilirdim gələcəksən. Bəyəndin özünü?" – soruşdu.

Cavab olaraq silahı içinə saldım. Diksindi, gözləri bərəldi, sifətinə qorxu yayıldı, gülümsündü və mən atəş açdım. Ağ rəngli mələk paltarı qan oldu, bir-iki damcı da güzgüyə sıçradı. Masanın üstündəki pambıqla qanı güzgüyə yaydım, bir tərəfi dodaq boyası idi. Qadın qoxusu ilə ölüm qoxusunu içimə çəkib getdim.

**Mən necə qatil oldum**

Hanzaqor dağından yenicə düşmüşdük, Mazımqara postu üçün darıxmışdım, körpünün o biri tərəfində gürcü əsgərləri bir yerə yığışıb deyib-gülürdülər. Yaz vaxtı buranın havasında qəribə bir füsunkarlıq var.

Dan yeri sökülürdü, elə bil göydə qırmızı boya dağarcığı partlayıb Yer üzünə damırdı. Duman dağın döşünə düzülmüş ağacların boynuna kəlağayı kimi sarılmışdı. Körpünün altından pıçıltı ilə axan Mazımçay ətrafı daha da sehrləyirdi. Hava artıq açılmışdı, uzaqdan görünən həyət evlərinin aralarındakı yoldan arabir maşınlar keçirdi. Arxamda dayanan dağa böyük hərflərlə “Azərbaycan” yazılmışdı. Ona hər baxanda içimdə qəribə hisslər oyanırdı, yəqin ki, bu, fəxr hissi idi, əlimdəki silah sərhəddə dayanmağıma xüsusi cəsarət verirdi.

Yuxarı kənddən maşın səsi gəlir: “Uaz”-dır.

Qara kişi: Sabahın xeyir, oğul! – deyib, maşını aşağı şlaqbauma gedən yolda saxladı. Səhərlər bazara toyuq-cücə aparırdı. Maşını elə köhnə idi ki, bir az bərk sürsəydi, ayrı-ayrı hissələrə ayrılacaqdı. Zastava rəisi ondan danışmışdı bizə: Tək yaşayırdı, yoldaşını Katexçay şəlaləsindən bir neçə kilometr yuxarıda (V – əsrə aid olan Katex kilsəsinin yaxınlığında) odun yığarkən ayı parçalamışdı. Qara kişinin üzünə baxanda deməzdin ki, həyatından narazıdır: qırmızı dolu yanaqları və gülərüz sifəti vardı. Ümumiyyətlə, bu ərazinin insanlarında havasına uyğun qəribəlik vardı. Eramızdan əvvəl 65-ci ildə Roma və Alban qoşunları arasında Alazan çayı sahilində baş verən döyüşdə iştirak edən qədim yunan tarixçisi Plutarx yazırdı: Alban ərazisində olan bu torpaqların əhalisi sakit təbiətli, məğrur, döyüşdə cəsurdur.

– Neçə ayın qalıb? Artıq günlərmi saydığımı dedim. Sevindi, – ah, nə gözəl, hərbi bileti alan kimi uşaqları da götür, gəlin bizə, sizi zirzəmi çaxırına qonaq edim, toyuq-cücədən də kəsərik. Bilmirəm niyə, amma birdən uşaq kimi “mən toyuq yemirəm” – söylədim. Elə bil bu dəqiqə toyuğu boğazıma dürtəcəkdi.

– Niyə, a bala? Ondan təmiz nemət var?

…Altıncı sinifdə oxuduğum vaxtlardı. Üzməyi hələ bilmirdim və mənə suyun altında üzənlər çox maraqlı gəlirdi. Nəfəsimi tutub neçə saniyə havasız qala biləcəyimi ölçürdüm. Sonra bunu vedrədə yoxladım, daha sonra toyuğu tutub həyətimizdəki arxa saldım. İstəyirdim o da ördəklər, qazlar kimi üzsün, başını bir- iki dəfə suya salıb-çıxartdım. Sonra bir qədər saxladım və öldü. Nənəmin ən sevimli ağ toyuqlarından biri idi. Tətilə qonaq gəldiyim üçün mənə heç nə demədi. Qorxmuşdum, diksinmişdim. Babam gözümün qarşısında basdırdı onu və: belə etmək olmaz, – dedi. Dayım xeyli gülmüşdü, həmən günün səhərindən əzab verə-verə olsa da, üzməyi öyrətdi mənə. Və o gündən toyuq yeyə bilmirəm.

Qara kişi: – sən gəl, gəl, – deyib, dodağının altında gülə-gülə maşına minib getdi.

Kənd camaatı rahat şəkildə postdan gəlib keçə bilirdilər, çünki buralar bizim ərazi sayılırdı. Amma əslində, xidmətdə olduğum üçün onunla danışmamalıydım. Duman artırdı, xidməti daha da gücləndirdim. Belə məqamda xidmət səslə

aparılır. Göz uzağı görmədiyi üçün diqqət daha çox səsə verilir. Dağın ətəyində aşağı posta kimi balaca tağlar tikilmişdi, çox vaxt buralarda iki it yatırdı. Bir dişi, bir erkək. Bir-birinə söykənib yatmışdılar. Elə şirin yatmaqlarına baxıb həsəd aparırdım. Onlara indi nə dərəcədə yaxşı olduğunu, bəlkə də, ağıllarına belə gətirmirdilər. O tayda, uzaqdan it səsləri eşidilirdi, gürcü əsgərləri dağılışmışdı, postları boş idi, deyəsən. Çay öz axarıyla axırdı. Aşağı – Gömrük Postunda yoxlanış üçün dayanan "Tır"ın yiyəsi motoru işə salıb qızdırırdı. Onun nə qədər yol gəldiyini, onu gözləyən ailəsini düşündüm və birdən itlərin səslərini çox yaxında eşidib fikirdən ayıldım. Körpünün tən ortasına kimi gəlib dayandılar və başladılar bir-biri ilə oynamağa. Bir az əvvəl erkək itin yanında uzanmış dişi it yanımdan keçib getdi. Şlaqbaumun qarşısında dayanıb onlara baxdı. Erkək it yatmışdı. Bu səhnə, bu görüntülər heç vaxt yadımdan çıxmayacaq. Dişi it çevrilib "sevigilisinə" baxdı və şlaqbaumun altından keçib getdi. O biri itlərə az qalmış ayaq saxlayıb oturdu. İtlər oynaya-oynaya buna tərəf gəldilər, onu qoxlayırdılar. Birdən biri onu dişlədi, digəri cumdu üstünə, o zingildəyib geri qayıtmaq istəyəndə qarşısını kəsdilər. Erkək it səsə başını qaldırdı və axsaya – axsaya körpüyə tərəf gəldi. Dişi iti zorlayırdılar, erkək itin gözlərində uçurum vardı. Birdən onlara tərəf cumdu, üç it onun qarşısını kəsib mırıldadı. Çayın səsi gəlmirdi, ağaclar, hava – hər şey donmuşdu. Erkək it axsaya-axsaya dala qayıdıb, yerində uzandı. Onlar hamısı, bir-bir dişi iti zorlayıb getdilər. Dişi it də heç nə olmayıbmış kimi qayıdıb erkək itin ayaqları tərəfdə uzandı. Ekrək it aram-aram dərindən nəfəs alırdı. Dişi itin bədəni isə saat kimi vururdu. Göy gurultusu ilə yağışın ilk izi eyni vaxtda oldu. Avtomatın qundağı ilə dişi itin başına dayanmadan vururdum. Macal tapıb başını qaldıra bilmirdi, erkək it isə sadəcə baxırdı. İtin beynini tamam dağıtdım. Səsə çıxıb olanları gördülər və məni həbsə yolladılar.

Yenə xidmətdə idim, erkək it daha buralarda görünmürdü, Qara kişi maşın ilə aşağı postun şlaqbaundan keçib qarşımda saxladı, maqnitafonunda acar rəqsi səslənirdi, səsini alıb:

– Salam, oğul, eşitdim həbsə düşmüşdün. Başın sağ olsun, amma de görüm, o iti nə üçün öldürdün? Üstüvə cumdu? Ondan bir neçə gün bundan qabaq erkəyi maşının qabağına çıxmışdı. Deyəsən, ayağının üstündən keçdim. Yəqin qancıq onun üçün acıqlı olub. Əsas odur canın-başın salamatdır. Nə oldu tərxis olmursan?..

Tərxis olunduğun gün Qara kişini öldürdüm və beləliklə, mən qatil oldum.

## Harakiri

Bütün olanlara üz çevirib, uzun yola çıxırsan, hər addımında suyun içində gedirmiş kimi torpaq ətrafa yayılır. Arxaya çevrilib baxanda ardınca səkkiz nəfərin gəldiyini görürsən. Anlayırsan ki, bu yol tək sənin deyil, sənin kimi bir neçə samurayın yoludur.

Hamı duz xətt üzərində çayın kənarında oturub, dua oxuyur, harakiri etməyə hazırlaşır, üzü dağlara dayanan ağ saçlı nurani kişinin fleytada ifası adamı yatızdırırdı. Məndən başqa hamı gözlərini yummuşdu. Bura cəsarətlə gəlsələr də, ölümə hazır olmadıqları açıq şəkildə görünürdü. Qılıncın altında oturan samuray bir az qabağı əyilsə, dostu onun ölümə hazır olduğunu biləcək və nə etməlidirsə, onu həyata keçirəcəkdi. Hər kəsin qarşısında dəstəyi ağ parçaya bələnmiş xəncər vardı. Fleytada çalınan həzin musiqi dağlara dəyib suya düşürdü, əsən

sərin külək meşənin hündür ağaclarını rəqs etdirirdi. Bir azdan bu ölüm maşınların qanı öz əlləri ilə torpağa töküləçəkdi. Çayın o biri tayında, ağacın arxasından qadın gördüm. Tək deyil, tanıdım, samurayların həyat yoldaşlarıdı.

– Durun, durun deyirəm sizə, aç gözlərini, qılıncı çək onun başından.

Musiqi dayanan kimi qadınlar ağacların arxasından çıxdılar.

Bir o tərəfə baxın, onlar necə sizin ölməyinizi gözləyir. Məni başa düşürsünüz? Bu ritual onlar tərəfindən düşünülüb. Sən, mən onlara görə vuruşmuşuq və bu gün onlar istədiklərinə çatıblar. Bundan sonra yalnız siz onlara mane ola bilərsiniz. Başa düşürsünüz? Ağsaqqal üzünü çaydan çəkmədən:

– Sən kimsən? Bu torpaqlarda nə qəzirsən? – soruşdu. Rahatlıq üçün buralara tez-tez gəldiyimi söylədim.

– Onlar sadiq qalacaqlarına and içiblər, başqa yolları yoxdur. Samurayın həyat və yaradıcılığı ölümə hazırlıqdı, – dedi.

Yanımda dayanan samuray birdən xəncəri özünə sancdı və harakiri elədi. Çayın o tayında yeddi qadın əllərində qılınc suya girib bizə tərəf üzürdü. Samurayların hər birini ayağa durğuzub döyüşməyə səslədim. Hər kəs yenə diz üstə oturub başını aşağı saldı. Qadınlar sahilə az qalırdılar. Özünü öldürmüş samurayın xəncərini götürüb meşəyə doğru qaçdım. Fleytanın həzin səsi yenə bütün meşəyə yayılırdı. Səs yenə birdən kəsildi, çayın kənarında hamını öldürmüşdülər. Qadınları tapıb bir-bir həmən o xəncərlə, qarınlarının sol tərəfinə batırıb sağa doğru sonra isə horizontal çəkib, göbəklərini iki yerə böldüm və hər qadını qətlə yetirəndə o yadıma düşürdü, əlimi nəbzlərinə qoyub son vuruşa kimi onların necə öldüyünü hiss edirdim. Məhz bu baş verənlərə görə mən indi sizin qarşınızdayam.

– Müttəhim kimi sizin istəyiniz nədir?

– Onları bağışlayın!



Məti OSMANOĞLU

# Gənc yazarlar üçün

USTAD DƏRSİ



İngilis yazıçısı və filosofu Oldos Hakslinin (1894-1963) əsərləri ictimai proseslərə kəskin tənqidi münasibəti ilə seçilir. O, dünya ədəbiyyatında antiutopik fantastikanın nümunəsi hesab edilən “Cəsur yeni dünya” (1932) romanı ilə daha çox tanınıb.

İngiltərə tarixində adı hörmətlə anılan ziyalı ailənin övladı olan Oldos Haksli – gənc yaşlarından görmə qabiliyyətində ciddi çətinliklər yaransa da – 1916-cı ildə kollec təhsilini tamamlayıb və həmin il ilk kitabını nəşr etdirib.

İntellektual əsərlər kimi səciyyələndirilən “Sarı boya” (1921), “Təlxəklər dövrəsi” (1923) və “Kontrapunkt” (1928) romanları o zamanın ideoloji və mənəvi böhranından bəhs edir. Hakslinin bu romanlarında insanlığın fəlakəti olan Birinci Dünya müharibəsinin dərin yaraları göynəməkdədir. Bu əsərlərdə müharibənin insanların içində yaratdığı mənəvi böhranın, ruhi sarsıntıların əks-sədası duyulur.

Oldos Hasklinin nəsrində reallıq ən müxtəlif xarakterlərin ərintisi kimi, fərqli qütblərə aid dəyərlərin qarışığı kimi göstərilir. Roman qəhrəmanlarının düşüncəsində müharibənin ağrılı xatirələri, yeni həyatın sarsıntıları, qorxu dolu gözləntilər həyat eşqi ilə qarışdırılır. Yazıçının təsvir etdiyi dünyada kədər, ruh düşkünlüyü ilə laqeydlik, mənəvi yadlıq iç-içədir. Zahirən xaotik təsir bağışlayan təfərrüatların montaj poetikası ilə bir araya gətirildiyi bu əsərlədə satirik gülüş nifrətlə müşayiət olunur.

Oldos Hakslinin “Cəsur yeni dünya” (1932) və “Meymun və varlıq” (1948) antiutopik romanları totalitarizmə qarşı yazılıb. Bu satirik əsərlər “istehlak cəmiyyəti”nin standartlaşdırılmış həyat tərzini əks etdirir. Yazıçının fəlsəfi və sosioloji görüşləri “Cəsur yeni dünya” (1932) antiutopik romanında daha bariz şəkildə təcəssüm olunub. Rus yazıçısı Zamyatinin “Biz” romanındakı ədəbi eksperimentin davamı olan bu əsər sonradan C. Oruellin yaradıclığına da təsir göstərəcəkdi. Bu mütəfəkkir yazıçılar insanlara iki təhlükə barədə xəbərdarlıq etmək məqsədi güdürdülər və roman janrını bu xəbərdarlıq üçün ən təsirli vasitə hesab edirdilər.

Bir əsr bundan öncə onlar bəşəriyyətin iki böyük təhlükə qarşısında olduğundan narahat idilər: birincisi, sürətlə inkişaf etməkdə olan texnikanın həyata müdaxiləsi, ikincisi, dövlətin gücyetməz zorakılığı.

Hakslinin utopiyası, əslində, ironik utopiyadır, parodiyadır, başqa sözlə desək, antiutopiyadır. Bu antiutopiyanın əhatə dairəsinə düşən cəmiyyəti idarə edən dövlətin əsas hədəfi xoşbəxtliyin yeganə mənbəyi olan insan fərdiyyətini məhv etməkdir. Oldos Haksli bununla xoşbəxtlik və azadlığın bir-biri ilə uzlaşa bilməyəcəyini göstərmək istəyir, azadlığa, sənətə, sevgiyə, mənəvi dəyərlərə, insan münasibətlərinə önəm verdiyini vurğulayır. Yazıçının düşüncəsinə görə, azadlıq, sənət, sevgi, mənəvi dəyərlər olmayan yerdə yaşamağın da mənası qalmır.

Oldos Hakslinin 1955-ci ildə nəşr etdirdiyi "Dahi və ilahə" romanında da insanlığın gələcəyi sarıdan narahatlıq, sosial tərəqqiyə və fərdin mənəvi potensialına inamsızlıq daha qabarıq nəzərə çarpmaqdadır. Yazıçı yaradıcılığının son dövründə mistisizmə meyillənib. Qədim Hindistan filosoflarının görüşlərindən və buddizm fəlsəfəsindən aldığı qənaətlərin təsiri ilə 1962-ci ildə "Ada" romanını yazıb.

Yaradıcılığa şeirlə başlayan Oldos Haksli romanlarla yanaşı, fəlsəfi əsərlərin və ədəbi-nəzəri səciyyə daşıyan esselərin də müəllifidir. Təqdim etdiyimiz "Sənətdə səmimiyyət" essesinin Azərbaycan oxucuları üçün də maraqlı olacağını düşünürük.

**Oldos HAKSLİ**

## SƏNƏTDƏ SƏMİMİYYƏT

Ədəbiyyat agenti Maykl Cozef ədəbiyyatın biznes tərəfi haqqında son kitabında bestsellerdən bəhs edir. Kitab necə olmalıdır ki, "Ford" maşını, sabun və ya yulaf əriştəsi kimi satılsın? Yəqin ki, hamımızı bu sualın cavabı maraqlandırır. Əgər pula dəyən bir sirrimiz olsaydı, dərhal dəftərxana dükanına gedib, altı quruşa bir bağlama kağız alıb, həmin sirri sehrli hərflərlə yazıb altı min funta satardıq. Kağızdan faydalı material yoxdur. Bir pud dəmiri saat mexanizminə çevirəndə qoy bir neçə yüz dəfə, lap minlərlə dəfə bahalaşsın; lakin populyar romana çevrilən bir pud kağızdan, həqiqətən də, milyonlarla gəlir götürülə bilər. Bircə kağızı populyar ədəbiyyata çevirməyin reseptini bilsən, yetər! Amma heyif ki, bu resept heç cənab Cozefə də bəlli deyil. Yoxsa cənab Cozef, əlbəttə ki, bestsellerlər yazacaqdı, çünki bu, onun hazırkı işindən, yəni kitab satmaqdan daha sərfəlidir. Bestseller səmimi olmalıdır – cənab Cozefin deyə biləcəyi söz budur. Bu, tamamilə doğrudur, faydasının az olduğu dərəcədə qeyd-şərtsiz doğrudur. Hər cür ədəbiyyat, hər cür sənət, yaxşı, ya da pis satılmasından asılı olmayaraq, səmimi olmalıdır. İstər Çarlz Harvisi , istərsə də Şellini təqlid et, qərəzli saxtakarlıq çoxlu sayda insanı çoxlu sayda illər uzunu aldada bilməz. Müəllif yalnız özü olmaqla uğur qazanır. Bu, aydındır. Yalnız "Azad olmuş Prometey"i yazan Şellinin ağlı kimi bir ağıl bestseller yazacaq. Saxta əsərlərin yaradıcısı öz müasirlərini aldada bilər, gələcək nəsilləri isə şübhəsiz ki, aldada bilməyəcək.

Düzdür, ədəbiyyat tarixində bilərək-

[1]Ədəbiyyat agenti – nəşriyyatla yazıçı arasında vasitəçi

dən edilmiş saxtakarlığa az rast gəlinir. Saxta əsərlərin yaradıcıları arasında Yelizavet dövründə yaşamış Qrin də var. O, Marlonun pyeslərini və Lilinin romanlarını alqışlayan publikanın rəğbətini qazanmaq ümidi ilə "Evfues" əsərini və Marlonun poetik üslubunu mənimsəyib öz adına çıxdı. Öz üslubundan istifadə edərkən Qrinin öz üslubu valehedici və şirindir. Amma onun öz adına çıxdığı başqasının qələmi kimdəsə təəssürat yaradacaq qədər inandırıcı deyil.

Sonrakı dövrdə adı ədəbi saxtakarlıqda hallandırılan daha bir müəllif fransız Katyul Mendesdir . Onun şablon əsasında tikilmiş, iyrənc qırışlı əsərlərini oxuyanda bu əsərlərin bu qədər insanı necə aldatdığına təəccüblənirsən – onun qızılının parıltısı belə ucuzdur, brilyantları isə teatr rekvizitlərinə oxşayır. Mendes kimilər insanları nə ilə maraqlandıra bilər? Onların yazdıqları sənət nöqteyi-nəzərindən heç nədir, ya da heç nə kimidir, bu üzündən o üzü görünən bu əsərlər psixoloqu maraqlı və incə araşdırmalara həvəsləndirməyə qadir deyil. Bu insanlar pul üçün rəsm əsərlərlərinin və ya qədim mizlərin saxta surətlərini çıxardanlara bənzəyirlər. Amma qeyri-səmimi sənət bilərəkdən deyil, təsadüfən qeyri-səmimidirsə, müəllifin səmimi olmaq istəyinə baxmayaraq, qeyri-səmimidirsə, psixoloqun diqqətinə layiqdir.

Gündəlik həyatda səmimiyyət insanın iradəsindən asılıdır. Səmimi olub-olmamağa biz qərar veririk. Onda müəllifin səmimi olmaq istəyinə baxmayaraq, sənət əsərinin qeyri-səmimi ola biləcəyi barədə mübahisə etmək paradoks deyilmi? Əgər müəllif səmimi olmaq istəyirsə, mənə deyəcəklər, buyurun, ona burada öz bəd niyyətindən başqa heç nə mane olmur. Amma bu belə deyil. Sənətdə səmimi olmaq üçün təkcə səmimi olmaq istəyi yetərli deyil.

Həyatda səmimiyyət nümunəsi olsalar da, əsərləri qeyri-səmimi olan bir sıra sənətkarların adını çəkmək çətin deyil. Məsələn, Kitsin və Şellinin dostu, nəhəng və təmtəraqlı dini rəsmlərin yaradıcısı Bencamin Robert Haydon belədir. Naşirlərin axmaqlığı ucbatından yarım əsrdir nəşr olunmayan tərcümeyi-halı bu qəbildən olan ən yaxşı kitablardan biridir, Haydonun həyatdakı səmimiyyətindən, nəcib idealizmindən, ilhamının çalxantılarından və oxucu üçün əziz olan saysız-hesabsız uğursuzluqlarından xəbər verir. Bununla belə, onun həyatını və ehtirasını əks etdirən rəsmlərə nəzər salın. Əgər tapa bilsəniz, bu rəsmlərə baxın, onlar qalereyaların divarlarında olmadığı üçün muzey zirzəmilərində saxlanılır. Buradakı ehtişam saxtadır, ehtiras soyuq və şərtidir, hiss parodiyadan və ritorikadan ibarətdir. Haydonun rəsmləri "qeyri-səmimidir" – istər-istəməz ağıla gələn bu söz olur.

Belçika rəssamı Virts də insan ilə rəssam arasındakı heyrətamiz təzadı göstərir, şəhərdəki təsviri incəsənət qalereyası ilə müqayisədə Vertsin Brüsseldəki emalatxanasına onun rəsmlərinin estetik dəyərə malik olduğuna və ruhu həyəcana gətirdiyinə görə deyil, əndazəsiz ölçüsünə və dəhşətli dərəcədə sentimentallığına görə daha çox insan gəlir. Bu əsərlərin Mikelancelonun xəyallarının daşıyıcısı olan müəllifi rəssamlığın Barnumu oldu, onun muzeyinə sanki dəhşətli görüntülər otağına gəlirmiş kimi gəlirlər.

Əsərləri qeyri-səmimi və köntöy olan Alfyeri də səmimi və dərin insanlar kate-

qoriyasına aiddir. Onun tərcümeyi-halı ilə bu küt, təmtəraqlı, basmaqəlib faciələrin eyni adam tərəfindən yazıldığına inanmaq çətindir.

İş bundadır ki, sənətdə səmimiyyət insanın iradəsindən, düzlüklə vicdansızlıq arasında mənəvi seçimindən asılı deyil. Bu, əsasən, istedaddan asılıdır. İnsan bəzən səmimi, dərin kitab yazmağı bütün qəlbi ilə istəyir, amma buna istedadı əl vermir. Niyyətinin əksinə olaraq, kitab cansız, yalançı çıxır, şərtiliklər və teatrallıqla dolu olur; yazdığı faciə poza verməyə və faqqılığa, yazdığı dram isə şümal melodrama çevrilir. Bütün bunları oxuyan tənqidçi əsnəyir, üzünü turşudur. Kitab qeyri-səmimidir, qərarı tənqidçi verir. Əsəri ən xoş niyyətlə yazan müəllif tənqidçinin ilk baxışda onun ədəb-ərkanını, mənəvi ləyaqətini şübhə altına alan, əslində isə intellektual qabiliyyətlərini ləkələyən hökmündən hiddətlənir. Çünki sənət dilində "səmimi olmaq" "psixoloq olmaq, düşüncə və hissləri təcəssüm etdirmək vergisinə sahib olmaq" deməkdir.

Bütün insanlar, əsasən, eyni hissləri yaşayır, lakin çox az adam nə hiss etdiyini dəqiq bilir və ya başqalarının hisslərini təxmin edə bilir. Psixoloji müşahidə riyaziyyat və ya musiqi qabiliyyəti kimi xüsusi bir istedaddır. Buna sahib olan azsaylı insanların da cəmi iki və ya üç faizi müşahidələrini bədii formada ifadə edə bilmək qabiliyyəti ilə doğulur. Bunun aydın nümunəsi. Çoxları – bəlkə də, demək olar ki, hamı – həyatında nə vaxtsa ehtiraslı eşqə tutulur, lakin bir qayda olaraq, heç də hamı öz hisslərini başa düşə bilmir və bu hissləri ifadə etməyi bacaran tək-tük insanlar olur. Boşanma məhkəmələrində və ya romantik intiharların araşdırılması zamanı oxunan sevgi məktubları əksər kişilərin və qadınların bədii cəhətdən köməksiz olduqlarını sübut edir. Onlar həyəcan keçirir, əzab çəkir, səmimi hisslərlə nəfəs alırlar, amma bunu yaza bilmirlər. Adi bir sevənin təmtəraqlı, şablon sözlər, oxşar ifadələr və ölü ritorika ilə dolu bir məktubuna romanda rast gəlinsə, çox qeyri-səmimi görünər. İntihar edən insanların həqiqi intihar məktublarını oxumuşam, bu məktublara resenziya yazmalı olsaydım, onları tamamilə qeyri-səmimilikdə ittiham edərdim. Halbuki, hisslərin səmimiliyinə insanın o hisslər ucbatından özünü öldürməsindən inandırıcı dəlil varmı? İntihar edənlərin yalnız istedadlıları bədiilik baxımından "səmimi" məktub yazırlar. Digərləri isə yaşadıqlarını ifadə edə bilməyərək, istər-istəməz ikinci dərəcəli romanın bayağı "qeyri-səmimi" ritorikasına qapılırlar.

Sevgililərdən gələn məktublar da belədir. Kitsin məhəbbət məktubları bizi heyran edir, burada əzabını tam dərk edən bir qəlbin canlı, güclü bir dildə əzabı təsvir edilir. Məktubların "səmimiliyi" (müəllif dahiliyinin bəhrəsidir) onları maraqlı edir; bu, Kitsin məktublarını bədii cəhətdən onun poeziyası qədər, bəlkə də, daha çox əhəmiyyətli edir. İndi o dövrün başqa bir gəncinin, əczaçı köməkçisinin sevgi məktublarını təsəvvür edin. O öz sevgilisi Fanni Bronu Kits kimi ümidsizcəsinə sevə bilərdi, amma yazdığı məktublar boş, darıxdırıcı, ümidsiz, "qeyri-səmimi" olacaqdı. O dövrün səssiz-səmirsiz unudulmuş sentimental romanlarının qəhrəmanları ondan daha yaxşı yazardılar.

[2]Çarlz Harvis (1833-1920) – dedektiv əsərlə yazan Amerika yazıçısı
[3]Persi Biş Şelli (1792-1822) – İngiltərə yazıçısı. Britaniya romantiminin klassiklərindən biri
[4]Con Lili (1554-1606) – İngiltərə yazıçısı, "Evfuos və ya hazırcavablığın anatomiyası", "Evfuoa və onun İngiltərəsi" romanlarının müəllifi
[5]Katyul Mendes (1841-1909) – Fransa yazçısı
[6]Con Kits (1795-1821) – İngiltərə şairi, romantizmin nümayəndəsi, bir müddət əczaçı olub

Elə buna görə də sənət əsərini "qeyri-səmimi" kimi təyin edərkən bilmək lazımdır ki, o əsər sözün hərfi, etik mənasında qeyri-səmimidir ki, Qrinin və ya Mendesin saxta əsərləri kimi şüurlu şəkildə təqlid və ya stilizasiyadır. Əksər hallarda isə "qeyri-səmimi" sənət yalnız müəllifin qabiliyyətsizliyindən, psixoloji istedadının olmadığından, düşüncə və hissləri ifadə etmək üçün sənətkara lazım olan verginin çatışmadığından xəbər verir.



# ŞEİR VAXTI



Vüqar Rahi

İzn ver, ey gözəl afət, ölək eşqində sənin,
Diriləк, tazədən atsın ürək eşqində sənin.

Ağladıq vəslivə bəs qədri fərağında, yetər,
Ki, gərəkdir daha, ey gül, gülək eşqində sənin.

Nəzəri –mərhəmətin kəm deyil əğyarlərə,
Biz də bir fikrivə hərdən gələk eşqində sənin.

Şövqi–vəslinlə coşan eşqdə bir biz deyilik,
Dağıdır aləmi, ey gül, külək eşqində sənin.

Müntəzir olmaya kimdir sənə taətdə bəşər?
Sən o kəssən, baş əyibdir mələk eşqində sənin!

Yetən hər aşiqin, ey can, sənə bir layiqi yox,
Sənə layiqli yetişsin gərək eşqində sənin!

Ərseyi–eşqə çağır, cümlə buyursun gəlsin,
Kim olur Rahiyə nisbət görək eşqində sənin?

***

Ağlamaqdan, gülüm, eşqində gözüm qan qoydu,
Sənə biganədən aşiq məgər az can qoydu?!

Ey vəfasız, sənə könlüm nə vəfasızlıq edib,
Ayrılıq şərbətini qarşıma dövran qoydu?!

Mən ki bir tac eləmişdim səni, ey gül, başıma,
Belə bir tacı nə bir xan, nə də sultan qoydu!

Məni məhrum edib əğyarı yetirdin vəslə,
Bu vəfasızlığın, ey gül, məni heyran qoydu!

Neyləmişdim sənə, etdin məni vəslindən uzaq,
Məni pis günlərə sənsiz belə hicran qoydu...

Ayrılıq dərdini səbrim tükənib çəkməkdən,
Məni, ya Rəbb, nəzərindən niyə canan qoydu?

Rahi, bu eşq Minasında şikayət qılma,
Səni layiq bilib Allah bura qurban qoydu!



***
Biganə istəməz sənə aşiq sözün deməkn,
Ey gül, qalır bizə sənə ancaq düzün demək.

Müşkül olan fərağına dözməkdi dilbərin,
Yoxsa ki iş deyil durub, ey dil, dözün demək.

Qəlbində şö'lələnsə kimin ataş eşqdən,
Yüz seyli-qəm də söndürə bilməz közün, demək.

Ey dil, cəmali-həqqə təmaşa edənlərə
Musasifət yetər sənə bir mö'cüzün demək.

Şəmsi-həqiqətin üzünü açsa lütfi-yar,
Əbri-siyəh də gizlədə bilməz üzün, demək.

Dünya gözüylə seyr eləməzlər həqiqəti,
Görmürsə qəlbivin gözü, görmür gözün, demək.

Rahi, açıqdı bəndəyə babi-behişti-yar,
Girdinsə gər cəhənnəmə, etdin özün, demək.

***
Bir müjdə o güldən mənə, ey badi-səba, ver,
Qəmdən tutulan könlümü aç, zövqü-səfa ver.

Tək qoyma qaranlıqda bu can Yusifi, ya Rəbb,
Qurtar bu şəfadən məni, lütf eylə, şifa ver.

Sən gah verib badeyi-vəslin, gah alırsan,
Məndən onu bir dəf'əlik al sən, mənə ya ver.

Ey daği-qəm, aləm deməsin dadrəsin yox,
Can tişəsinin zərbəsinə əksi-səda ver.

Görsün bütün aləm nədir eşqində dəyanət,
Bir Kərbü-bəladən mənə yüz Kərbü-bəla ver!

Eşqində bəla Rahini qorxutmayır əsla,
Mərdanə dayanmış, nə qədər varsa bəla, ver!

***
Hər kimsədə olmaz bu gözəllikdə özəllik,
Göydənmi enibdir yerə, kimdir bu gözəllik?

Görcək onu könlüm elə bir gəldi ki vəcdə,
Təkbir deyib sübhədək istər edə səcdə.

Ey göz, hələ sən vəsfə gələn surətə bir bax,
Ey çeşmeyi-təb'im, nə durubsan belə, coş, ax.

Gözlər qara dərya, qaşı dağ, zülfü şəlalə,
Tər qətrəsi gül çöhrəsi üstündəki jalə.

Ey varlığı ne'mət olan aləmdə sözümçün,
Xaliq səni xəlq eylədi ehsanmı gözümçün?

Ya Rəbb, ölürəm hər nəfəs ol yarə baxanda,
Çarə elə, yarə məni – biçarə baxanda.

Sən mehrin, İlahi, mənə yar eylə o mahi,
Yoxsa belə can tapşıracaqdır ona Rahi.

***
Ey gül, tapa bilməzsən dünyadə elə bəndə,
Can gəzdirə cismində, sən qılsan əgər xəndə.

Bal ləblərivin nəqli başdan çıxarıb əqli,
Könlüm buna meyl eylər bir tutisifət qəndə.

Sən öylə çiçəksən ki, yox buyinə bənzər bu,
Xoşhal eləyir ətrin bülbülləri gülşəndə.

Ey hər iki aləmdə həm dövlətim, həm varım,
Sənsən bir ömür yarım olduqca nəfəs təndə.

Eşq ilə get, ey Rahi, rahi – Şəhi – Mərdanı,
Olmaq diləmirsən gər məhşər günü şərməndə.

***
Nuş et, şərabi-sağəri-hicran, əcəl deyir,
"Dari-fənadən ayrılıb üqbayə gəl", – deyir.

Meyxanələrdə piri-muğan tapşırıb bizə:
"Saqi əyağına yetirin mütləq əl", – deyir!

Dərk et qədəhdə badeyi-gülrəng rəngini,
Meysiz cəmali-batinin olmaz gözəl, deyir!

Qədri-kəmali-əhli-dilin imtiyazını
Mizani-həqdə ruzi-qiyamət əməl deyir!

Ya Rəbb, bu şəb yetirmə nəzər özgə bir qula,
Sultani-şe'r Rahi səninçün qəzəl deyir!

***
Görsəydi ay cəmalıvı açdıqda sən niqab,
Qəşş eyləyərdi, eyləməyib afitab tab.

Badi – səbayə ver ki, dağıtsın bu aləmə,
Mişkin saçın həvasına olsun gülab ab.

Hər dəm əlimdə cami – meyi – xoşgüvar var,
Lə’li – ləbindir aşiqə, ey gül, şərabi – nab.

Tapmaz kəmali – hüsndə bir kimsə nisbətin,
Hər gün diyari – eşqə düşüb gəzsə bab – bab.

Mədhi – Muhəmməd, ali – Muhəmməddi məqsədin,
Rahi, nə xoş bu halıva ki, eylədin səvab.

***
Bir gün çəkən xəyali-səri-zülfi-yarımı,
Min il çəkir hesabə qəmi-ruzigarımı.

İstərsən et əsiri-qəmi-eşq özün kimi,
Mən vermişəm sənə, könül, öz ixtiyarımı.

Ey zülf, tutmusan nədi rüxsari-yarı sən,
Qoy bir doyunca seyr eləyim gül’üzarımı.

Dərdi-fəraq içində verib vəsl müjdəsin,
Asudə eyləsin bu dili-biqərarımı.

Bir qönçeyi-muradım açılmaz bu dəhrdə,
Gülzari-eşq içində görün növbaharımı.

Seyr eyləyəndə, bəlkə də, xatırladır sənə
Hər lalə dağdə bu dili-dağdarımı.

Sandım ki, mən özüm deyiləm, özgədir baxan
Ayinədə görüncə mən öz hali-zarımı.

Bildim, cahanda hər gözələ yoxdur e’tibar,
Ta bivəfa görüncə bu gün öz nigarımı.

Rahi, inanma qəlbinə bir eyləsin əsər,
Yüz yol eşitsə də o gözəl ahü-zarımı.





Alpay AZƏR

# Ali rütbəli nəzarətçilər

*"Universitet hekayələri" silsiləsindən*

İyunun sonu əsas dərs dediyim universitetin (qısaca ƏDDU) tədris üzrə prorektoru Cəfər müəllim məni yanına çağırıb dedi ki, Azərbaycan Nəqliyyat Universitetində (ANU) sentyabrdan ingilis dilində Azərbaycan tarixi və politologiyadan dərs deyən müəllimə ehtiyac var, hər saatına iyirmi iki manat verirlər. Təklif bizim prorektorun ANU-da kafedra müdiri işləyən tanışı Ziya müəllimdən gəlmişdi. Tezcə razılaşdım, – pula ehtiyacım varıydı. ƏDDU ilə müqayisədə ANU-dakı saathesabı dərs pulu qat-qat çox idi.

Ziya müəllimlə görüşüb söhbət etdim, dərs prosesindən, oranın qayda-qanunlarından tutmuş, onun ixtisası olan sosiologiyaya qədər gedib çıxdıq, Emil Dürkheymdən, Qüstav Lebondan danışdıq. Fəlsəfəyə keçəndə hər ikimizin ekzistensializm, Sartr aşiqi olduğu məlum oldu. Ertəsi gün Cəfər müəllim məni təbrik edib dedi ki, Ziya müəllim səni çox bəyənib, deyib ki, hətta gələcəkdə tam ştata götürməyi fikirləşir.

ANU rektorunun barəmdə əmri çıxan kimi silabusları, iyulda hazırladığım on bir mühazirəni, dərslikləri Emproda (1) yerləşdirdim, sentyabrın on beşi otuz səkkiz tələbəyə ingilis dilində Azərbaycan tarixi fənnindən ilk mühazirəmi dedim.

Oktyabrın sonu Ziya müəllim qəfil qapını açıb dərsimə girdi, mühazirə mövzum Atabəylər dövlətiydi. Bəxtimdən bu mühazirəyə daha yaxşı hazırlaşmışdım. Ziya müəllimə xoş gəlməkçün arada məşhur ərəb tarixçilərindən misallar çəkdim, Şəmsəddin Eldəgizin timsalında şəxsiyyətin tarixdəki həlledici rolundan danışdım, tələbələrə suallar verib dialoqa çəkdim ki, dərs maraqlı, canlı keçsin. Kafedrada Ziya müəllim ümumən mühazirədən razı qaldığını, amma bəzən mövzudan kənara çıxdığımı dedi. Başımı tərpətdim, yəni razıyam. Onu deyim, ANU-da auditoriyaların çoxunda kamera vasitəsilə hamımız rektorluğun, dekanlığın müntəzəm nəzarəti altındaydıq.

Bir gün politologiyadan mühazirə dediyim 416-cı auditoriyaya qəfil girən "Sürücülüyün əsasları" fakültəsinin dekanı Elvin Abışov salam verib tələbələrə nəzər salandan sonra üzünü mənə tutub başladı: "Niyə tələbələrin qarşısında mühazirə mətnləri yoxdu?" Əlimlə üç-dörd tələbəni göstərdim, yəni baxın, qarşılarında mühazirə var. Dekan masanın üstündəki jurnala baxıb dedi: "Burda on səkkiz tələbə var, cəmi... bir, iki, üç, dörd. Dördünün qarşısında mühazirə mətni görürəm, qalanlarında yoxdu". – "Yoxdu deyəndə ki, onlara hazırda keçdiyim mühazirəni emproya yerləşdirmişəm. Mən danışanda tələbələr ya lövhədə əks olunan mühazirəyə baxırlar, ya da mənə qulaq asırlar. Yəni..." – "Gəray məllim, zəhmət olmasa, dərsdən sonra gələrsiz yanıma", – əsəbi halda auditoriyadan çıxdı.

Zəng vurulan kimi getdim bunun yanına, dərsdə sözümü axıra qədər deməyə imkan verməmişdi deyə, detala varası oldum:

"Tələbə əgər proyektorla lövhədə əks olunan mühazirə mətnini görürsə, eyni zamanda məni eşidirsə, həmin mühazirənin kağız variantına nə ehtiyac var? Belə çıxır, tələbə gah lövhəyə baxmalıdı, gah kağıza, eyni zamanda qulağı məndə olmalıdı? Finlandiyada artıq ibtidai siniflərdə şagirdlər dəftər əvəzinə planşetdən istifadə edirlər. Üstəlik, tələbə burda hər dəfə printerçün pul verməlidi". Mənə qulaq asa-asa başını bulayan dekanın cavabı bu oldu: "Gəray məllim, burda qayda belədi, proyektor vardı, yoxdu, mühazirə mətni hər tələbənin qarşısında ol-ma-lı-dı! Vəssalam. – Əlini masaya vurdu. – Qaldı ki tələbələrin printerə verdikləri pullara, siz narahat olmuyun, o pullar işlətdikləri telefonun qiymətinin heç yarısı eləmir. Yeri gəlmişkən, mən bayaq dərsdə soruşmadım, sizdə yazılı mühazirə, silabus var?" – "Var", – portfelimi açıb silabusu, mühazirəni çıxardıb onun qabağına qoydum, əlavə etdim: "Mən mühazirəni ona görə print edirəm ki, arada partaların arasıyla gəzə-gəzə danışanda tarixlərə, statistik faktlara baxmalı oluram. Amma tələbələrlə bağlı yenə deyirəm... – "Siz məni yorduz, Gəray müəllim. – qalstukunu boşaltdı. – Vaxtımı alırsız. Nə deyirəmsə, onu da etmək lazımdır". Heç nə demədən dilxor halda bunun otağından çıxdım.

ANU-da Ziya müəllim bir növ, mənə zamin durmuşdu, təbii ki, baş verənləri mütləq bilməliydi. Ertəsi gün ona dəyib hər şeyi olduğu kimi danışdım. "Nə deyirlərsə, onu da elə, rəhbərliklə söz güləşdirmə, ağa deyir, sür dərəyə, sür dərəyə. Gələn dəfə tələbələrə ciddi şəkildə tapşır, mühazirələri stolun üstündə olsun ", – dedi. Təlimata uyğun bütün qruplara verilən tapşırığı çatdırdım.

Axırıncı yoxlamadan iki həftə sonra yenə həmin qrupa təşrif buyuran dekan jurnala həmlə etdi, diqqətlə gözlərini qrafaya zilləyib dedi: "Qayıbları yazmısız?" – "Yazmışam". – barmağımla iki nəfərə yazdığım qayıbı göstərdim. "Bəs niyə "iştirak edir"ləri yazmamısız?" – "Bu gün seminardı. Cavab verib qiymət alanlar olacaq, ona görə o yerləri boş saxlamışam". (Seminarda tələbə cavab verməyəndə zəng vurulmağa beş dəqiqə qalmış adının qarşısında ie, yəni iştirak edib yazılır.) Dekan "Düzdü" deyib auditoriyaya nəzər saldı, nəhayət, bunu ilk dəfə özümdən razı saldığıma görə sevindim. Sonra kompüterə yaxınlaşıb kollokvium (2) qiymətlərinə baxmaq istədi. Menyuya girib bunun istədiyi bölməni açdım. "Belə olmaz, Gəray məllim. Tələbələrə çox yüksək qiymət yazırsız. Səkkiz bal, doqquz bal", – başını bulayıb dedi. "Yüksək deyəndə, maksimum bir-iki bal artırıram, yəni beş ballıq cavab verənə doqquz yox, altı, ya yeddi yazıram..." – "Vəliyeva Aydanın axırıncı kollokvium qiyməti səkkizdi. Aydan Vəliyeva ayağa dursun". İkinci partada oturan arıq, gözlüklü qız ayağa durdu, həyəcandan rəngi ağardı. "De görüm, parlament nəyə deyirlər?" – "Ölkənin qanunverici orqanına parlament deyilir", – qrupun ən fəalı Aydan kəkələyə-kəkələyə cavab verdi. Düzgün cavabdan narazı qalan dekanın sifətində "Hansı sual verim ki, cavab verə bilməsin" ifadəsi yarandı. Diqqətlə auditoriyaya baxdı, qarşılarında mühazirə olmayan beş-altı tələbəni qaldırıb başladı: "Niyə qarşında mühazirə mətni yoxdu?" Hamısı aşağı-yuxarı eyni cavabı verdi: "Yadımdan çıxıb evdə qoymuşam". Mənə tərəf çönüb dedi: "Gəray məllim, narazı qaldım sizdən. Yenə tələbələr mühazirəsiz dərsə gəlir, layiq olmadıqları qiyməti yazırsız". Dərhal auditoriyanı tərk etdi, çatdırıb deyəmmədim ki, gördünüz axı, keçən dəfəkiylə müqayisədə bu dəfə tələbələrin ən azı səksən faizi dərsə mühazirə mətniylə gəlib.

ANU-da bir mühazirə aralarında beş

dəqiqə fasilə olmaqla iki qırx beş (doxsan) dəqiqə idi. Qaydaya görə, zəng vurulmamış tələbələr mobil telefonlarını söndürüb ön sıradakı partalardan birinin üstünə düzməliydilər, dərs boyu tam sakitliyə riayət etməliydilər, kimsə başını əllərinin üstünə qoyub mürgüləməməli, yatmamalıydı, oğlanların saçları uzun olmamalıydı, qısa, ya uzun saqqaldansa söhbət gedə bilməzdi.

Bir gün beş dəqiqəlik fasilədə auditoriyada peyda olan tədris işləri üzrə prorektor orta sıradakı partada başını əlləri üstünə qoyub mürgüləyən Coşquna yaxınlaşdı: "A bala, dərsdə niyə yatmısan?" – "Gecə gec yatmışdım", – ayağa duran tələbə gözlərini ovuşdurdu. "Dur hələ bir əsnə də. Gec yatma də, tez yat". Mən dillənəsi oldum: "Nəsrulla məllim, tez-tez tələbələrə deyirəm, kim gecə səkkiz saatdan az yatırsa, səhər bir fincan espresso içib dərsə gəlsin. Görünür, Coşqun bu gün kofe içmiyib", – saxta təbəssümlə dedim. Hərçənd, bunu deməyimə ehtiyac yoxuydu, çünki tələbələr həmin fasilədə mürgüləyə, öz aralarında söhbət edə, telefonu götürüb kiməsə zəng edə bilərdi. Espressoyla bağlı prorektora sanki məruzə etməyim özümə yaltaqlıq kimi gəldi, deyəsən, tələbələr də bunu hiss etdi. Nəsrulla çıxan kimi tələbələrə verdiyim "Başa düşmürəm, beş dəyqəlik tənəffüsdə sizin mürgüləməyinizə niyə icazə vermirlər" ritorik sualı isə özümü onlara xoş göstərmək, bir növ, reabilitasiya cəhdiydi.

Böyük auditoriyada potoka mühazirə deyərkən Elvin Nəsrullayla təşrif buyurdu. Yenə dekan masaya yaxınlaşıb diqqətlə jurnala baxdı, ie və qb-lar (qayıb) yazılmışdı, tələbələrin əksəriyyətinin mühazirəsi qarşısında idi. Prorektor qrupla bağlı mənə biriki ənənəvi sual (Necə oxuyurlar? Özlərini necə aparırlar?) verib cavab alandan sonra öndə oturan Musanı ayağa qaldırdı: "Hə, de görüm, Azərbaycan Demokratik Respublikası neçənci ildə yaranıb?" – "Min doqquz yüz on səkkizinci il mayın iyirmi səkkizində". Nəsrullanın növbəti sualı özünü yetirdi: "O respublikanın yaranmasında kimlər iştirak edib?" Tələbə duruxdu. "Həyəcanlanma. Bir az fikirləşsən, tapacaqsan", – ürək-dirək verdim, əminiydim ki, Musa bu sadə sualın cavabını verəcək. "Abbasqulu ağa Bakıxanov". Prorektor özündən razı halda güldü, nəhayət, tələbənin dərsimdə səhv cavab verdiyinə şahid olan dekanın sifətində məmnunluq ifadəsi yarandı, mənimsə başıma elə bil qaynar su tökdülər. Musa Azərbaycan tarixini yaxşı bilən, seminarlarda tez-tez cavab verən azsaylı tələbələrdən biri idi. Ali rütbəli nəzarətçilər auditoriyadan çıxan kimi Musanın üstünə düşdüm: "Biabır elədin məni. Rəsulzadə, Topçubaşov dura-dura, Bakıxanov hardan ağlına gəldi?" – "Vallah, həyəcandan oldu", – Musa günahkarcasına dilləndi.

Yoxlamalardan artıq boğaza yığılmışdım, çox vaxt elə bilirdim, bu dəqiqə yenə özlərini yetirib bir "əmma" tapacaqlar. Bir də görürdün, dekan müavini dərsə girdi. Oğlanlardan birinin saçı azca uzun olduğuna görə dəlləkxanaya, o birisinisə universitetdən verilən çantanı özüylə gətirmədiyinə görə yataqxanaya göndərdi və dərhal başımın üstünü kəsdirib "Məllim, ikisinin də qayıdını yazın" əmrini verdi. Etiraz etmədən dediyini etdim.

Bəzən mənə elə gəlirdi, dekan, ya prorektor auditoriyaya girib tələbəyə yox, mənə belə bir sual verə bilər: "Cəlairilər dövlətinin paytaxtı hansı şəhər olub?" Cavab verə bilməsəm, rahatca məzələnməkçün "Nyu York" deyə bilərdim. "Məni dolamısız?" desələr, yerində oturdardım: "Bəs siz niyə burda imtahan qurmusuz? Bilirsiz ki, qarşıma məqsəd qoysam, soyuq müharibə tarixindən qalın-qalın monoqrafiyalar yazan Henri Kissincerə həmin mövzuyla bağlı elə

sual verərəm, cavab verə bilməz. Yox bir, bəlkə, sual verəsiz ki, Şah Abbasın dövründə Səfəvi ordusunda nizə, qılınc, ox sayı nə qədər idi?” Arada Faiq adlı tələbəm mənə Azərbaycan tarixiylə bağlı çaşdırıcı, çətin suallar verirdi, altısına cavab verə bilirdim, ikisinə yox. Axırda bu suallardan bezdiyimçün Faiqə “Get özünü dola” deyəsi oldum. Mənə elə gəlirdi, dekanlıq bu tələbənin vasitəsilə bilik səviyyəmi yoxlayırdı.

Birinci semestri başa vurdum, yazılı, test suallarını yazıb Emproda yerləşdirdim, imtahanlarda çalışdım tələbələrə həddən artıq yüksək bal verməyəm, hər qrupda dörd-beş nəfər heç nə yazmadığına görə imtahandan kəsildi. Yaz-yay semestrinə bir neçə gün qalmış Ziya müəllimlə görüşüb soruşdum, imtahanlarda dekanlıqdan, ya rektorluqdan mənimlə bağlı narazılıq olmayıb. “Yox, hər şey qaydasındadı. Plyus, sənə yaxşı xəbərim var, amma hələlik heç kimə heç nə demə”. Məlum oldu ki, kafedrada rus bölmələrinə Azərbaycan tarixi fənnini deyən Hilal müəllim apreldə təqaüdə çıxır, Ziya müəllim məni mayda ştata götürməklə bağlı rektorla görüşəcək. Xeyli təşəkkür etdim ona. Bir tərəfdən, yüksək maaş və kafedrada müəllimlərlə yaxşı münasibətə görə sevinirdim. O biri tərəfdənsə ilk semestrdə üzləşdiyim yersiz danlaqlara görə ANU-ya tam ştata keçməyimlə bağlı tərəddüd içindəydim. Ümid edirdim, orda işə düzəlsəm, problemləri yenə kafedra müdiri vasitəsilə həll edəcəm, rektorla görüşüb mənimlə bağlı yersiz yoxlamalara birdəfəlik son qoyacam.

Həvəslə başladığım yeni semestrin ilk ayında, fevralın iyirmi ikisi ürəyimə daman şey baş verdi. Həmin gün dalbadal üç dərsim, – iki qrupa seminar, potoka mühazirəm varıydı. Birinci dərsdə dekan müavini təşvişlə içəri girib salamsız-kəlamsız cumdu orta sıradakı son partaya. Məlum oldu ki, kameradan baxanda yan-yana oturan tələbələr telefonlarıyla oynayırmış. Görünür, Çaldıran döyüşü haqda dərslikdən əlavə oxuduğum məlumatları elə ehtirasla, həvəslə danışmışdım ki, son partada oturan həmin tələbələrin telefonlarında oynamaları nəzərimdən qaçmışdı. Dekan hər iki tələbəni xeyli danlayandan sonra onları özüylə yuxarı–cərimə meydançasına apardı. Mən tənəffüsdə jurnalı rəfə qoymaqçün dekanlığa qalxanda həmin tələbələr ayaq üstə başlarını aşağı salıb kədərli-kədərli gözlərini bir nöqtəyə zilləmişdi, hiss olunurdu ki, iyirmi beş-otuz dəqiqə ərzində onları xeyli tənbeh ediblər. Yeri gəlmişkən, dekan müavinindən sonra həmin dərsə qəfil təşrif buyuran rektorun köməkçisi Asif adlı tələbəni durğuzub xeyli danladı, ona “avara” deyib auditoriyadan çıxdı. Dərsin sonunda tələbədən soruşdum, sən neynədin ki, o gəlib səni danladı. Yanında oturan Əhmədi göstərib dedi: “Bunun başına bircə dəfə çırtma vurdum”. Hamımız gülüşdük.

Bunun ardınca ikinci potok dərsim beş dəqiqə olardı başlamışdı ki, mobil telefonuma zəng gəldi. Birinci zəng bitməmiş, qırmızını basıb zəngi saxladım. ƏDDU-dakı kafedramızın laborantından gələn zəng kafedraya çatdırmalı olduğum millət vəkili olan dissertanta yazdığım rəylə bağlı idi. Bir dəqiqə keçməmişdi, mühazirə deyədeyə arada yarıaçıq qapıya baxan vaxt bir də gördüm, dekan müavini pilləkənləri iki-iki düşərək yuxarıdan aşağı şığıyır. İçəri girən kimi “Bəs sizə deməyiblər, telefon ya sönülü olmalıdı, ya da səssiz rejimdə çantanın içində”. – “Yox, bu barədə heç kim heç nə demiyib”. Bunun hərəkətlərinə gülməkdən güclə özümü saxladım. “Siz hardan bildiz ki, telefonum zəng çaldı?” – soruşdum, doğrudan, bilmək istəyirdim, axı telefonumun ilk zənginin axıra qədər çalınmasına imkan verməmişdim. “Siqnalizasiya,” – cavab verdi.

Nəhayət, həmin gün yenə dekan müavini sonuncu dərsdə hövlnak özünü içəri salıb həyəcanla demişdi: "Kameradan baxırdım, tələbələr yenə bir-birinə qarışmışdı". – "Necə yəni bir-birinə qarışmışdı?" – "Əl-qollarını tərpədə-tərpədə danışırdılar", – özü də əl-qolunu tərpətdi. O dəqiqə tutdum söhbəti: "Fəqan məllim, indi seminardı, tələbələr cavab verir, jestikulyasiyalarla danışmaları normaldı. Yaxşı, geniş izah edim. Siz kameradan baxanda mən tələbələrə sual verdim ki, niyə Azərbaycan Demokratik Respublikasının himnini yazan Üzeyir Hacıbəylini repressiya dövründə güllələmədilər və dedim, kim bu suala düzgün cavab versə, seminar cavabına iki bal əlavə edəcəm. Ona görə qızğın debat başladı, əl-qol hərəkəti də ona görə olub". – "Yox, Gəray məllim, tələbələr bir-bir cavab verməlidi, əllərini qaldırıb cavab verməkçün icazə almalıdılar". – "Bunlar robot deyil, ay Fəqan məllim, emosional varlıqlardı. Pıçıltıyla cavab verəsi deyillər ki". Dekan müavininin narazı-narazı başını bulaması məni hövsələdən çıxartdı: "Vallah, bir o qalıb deyək ki, ay tələbələr, dərsdə dərindən nəfəs almayın". Gülüşmə qopdu, pərt olan Fəqan onlara təpindi: "Nəyə gülürsüz? Dediyim şeylər sizə aiddi e". Auditoriyadan çıxanda üzümə baxmadan bu sözləri atdı: "Gəray məllim, mən dediyimi dedim. Mən bir də bura gəlməyəcəm". "Belə iki gözüm aydın", – ürəyimdə dedim.

Ertəsi gün məni yanına çağıran Ziya müəllim elan etdi: "Mənə dünən yuxarıdan tapşırıq gəldi, sən bu gün işdən çıxmaq haqda ərizə yazmalısan". – "Niyə?" Hərçənd, dünəndən belə bir şeyin olacağını hiss etmişdim. "Dedilər, auditoriyaya nəzarət edə bilmirsən, tələbələr dərsdə telefonla oynayır, səs salırlar, mühazirəsiz dərsə gəlirlər". Mən də olanları danışdım: həmin iki oğlan lap arxadakı partada oturmuşdular deyə, telefonla oyndıqlarını görməmişəm, eləcə də oğlanlardan biri o birinə çırtma vuranda həmin vaxt gözüm ya elektron lövhədə, ya da arxam tələbələrə tərəf olub. Ziya müəllim sağ dirsəyini göstərib dedi: "İnanırsan, dünəndən əsəbdən bu qolum ağrıyır. Amma heç düz eləmədilər. İnsafsızlar. Ən azından, mayın axırına qədər sənin dərs deməyinə imkan verməliydilər". Məni anlamasından ruhlanıb əlavə etdim: "Sizə yalan məlumat veriblər. Dekan mənə birinci dəfə irad tutanda ki tələbələr mühazirəsiz dərsə gəlir, o biri dərslərdə  elan etdim ki, sabahdan mühazirələri print edib gətirməlisiz və tələbələrin çoxu dediklərimə əməl etdi. Növbəti dəfə mərdimazar Elvin yenə auditoriyaya girib gördü ki, on səkkiz tələbədən cəmi beş-altısının qabağında mühazirə yoxdu. O dəyqə mənə qayıdasan ki, sizdən narazı qaldım. Yəni biləsiz ki, bu adam qırımızı-qırmızı yalan danışır".

Xülasə, rektorun adına kafedra müdirinin imla kimi diktə etdiyi ərizəni yazdım: "...Üzrlü səbəblərdən filan tarixli, filan saylı əmrə xitam verilməsini xahiş edirəm". Ertəsi gün ərizədə "üzrlü səbəblər" sözləri yazdığıma peşman oldum, elə çıxırdı, bu işlərdə mən günahkaram. Səhərisi kafedraya getdim, yenə başladım gileylənməyə, bildirdim ki, saathesabının pulunu alandan sonra dekanın yanına girib etika daxilində ürək sözlərimi demək istəyirəm. "Gəray məllim, sənin xasiyyətinə bələdəm. Mədəni adamsan, bilirəm ki, sənin ağzından kobud söz çıxmaz. Ona görə problem yoxdu, ona öz ürək sözlərini deyə bilərsən". Yeni ərizədə "üzrlü səbəblərdən" əvəzinə "müəyyən səbəblərdən" yazıb imzamı qoydum və əsas sualı verdim: "Yaxşı, mənim işdən çıxarılmamın səbəbi nədi?" – "Hə, Gəray məllim. Bəzi təxminlərim var, amma onları hələ deyə bilmərəm. Nə vaxtsa bilərsən".

Söhbət vaxtı məlum oldu ki, keçən il məndən öncə saathesabı dərs deyən qadın müəllim bir dəfə zəngin çölə vurulmasına

on dəqiqə qalmış telefonunda votsapa giribmiş. Dekanlıq, rektorluq eyni oyunu onun da başına açıbmış, sadəcə, Ziya müəllimin prinsipiallığı, inadkarlığı hesabına o müəllimə semestrin sonuna qədər dərs deməyə imkan veribmişlər. Rektorun adına olan izahatda isə telefonundan yoldaşına təcili mesaj yazmaqçün istifadə etdiyini yazıbmış. Belə başa düşdüm ki, Ziya müəllimin bu dəfə məni müdafiə etməyə enerjisi, həvəsi qalmamışdı, həm də istəmirdi, mənə görə rəhbərliklə üz-üzə gəlsin, düzü, buna görə onu qınamırdım.

Ərizəni imzalayandan sonra sanki üstümdən ağır bir yük götürüldü, bezdirici, mənasız danlaqlardan qurtulmuşdum, bu, bəlkə də, növbəti günlərdə oxşar situasiyalarla üzləşməmək istəyimlə bağlı keçirdiyim şüuraltı hiss idi. O biri tərəfdənsə stressli günlərim başlamışdı, pislik edənlərdən qisas almaq ehtirası məndən əl çəkmirdi. Əvvəlcə feysbukda ANU-nun rəsmi səhifəsini işarələyib başıma gələnlər haqqında şikayət statusu yazmaq ağlımdan keçdi, qalmaqal sevmədiyimçün bu fikirdən tez soyudum. Məhkəmə variantını da özümdən uzaqlaşdırdım: ərizə yaz, vəkil tap, iclaslara get, vaxt itkisi, sonda isə nəticəsi olmaya və növbəti əsəb mərhələsi. Nə də Təhsil Nazirliyinin imeylinə şikayət məktubu yazdım.

Son bir ayın pulunu almağıma on beş gün qalırdı, dekan bununla bağlı sənədlərə imzasını qoymalıydı. Küçəylə gedəndə, liftlə qalxanda, düşəndə arada qeyru-ixtiyari öz-özümlə danışırdım, "tanış-biliş görər" məsələsini vecimə almırdım. Məni ən çox əsəbiləşdirən qovulmamın əsl səbəbini bilməməyim idi. Aydın məsələdir ki, bir gündə dörd dəfə dekan, dekan müavini və rektor köməkçisinin auditoriyaya girməsi qabaqcadan planlaşdırılmışdı, məqsədsə nəyin bahasına olursa olsun, nöqsan tapıb mənə ərizə yazdırmağıydı.

Qurduğum plana görə, əvvəlcə dekan müavinindən onunla bir yerdə qonşu otaqda oturan dekanın yanına getməyi xahiş edəcəkdim, ora daxil olan kimi hər ikisinə içimdə yığılanları deyib çıxacaqdım. Neçə günüydü fikirləşirdim, son saathesabının pulunu alandan sonra gedib ürəyimdəkiləri dekana, müavininə deyim, yoxsa həmin pulu almağımla bağlı lazımi sənədləri Elvinə imzalatdırandan dərhal sonra? Qorxurdum, dekan sənədə imza atandan sonra istədiyimi deyib çıxanda növbəti mərdimazarlığını edər. Tutaq ki, tədris şöbəsinə zəng vurub guya "sənədlərdə səhv var" bəhanəsiylə onları geri alıb cırardı, – məni öz ayağına gətirdib üzr istətdirməkçün.

Stressdən qurtulmaqçün arada xəyalımda səhnə qururdum. ANU-ya rektor təyin olunduğum günün səhərisi Elvinlə Fəqanı ayrı-ayrılıqda otağıma çağırtdırıb hər ikisinə işdən çıxmaq haqqında ərizə yazmalarını tapşırıram. Rəng alıb rəng verən Elvinin "Axı nə baş verib?" sualına "Dəfələrlə işə gecikmisiz. İş saat doqquzda başlayır, siz onun yarısı, bəzən ona qalmış işə gəlirsiz. Belə olmaz". Elvin, doğrudan, çox vaxt həmin saatlarda işə gəlirdi. Fəqanın "Niyə?" sualına isə "Tələbələrə dəfələrlə haqsız yerə qayıb yazdırdığınıza, qışqırıb onları təhqir etdiyinizə görə".

Kafedra müdirinin imzasıyla saathesabı sənədlərimi götürüb yollandım mərdiməzarxanaya. Dekan sənədlərə baxdı, saatları jurnalın kseroks olunmuş səhifələrindəki qeydlərlə tutuşdurub gördü, hər şey qaydasındadır, imzasını qoyub mənə qaytardı. Nəhayət, başladım: "Bu nə oyunuydu başıma açdız?" Əliylə stulu göstərdi, oturdum, monoloquma davam etdim: "Məni burdan çıxardacaqdızsa, əsas iş yerimdə yarım yox, tam ştat dərs götürərdim də, tay burda saathesabıya əvvəldən razı olmazdım". – "Siz axı bilirsiz, nəyin üstündə çıxarılmısız? Dərsləri-

nizdə tələbələr dəfələrlə telefonlarında oyun oynayıb, hamısı da kamerada var". – "Dərslərdə yox, iki-üç dərsdə olub". – "İki-üç dərs elə dəfələrlə deməkdi, buna görə, əslində, biz sizə bir neçə dəfə töhmət verməliydik". – "Lap töhmət versəydiz belə, bu cür şeylərə görə müəllimi semestr bitməmiş işdən çıxartmırlar. Sizin məntiqlə gərək ali məktəblərdə dərs deyən müəllimlərin ən azı əlli-altmış faizini semestrin ortasında işdən çıxardalar". – "Hər ali məktəbin öz qaydası var. Bizdə qayda belədi". – "Bizdə belədi nədi? Elə bil burdakı məllimlər, tələbələr başqa planetdən gəliblər. Guya bilmirsiz ki, ideal qayda-qanunun, nəzarətin olduğu auditoriya yoxdu? Heç dünyada belə şey yoxdu. Əminəm ki, Harvardda, Oksfordda araşdırsan, orda da arxa cərgədə oturan tələbələr arasında telefonlarında qurdalananları tapmaq olar. Əsas odur, tələbə telefonuyla səs salıb dərsin gedişatını pozmasın. Bir də, axı demişdim, o uşaqların telefonla oynamağını görməmişəm, göz yummamışam, sadəcə görməmişəm. Məni o vaxt işdən çıxartmaq düzgün olardı ki, bütün dərslərim səs-küy içində keçərdi, dərsin yarısını futboldan, şou-biznesdən danışardım, dəfələrlə iyirmi-otuz dəyqə dərsə gecikərdim, qiymət yazmaqçün tələbədən rüşvət istiyərdim". Sonda üç il əvvəl Dağıstan Tibb Universitetində elmi dərəcəsi olan müəllimin böyük auditoriya qarşısında qəfil mühazirəni yarımçıq qoyub sus-pus paltarlarını soyunub lütlənməsi, tələbələrin qaçacaq dəhlizə çıxması hadisəsini danışıb dedim, bax, belə şeyə görə müəllimi işdən çıxardarlar. Hərçənd, sonralar yandex.ru-da o məsələni araşdırıb bildim ki, həmin müəllim beyin xərçəngi səbəbindən hadisəni anlaqsız edibmiş, bunu bilən tələbələr onu işə bərpa olunmasını xahiş edibmiş və rektorluq xahişi nəzərə alıbmış.

Sonralar təsadüfən şəhərdə rastlaşdığım rektor köməkçisinə başıma gələnləri danışanda, bunları dedi: "Vaxtında yanıma gəlsəydiz, məsələni həll edərdim. Mən özüm üç-dörd tələbədən sizin haqqınızda soruşmuşdum, hamısı sizdən çox razıydı. Bir də, sizi o vaxt kafedra müdiri müdafiə etməliydi, onun dekandan asılılığı yoxdu". Qısaca dedim ki, Ziya müəllim semestrin sonuna qədər işləməyimçün əlindən gələni etdi. Düzü, bilmədim, rektor köməkçisinin həmin gün auditoriyaya girməsi planın bir hissəsi idi, yoxsa öz təşəbbüsüylə bu olmuşdu.

Günlər, həftələr keçdi, qohum-əqrəbaya, tanışlara başıma gələnləri danışdıqca içimdəki qəzəbdən, kindən yavaş-yavaş azad olurdum. Bu şeyləri ƏDDU-dakı Cəfər müəllimə danışanda dedi ki, sən gərək vaxtında rektorun yanına girəydin, ən azından o, bir yerlisi kimi, – bu arada mən, Cəfər müəllim və ANU-nun rektoru gəncəliyik, – kömək edərdi. Dedim, bir günün içində "Ərizə yazmalısan, qəti tapşırıqdı" ultimatumundan sonra düşündüm ki, vəziyyət çıxılmazdı, ərizəmi yazdım.

Yenə arada fantaziyalarıma baş vururdum. Dekanın otağına girib monoloqa başlayırdım: "Bu sözləri ömürlük yadınızda saxlayın. Əgər tapşırıqla, daha doğrusu, sizə verilən əmrlə bunu eləmisizsə, haqq qazandırmasam da, hardasa sizi başa düşürəm, məcburiyyət, işinizi itirmək qorxusu-filan. Amma bütün bu şeyləri öz təşəbbüsünüzlə eləmisizsə, onda razılaşın ki, sizin kimilərə mərdimazar deyirlər". Qapını çırpıb otaqdan çıxıram.

Altı ay keçmişdi ANU-yla vidalaşmağımın üstündən. Bir gün yoldaşımın əmisi Sahib müəllimlə söhbət zamanı məlum oldu ki, Elvin onun yoldaşının dayısı arvadının kiçik qardaşıymış. Hardasa iki ay sonra yoldaşım, əmisi arvadının onun votsapına yazdıqlarını mənə göstərdi. "Dayım məsələdən xəbər tutub, arvadı Gülgəzə olanları danışıb, Gülgəz də qardaşını

xeyli danlıyıb ki, ayıb deyil, sənin ucbatından bizim qohumu işdən çıxardıblar. Elvin deyib, bilməmişəm qohumluq məsələsini, yoxsa qoymazdım belə alınsın. Həm də deyib ki, məsələ onluq deyilmiş", kimlik imiş, bunu deməmişdi. Məncə, Elvinin dedikləri özünün günahkar olmadığını qohumu vasitəsilə mənə çatdırmaqdan başqa bir şey deyildi.

Sonralar ANU-da işləyən tanış müəllimdən öyrəndim ki, məni işdən çıxardan kimi yerimə götürdükləri adamdan pulunu alıb birbaşa ştata götürübmüşlər, bir müddət sonra isə Ziya müəllimi kafedra müdirliyindən uzaqlaşdırıbmışlar. Başa düşmüşdüm ki, Elvin, Nəsrulla, Fəqan, rektorun köməkçisi mənimlə bağlı yoxlama-qovma prosesində sadəcə icraçıymışlar. Ola bilsin, bu adamlardan biri "işə düzəltmə"də vasitəçi kimi öz haqqını alıbmış, – bu, mənim ehtimalım idi.

İllər sonra altmış beş yaşa qədəm qoymuş, saçları ağarmış Elvin məni evlərinə çağırıb o vaxt mərdimazarlıq etdiyini etiraf etdi, o hərəkətlərinə görə üzr istədi, halallıq istədi. Onun arıq bədənini, batmış ovurdlarını, imdad diləyən batıq gözlərini görüb anladım ki, ağır xəstədir, pis oldum, hətta bir az doluxsundum. Ad çəkmədən dedim, xəbərim var, o vaxt işinizi itirməməkçün sizə verilən tapşırıqları yerinə yetirmişdiz. İstəmədim, yerimə pulla başqa adamı götürmək məsələsini deməklə dərinə gedəm. Susdu, tərəddüd etmədən bağışladım onu, dedim, qoy bu xəstəliyiniz o biri dünyanız üçün kəffarəniz olsun. Zəif təbəssümlə başını tərpədib "Allah sizdən razı olsun" dedi. Sonda isə onu inandıra bildim ki, heç vaxt ona nəinki ağır, heç yüngül xəstəlik də arzu etməmişəm və bu, doğrudan da, belə idi... Xəstəlik, bağışlama, kəffarə məsələləri olan sonuncu fantaziyamdan sonra Elvindən əl çəkdim, vidalaşdım ANU-yla.

1. Empro: Mühazirələrin, silabusların, imtahan suallarının və s. yerləşdirildiyi elektron təhsil platforması

2. Kollokvium: bir semestr ərzində hər tələbənin üç dəfə on ballıq qiymətləndirmə əsasında şifahi və ya yazılı şəkildə verdiyi cavab

3 mart, – 8 sentyabr 2024
Bakı – Lənkəran – Bakı



# ŞEİR VAXTI



Ramil MƏRZİLİ

Bir dözüm də görmədim
Ruhumda dözüm kimi.
Ümidlərim qaraldı,
Yanmadı közüm kimi...

Taqətini əzdirən,
Öz-özünü bezdirən,
Başdaşını gəzdirən
Görmədim özüm kimi...

Elə ki qəlb aldanar,
Cismin ruhunu danar.
Baxışlarım tapdanar
Yollarda izim kimi…

Göz yaşlarım yorula,
Kirpiyimdən ayrıla.
Bu yollar da sıyrıla,
Qanaya dizim kimi...

Arzuların öldümü
Ağzımda sözüm kimi?!
Sevmədi kimsə məni
Anam, ya qızım kimi...

***

Elə bilmə sənsiz ömür asandı,
Nə "qızıl teşt, nə də qızıl taxt" ola.
Ruhum səni arzulayır haçandı,
Sənlə birgə darıxmağa vaxt ola,
Mən darıxam, sən yüz yerə yozasan...

İlk nəfəsdən son nəfəsə aparar,
Ömür yolu başdan-sona kədərdi.
Bir gün gələr, ruhun fəryad qoparar,
Baxarsan ki, gördüklərin hədərdi,
Mən öləndə batacaqsan yasa sən...

Bir kəpənək qanadından asılıb
Yol gedəsən ürəyinin dincinə.
Yanağının çuxuruna qısılıb
Gülüş qona dodağının küncünə,
Bir baxışın ilğımında azasan...

Ömür nədir? "Keçmiş"lərlə "gələcək",
"Ölüm-qalım" oyununda zərin yox.
Duyğuların tüğyan edər beləcə,
Görsən əgər sığınmağa yerin yox,
Öz əlinlə məzarını qazasan...



**HƏSRƏT BÜRÜYÜB DÜNYANI…**

Sən baxma ki günbatanı günçıxandan sərin olur,
Sən baxma ki enişləri yoxuşlardan dərin olur,
Sən baxma ki vüsalları həsrətindən şirin olur,
Həsrət bürüyüb dünyanı...

Sən baxma ki eşq yükünü çəkənlərin gözü nəmdir,
Sən baxma ki sevənlərin bu dünyada bəxti kəmdir.
Sən baxma ki doğru yolun sağı dərddir, solu qəmdir,
Tanı, doğru yolu tanı...

Sən baxma ki taleyini vuranlar var, yıxanlar var,
Sən baxma ki bu sınaqdan üzüqara çıxanlar var.
Sən baxma ki tənhalıqdan öz əlini sıxanlar var,
Göstər görüm, əlin hanı?!

Sən baxma ki şair ömrü başdan-sona hədər olur,
Sən baxma ki bu həyatın son akkordu kədər olur.
Sən baxma ki bir gün gələn həmin yolla gedər olur,
Gözlərində gəzdir qanı,
Ciddiyə alma dünyanı...

**MƏSAFƏLƏR...**

Məsafə uzandıqca
Bilirsən ki, darıxır.
Adını sayıqlayıb
Öz səsinə karıxır...

Bəlkə də, məsafələr
Olanı unutdurub.
Boğazda qəhər olan
Qəmi, kədəri udub.

Məsafələr soyudar,
Buza dönər adamlar.
Həsrəti dərk edəndə
Dizə döyər adamlar.

Məsafələr yandırar
Adamı öz içində.
Ahı duman, sis salar
Buludların köçündə.

Məsafələr əridər
Ürəkdə hərarəti.
Uzaq ol məsafədən,
Yaxın buraxma qəti!!!

**ÖLƏN ADAMIN ŞEİRİ**

Heca-heca, misra-misra,
Şeirlərdən sökülürsən.
Bulud olub xəyalımda,
Gözlərimdən tökülürsən.

Hücum çəkir qəza, qədər,
Qatıram başın birtəhər...
Sonuncu nəfəsə qədər
Ciyərimə çəkilirsən.

Səpilib yollara yolçun!
Çoxdan sökülüb bu xurcun.
İtirib kələfin ucun,
Yumaq kimi bükülürsən.

Gəmiləri batırıram,
Ömrə pənah aparıram,
Yaddaşımdan qoparıram,
Ürəyimə əkilirsən.

Can verirəm görə-görə,
Zərrə-zərrə sökülürsən.
Ürəyimdə ölə-ölə,
Gözlərimdən tökülürsən.



**ÖMÜR ESKİZİ**

Birimiz yasdayıq, birimiz toyda,
Birimiz həşirdə, birimiz hayda.
Biz nəyə inandıq bu götür- qoyda,
Dərdlə loxmaladıq bu yavan ömrü.

Şirin sözləri də yeyə bilmədik,
Qüririn başını əyə bilmədik,
Nəyi qazanmışıq, deyə bilmədik,
Zamana uduzduq bu cavan ömrü.

Quru addımladıq yaşımız üstdən,
Ölüm gözə endi qaşımız üstdən.
Əl atıb qopartdıq başımız üstdən
Sərdik döşəməyə bu tavan ömrü...

***

Min tişədən keçir ömür,
Heykəl gəlib büt gedirik.
Acımamış xəmir kimi
Ha yapılsaq, küt gedirik.

Yerim fani, göyüm fani,
Nə görürsən, deyim fani.
Əyinlərdə geyim fani,
Lüt doğulub lüt gedirik.

Aç qapını, gələn mənəm,
Göz yaşıyla "gülən" mənəm.
Nə olsun ki, ölən mənəm,
Bax içimə, cüt gedirik...

**PAYIZ ETÜDLƏRİ...**

Taqqıldayan saat
zamanın işarəsidi.
Qarşıdakı göstərici –
ömrün dayanacağı...
Şüşəsilənin əlləri
alın yazısını silir yağışın,
göz yaşıma əlləri çatmır.
Radiodakı mahnı darıxmağımın səsidi.

Ömür yozulmayan yuxu,
Dəyişən fəsildi elə,
Həyatla ölüm yarışarsa,
Bəlkə, ömrün taqəti kəsildi elə.
Bu gecənin qaranlığında mənim kimi azanı var,
Ömrümüz də dəyişkəndi, baharı var, xəzanı var,
Min bir yerə yozanı var...

Çəkil!
Çəkil gözümün önündən,
Qarşımı görmürəm...
Boğazımdakı qəhəri aç!
Nəfəs ala bilmirəm.
Çəkil gözümün önündən,
Ölümümə yol alacaqsan,
Çəkil!
Yoxsa qəzam olacaqsan!..

**QARANLIĞIN NAĞILI**

Yenə qaranlıq qaçdı –
Kiminin ürəyinə, kiminin küçəsinə.
Ulduzlar qucaq açdı –
Kiminin gülüşünə, kiminin gecəsinə.

Mən bu zülmətdən keçib səni sevməyə gəldim,
Deyirəm ki, biləsən.
Gözlərinin qarası gecələrdən gözəldi,
Qalarsanmı belə sən?!

Sən dünyamın məhvəri, üzümdəki gülüşsən,
Ulduzusan gecəmin.
Yarımçıq şeirimdə sonuncu düzəlişsən,
Dilimdəki hecamın.

Mən – gözündən qor alan gülüşünün xəstəsi,
Ala-yarımçıq adam...
Sən – sevgi şeirimin əsrarəngiz bəstəsi,
Hər sözə açıq adam...

Saçının hər telinə qurban olan bəndəyəm,
Zülfünü yana dara.
Mən özümdən gedəli bilirəm ki, səndəyəm,
Sən hara, mən də ora...

Mən səndən gedə-gedə sənə doğru gəlirəm,
Deyirəm ki, biləsən.
Bu təzadlar içində xəfifcə dincəlirəm,
Ağlayıram, güləsən...

**REKVİYEM...**

Bəzən elə yanarsan,
Gecələr səssizliyin qoynunda uzanarsan.
Bir "sabahın xeyir"ə möhtac olar ürəyin,
Gəlməz gözlədiyin də...
İçindəki şaxtadan yerindəcə donarsan.
Özünü bu dünyanın ən bədbəxti sanarsan.

Bir daha görmək üçün min bir yalan uydurub,
özün də inanarsan..
Həqiqəti danarsan.
Gülüb acizliyinə,
Özündən utanarsan...
Gəlməz səsi sədası, gün dönüb gecə olar,
Yolunu gözlədiyin,
Anını izlədiyin
Bilməzsən necə olar?!
Gecəsi uzun olar gəlməyən sabahların,
Yarımçıq yuxularda ona tərəf qaçarsan...
Beləcə sabahları bu kabusla açarsan,
Özün öz qucağında yorular, usanarsan...

Hər yazılan mesajda, hər döyülən qapıda
Elə bilərsən odur.
Ürəyinin doğması, ürəyinin yadı da
elə bilərsən odur.
Damağının dadı da elə bilərsən odur.
Bu qədər yox içində
hər şeyi itirərsən, heç nəyi qazanarsan.
Gəlməyəni gözləmək ağır olar, İlahi.
Nəfəs qədər özləmək ağır olar, İlahi.
Adını sayıqlayıb, yastığı qucaqlamaq,



Hönkür-hönkür ağlamaq,
Bütün arzularını açılmadan bağlamaq
Ağır olar, İlahi.

Elə sınıxmışam ki, güzgülərə də yadam,
Külü göyə sovrulan ocağı sönmüş odam.
Fəryadım qulağımı batırır eee, ay adam...
"Harda qaldın, ay qadam?!"
Qayıt, qurban olduğum,
Həsrətin dağa dönüb
Qəlbdə şişmədən, qayıt!
Təqvimin son səhifəsi
Qopub düşmədən qayıt!

**"SEVGİNİN ASTARI"**

Bu dünya gözlərimdə oval deyil, düz xətdir,
Sən o xətlə paralel uzanırsan, Suzanna.
Bu həsrətə, bu dərdə dözmək də müsibətdir,
Gör nə qədər "günahlar qazanırsan", Suzanna.

Məndən uzaqda qalmaq günah deyil, bəs nədir,
Sən bu boyda yoxluğun harasında durmusan?
Bu necə vüsaldır ki, sol yanımı göynədir,
Bəlkə də, sən hicranın sırasında durmusan?!

O dodaqlar, o gözlər, saçlarının qoxusu,
Hələ mələk baxışlar – cənnəti xatırladır.
Yüz ildir ki, çəkilib gözlərimin yuxusu,
Kirpiklərin enəndə zülməti xatırladır.

Saçlarından sürüşüb sol çiynınə qonardı
Bir kəpənək misalı öpüşlərim, Suzanna.
Gecənin lal sükutu sübhədək uzanardı,
Dəyişməzdi heç zaman vərdişlərim, Suzanna.

Ya gəl günün birində, al yükü kürəyimdən,
Ya elə get ki, daha görməsin gözüm səni.
Bir ağrı rəsmi çəkib asmışam ürəyimdən,
Səni mən yaratmadım, öldürüm özüm səni...



NƏSR



# QAZİNİN QIZI

Nurlana İŞIQ

Həmin il çox uşaq atasının yolunu gözləmişdi. Atası qayıtmayan uşaqların isə gözləri yol çəkirdi...

– Qızım, otağını səliqəyə sal, sonra hazırlaş, bu gün atanın xəstəxanadan çıxan günüdür. Onu qarşılamağa birlikdə gedirik.

Aydan karandaşlarını qutuya yığaraq başını qaldırmadan dedi:

– Ana, atam necə gələcək bəs? Axı onun ayaqları yoxdur...

Ananın ilk cümləsi sərt olsa da, sonra səsi biixtiyar zəiflədi:

– Necə yəni yoxdur?! Həkimlər ona süni ayaqlar qoyublar, atan həmişəki kimi gəzə biləcək, qızım.

Qadın otaqdan çıxdı, bir neçə saniyə qapının arxasında dayandı, göz yaşlarını silib oğluna səsləndi.

– Turan, hazırsan?

– Çoxdan, ana.

Qaş qaralanda ailə evə yığışmışdı, onların gözlərindəki qürur evə qəribə ab-hava gətirmişdi. Ən çox da Turan sevincindən yerə-göyə sığmırdı. O, həyətə düşüb dostlarına atasından danışmaq üçün həyəcanlanırdı. Ailənin kiçiyi Aydanın ağzını bıçaq açmırdı. Gizlin- gizlin atasının hərəkətlərinə göz qoyurdu. Yeməkdən sonra qızcığaz atasının kənara qoyulmuş protezlərini qucağına aldı, atasının ona baxdığını görüb dedi:

– Ata, bunu necə geyinirlər?

– Gətir, göstərim.

Balaca qız protezləri incə çiyinlərindən aşırıb atasının oturduğu divanın yanına gəldi.

Qazi yeni ayaqlarını bir daha nəzərdən keçirib geyinməyə başladı.

– Bax belə...

Aydan maraqla prosesi izlədi, sonra atasının ayaq barmağını basıb dedi:

– Ata, indi sənin hansı barmağını basdım?

– Baş barmağı.

– Bəs indi?

– Ortadakı.

– Ata, axı sən necə bilirsən? Bu ki sənin öz ayağın deyil.

Qazi sadəcə gülümsədi, amma bu

gülüşdəki közərən yaraları balaca qızı hiss etmədi.

Günorta həyət uşaqlarla qaynayırdı. Qonşuların əkdiyi çinar ağacları təzə gəlinlər kimi başlarını aşağı sallamışdılar. Onların çətirinin altında üç qızcığazın şən-şux səsi ətrafı canlandırırdı. Sərçələr civiltisini kəsərək budaqlardan asfalta enib onları çoxdan tanıyırmış kimi yan-yörələrində arxayın-arxayın hoppanırdılar. Qızlar torbalarından çoxlu oyuncaq qab-qaşıq çıxarıb ortalığa tökmüşdülər. Hərəsinin də bir gəlinciyi vardı. Oğlanlar isə səs-küylə futbol oynayırdılar. Turan yorulub oyundan çıxmışdı, tərli saçlarını əliylə sığallayaraq gəlib skamyanın arxasından qızlara baxa-baxa nəsə düşünürdü.

Bu zaman qızlardan biri başını qaldırıb, tellərini yana atıb acıqlı-acıqlı dedi:

– Bizə baxma, get futbolunu oyna.

– Evcik-evcik oynayırsız? – Turan soruşdu.

– Yox, piknikə gəlmişik. Ey, sənə nə var?

– Baxıram da, maraqlı gəlir.

Hirslənmiş qız nə qədər israr etsə də, hətta qulpu qırıq çaydandakı suyu oğlanın ayağı tərəfə töksə də, o, yerindən tərpənmədi. Bu zaman Turan küncə atılmış, ayağı olmayan, üz-gözü göy qələmlə yazılmış Lolo adlı çəhrayı saçlı kuklanı gördü.

– Bəs onu niyə oyuna qatmırsız?

Qızlardan balacası candərdi, bir az da acıqla cavab verdi:

– Çünki ayağı sınıb, özü də çirklidir…

– Həm də çirkindir, – qızların sarışını əlavə etdi, – çirkini neynirəm, bax, gül kimi uşağım var, – əlindəki təzə gəlinciyi əzizlədi.

Turan köks ötürdü:

– Yazıq kukla…

Qızların bəstəboyu sakitcə dedi:

– Bizim öz balalarımız var, bunu çox istəyirsənsə, götür, sənin olsun. Qız bu söhbətdən bir az da cılızlaşmış Lolonu oğlanın qoynuna qoydu.

Nədənsə Turana elə gəldi ki, bu bəstəboy qızın adı Lalədir. Belə yumrusifətli, balacaboy qızın adı mütləq Lalə olmalı idi. O, məhləyə təzə köçmüşdü. Turan ondan adını soruşmağa utanırdı. Oğlan qızların Lolo adlandırdığı gəlinciyi xəyalında Lalə adlandırdığı qızdan sakitcə alıb oradan uzaqlaşdı.

Turan axşam yeməyində atasına Lolonu göstərib soruşdu:

– Ay ata, bunun ayağına da sənin protezindən düzəltmək olar?

– Ay Allah, nə gözəldir, – bacısı gəlinciyi alıb dağınıq saçlarını oxşadı.

– Yeməyi soyutmayın, – ana sözü dəyişdirib gizlincə oğluna göz ağartdı. Qadın ayağı olmayan gəlinciyin Qarabağ qazisi olan ərini kədərləndirəcəyini düşündü.

Ata masadan qalxdı, yeməyini bitirməmişdi. Pəncərəni açıb çölə boylandı. Kim bilir, bu yaralı gəlincik müharibənin hansı dəhşətli anını onun yadına saldı. Qazi çevrilib masa arxasından ona izləyən ailəsinə dedi:

– Onu əsl gəlinciyə çevirmək olar!

Hər kəsin üzündə ümidin əsl sevinci parladı.

– Mən ona tül parçadan təzə don tikərəm, – ana nəvazışla balalarına baxdı.

– Çox sağ ol, anacan, onu bacıma bağışlayacam, – Turan sevindi.

Ancaq qazinin qızı onları dinləmirdi, o, Lolonu qucağına alıb nəsə mızıldana-mızıldana sakitcə yırğalanırdı.

Qardaşı:

– Hə, bacı, bəyəndin ideyamızı?

Bayaqdan səssiz qalan qızcığaz böyük adamlara xas amiranəliklə dedi:

– Heç nə lazım deyil, mən onu belə də çox sevəcəyəm…





# QIZIL ALMA VÜCUDNAMƏSİ

(ezoterik – metasofi şeirləri)

***(sizi bizdən çıxacağıq (777 - 666)***

***ey dili qafil fil faili məchul fani f...***



Xanəmir TELMANOĞLU

(sizi bizdən çıxacağıq (777 - 666) )
ey dili qafil fil faili məchul fani f...

siz 666 olun
biz 777 olaq
biz sizli də sizsiz də 777-yik

izn versəniz də, verməsəniz də,
biz 777-dən
çıxacağıq
hər gün hər an çıxırıq 666-yı
geridə qosqocaman 111 qalır

bizdən çıxsaq sizi
geridə 111 qalır
elədir bizdən çıxılmalıdır "siz"
sizdən çıxsaq bizi
– 111 qalacaq

hər iki halda çıxsaq çıxılsaq
atsaq atılsaq
geridə ya soyuq
ya isti bir atmosferi miras saxlayacağıq
miras saxlayacağıq
ya soyuq hücrəli
ya isti sədəfli atmosferi

doğrudur elədir
777-dən çıxacağıq 666-nı
bizdən
bizim tərkibindəki 666-yı atıb gedəcəyəm
geridə özümüz olan 111 qalacağıq

bu nə demək
siz bizdəsiz
bizdə varsız
biz sizdə yoxuq
sizdə olmadıq
indi sizi 666- nı
bizdən 777-dən qoparıb ayırıb atırıq
özümüzü tapırıq

sizin ağrılarınız bizdə gizlənib
sonda yer üzünün adını mars qoyacağıq
ya da gedib
gedib marsda nəfəsimizi dərəcəyik

bu nə demək
indi hərfləri əlifbaları da dəyişəcəyik
az qalıb rəqəmləri sayları da təzələyəcəyik
sıfırda başlayıb sıfırda dövr edəcəyik
2018.

***faizin mərsiyəsi***
***ey dili qafil fil faii məchul fani f...***
**............ ........... .... .................**

bu yəhuda iuda nə keçib xirtdəyimə
tapınaqlar tamahla bəsləyir tanrısını
hər nəfəs alışımdan sur çalır qulağıma
bəlkə bitirə bilək iblisin erasını

o kimdir adı sanı faizlə əvəzlənir
dən tutan sünbüllərin tən qırtan zənbillərin
göylərin qəzəbindən gözüm haqqa zillənir
çün başları kəsilir faizlə səbillərin

güldən danışa bilsəm mövsüm ovsunlanacaq
xərc çəkən yəhudinin ocaq söndürməsi qış
ac mədələr gurlayıb ağızlar sulanacaq
hünkar ovuclarından qopunca qırğın alqış

banklar zindan kimidir sorub qanı alır can
dəryalar dibindəki mərcandan qırçın ləpə...
düzəldib tanrılara...tutur bitməz həyəcan
saraylar taxt-taclardan altunlar səpə-səpə...

banklar... faizlər.. bir də yəhudi bəsləməsi
düşməz dildən ağızdan ...keçməz hundan oğuzdan
atilladan metedən fateh sicilləməsi
ödədər qarşılığın yuxu görsə yavuzdan

qudsün divarında bütün xətlər əhdimdi
yerusəlim üstündə səma elə siyah dan
rənglər nə vaxtdan mənim tale ləlli bəxtimdi...
böhran ki başlayalı gələn çoxdu qıraqdan....

ha sevinsəm alışmaz için eşqyar şöləni
əşkiyadan quldurdan baş qaldırmaq hesabdı
faizlə topraq bulub dəfn edirəm öləni
dünyada ən mötəbər tabir varsa qəssabdı
ölməmək əsarətsə ölmək zinhar məsrəfdi

ölümlərin qorxusu.. ehsan üstə faizlik
bu nə... bank məzarlığı ... bu nə bank qəbristanlığı
(yer altda doğranırıq kəsilirik... qurbanlıq)
yazıq qarğa quzğunlar ah-naləniz alındı
heç olmasa gövhər bilin körpə leş qalığını

2017.

***əsirnamə***
***ey dadi bidad danəndə dəhan dərviş d…***
***elədir 1453-cü ildir. üçüncü dünya savaşı dönəmidir.***

axır ki inancımın altında qaldı roma
tanrılar anlaşaraq tanrıya dönüşdülər



qurudub darğınlıqla qanlı teştlər dibində
baxışlarıyla göydə günəşi də eşdilər

qəfil soyuq başlayar buzu kəhanət qovar
su altında bərq vuran gülüşlər öz halımdı
kainatın köksünü qalxıb işıqlar sığar
elə bil savaş gedir sanki ölüm qalımdı

sular dönüb azğına basacaqdır qütbləri
çiləmdəki yanğına ayaq uydurmaz kimsə
aləmlərin küncündə mənim kimi tipləri...
sonra sormazmı Allah: hanı eşqində bəstə

nə qıvraqdı yerişim nə oynaqdı gözlərim
zərrə də qaça bilməz haça dilli həzzimdən
elə ki mənasını salan olsa sözümə
içə gömsəm səsimi partlaq verər köksümdən

ya fırlanan dünyanın yanında dil qısaysa
ya qovrulan ürəyim qıvrılan bir ilansa
bu qübbənin nurları çəkilməsin bir daha
məni salmasın dara
məni basmasın yasa

çökür sivilizasiya çökür mədəniyyətlər
...hansı türə göz dikib görəsən indi isiq
hansı dilə tərpətməyim ötələrdən eyhamlar
hansı zəmidən qalmış əllərdəki başaqlar

belə ötüb keçirəm kainatin küncüylə
səsim heç çıxmasa da fikirlərim çağlayır
yenidən uğraşarmı köçlərlə eşq məsumca
çimiri yox ruhumun
enib yalqız ağlayır...

mənə olan zülmdən xəbəri yox əcəmin
açıram vyananın qapısın ustalıqla
baxıram ki qarşımda durub batı hegemon
baxışlarımdan sızan eşq də çıxır qovluqla
2016.

***qapanmamış hesablar***
***ey dadi bidad danəndə dəhan dərviş d….***
şərqdən işıq doğacaq buna yaman əminəm
əminəm ki həyatım basabasda sürmədi
nə var aşkarda gördük nə var açıq söylədik
daha qəlbin dibində gizlin nədi sirr nədi

keçən keçdi əlbət ki zaman həmən gil olmaz
köçən köçdü bu hədlə duman ləngiyər dağda
dünya ruhda doğramsa bahar gələ gül olmaz
inan ağzımı açmaz iti uclu bıçaq da

belədir bu göylərin həll etdiyi müşküllər
qaldı qiyamətlərə qapanmamış hesablar
nədəndir ağuşunda ölümlərin kərküklər
inlər azan səsləri qan tökdükcə qəssablar

aşiq olan həddini biləli zaman gəldi
yuduqca çirkabları suların fərasəti
bir də gördün dağlarda hu çəkdi şaman güldü
gətirdi hürriyyəti dağıtdı əsarəti

daha danışmaq üçün əldən ver gil fürsəti
hindu baxışlarıyla avam çıxdı irəli
elə ki üzəngidən keçirdinsə itləri
sürünü rahat otar yürü dağda qürrəli
2015.

şeir yazıb saç ağardıb
ey dadi bidad danəndə dəhan dərviş d....
şah sağ olsun xəzər hələ qalxmayıb

kimsə bilməz səni nə vatikan nə roma
göydən enmiş görünməzlər arasında gəzərsən
təkliyinə eşq dedirdən heykəlləri qınama
axı kimsən nə karəsən hansı əsrdən sirsən

bilən olmaz qeylu-qallar başında əcdad haylar
gün uzunu ruzin belə nəfəsində dolaşır
kilsə görməz məscid bilməz ruhundan axan çaylar
araz adda kür muradda xəzərinə ulaşır....

göylər bir az sinsə yerə təntiyər varlığından
bu dünyada nə gördünsə yaxıb aldın gözünlə
ətrafdakı əşyaların adları da inləyir...
(qayıblar güllər üstündə təntiyər sağlığından)
açılmayan kitablara ön söz oldun üzünlə...

kimsə bilməz qənşərinə göstərişlə çıxmısan
şeir yazıb saç ağardıb qədərinlə oynayıb
hə... desinlər "səy ağıllı özündən nə çıxmısan?"
kimsə belə almayıbdı özündən dönmə hayıf...

uca şahlar padişahlar qoy küllənsin sarayda
heç güvənmə ayrılığın hicrətinə qaçanlar
sözlərinin mənasını arasalar dəryada
səni görcək duruxarlar qəlb gözünü açanlar

nə fırtına nə qasırğa həsrətini tovlamaz
günəş belə işığını utandırar canında
qurdla qalsan qiyamətə aya baxıb ulamaz
qılıncını çəkə bilsən yer rahatlar qınında...

bu sərxoşluq sənə bəsdir fəryadın can çıxara
oxşarın yox aləmlərin dəmlərinə qoyula
qoy desinlər bir yusif da mehman olub quyuya
kimsə qanmaz qılınc böylə qınından sıyrılar...
göylər çəkər yaxasını yer yasını saçlayar....
2015.

***bir azdan ey dili qafil fil faili məchul fani f...***

bir azdan pkk notr dam kilsəsini...
vatikanı drezdeni  havaya uçuracaq
londonun parisin berlinin mərkəzi küçələrində
gülümsəyən xaçlar qan içində üzəcək

burax əvəz eyləsin məni haqqın darğası
axşamın macalından yaxşı sübhün əcəli
hansı rəngi çox sevsən sonda çıxar qarası
yeddi rəngdən yeddi qız çıxaracaq gəncəvi

bu kərəm topuğumu qapılarda sarımam
uzadıb saçlarımı çıxaracam ağlıqdan
göylərin yaxasından qopmadıqca arınan
ayağının altında torpaq betər yaylıqdan

nə şirvan naxışıdır bu nə təbriz çeşnisi
xilafətin bəzəyi ərşü əladan gəlir
görmürsən alışıb yanır müxənnət-in sinəsi
onu çoxdan yoxladıb ruhumuzdakı gəlir

iradəsi ləngiyir istanbul paşasının
hər cümənin aclığı zamanın ötəsidir
məhşərdə tən bölərkən torpağı qoşa sait
hilal ucu aclığım qövmümün törəsidir
2015.

***zamanın sərməstliyi ey dadi bidad***
***danəndə dəhan dərviş d...***

ay başlamış göylərin tənində sulanmağa
sabah vaxtı güllərin qoxusu tətikdədi
...bu vədə ay yerindən isa da sallanmağa
ıstəməz... bir az sonra günəş əsirlikdədi...

qınama işarəmi naşı şənliyim yaya
yürüdükcə hekayəm bayram azarı tutur
qanım da şoralansa gedib varacam yaya
tacir qurtarmayınca qalxıb bazarın satar....

nə uzadım irəli əlimin soyuğu qar
hansı fəsildə ölsəm işıq qaçar ağzımdan
ruhum hüzur içində üst başımdan axar qan
kimsə döndərə bilməz yazı pazlı qəzamdan

nə gavurlar görmüşəm nə hallar suya bənddi
səsimin sərməstliyi  "dəli kölə olamaz"
artıq dirini burax ölü də aşır həddin
bu cəhalət adətsə əldə qalmaz qalamız....

göylərin acizliyi bizəmi tən toxuyur
yoxsa milad mindirir məzənnəyə şənliyin
sular susdu susmadı rüzgar ondan oxuyur
baş qatır vuran vursun eşqdən betər ənliyin
2015






# ŞEİR VAXTI

Aysel XANLARQIZI

***

Sən cəsur döyüşçüm,  mən əsir yurdun,
Bir Turan arzulu türküm, boz qurdum.
O taylı-bu taylı Xudafərinim,
Qoynuna tələsən Təbriz hayqırtım...

Ayrı qitələrdə həsrət yanğısı,
Dərviş səbrindəki təklik ağrısı.
Mövlanəm, üləmam, sufim, zahidim,
Eşqə təsəvvüfüm,Tanrı çağrısı...

Bu şəhid ruhumun azad şəhəri,
Sən Laçın sabahım, Şuşa səhərim...
Köksü səcdəgahım, ocağım, pirim,
Acı taleyimin xoşbəxt zühuru...

Gəl, sənsiz vəhşətdə xaraba ruhum,
Qiyamət ömrümün İsrafil suru...

***

Mən yorğun yolların
sinəsi üstündə
həsrətini qucaqlayan
tənha bir
yer adamı,
gözlərimdəki
bayram sabahı
yalnızlığıdır
səni gözləmək.
Duyğularım
minarələrdən dağılan
səcdə çağırışına
tələsən
səs qədər həssas,
al saçlarımı,
qoynunun ən rahat bir küncündən as...
Hər gün
azan səsini
ilahi bir eşqlə  gözləmək kimidir
səni gözləmək,
cismimdə
nə hiss varsa,
sevginlə şifrələnib...
Bütün dinləri
yanıma alıb
sən gələn yollara diz çökmüşəm,
gözlərinə təzimdəyəm,
mən
Allahın yuxusuz gözündəyəm...

**YAĞIŞA DUA**

Sən – bir az əsəbi, bir az qayğılı,
Bu yorğun şəhərin tıxacı kimi.
Mən – payız gününün səhər yağışı,
İllərin sevincə möhtacı kimi.

Göy üzü başıma çətir tutmayır,
Nə dərdi varsa da, üstümə yağır.
Deyəsən, buludda hadisə olub,
İslanıb bu sabah yerin qucağı.

Gözünün çamuru yerə bulaşıb,
Küçələr hönkürür ayağım altda.
Bu eşqi ruhuma çətir tutmuşam,
Ömrümü qurmuşam sən gələn vaxta.

Xəritə ucunda yorğun düşübdür,
Sən olan nöqtəyə qonur barmağım.
Bu sabah göylərə tilov atmışam,
Bir "uçaq" tutarsa, bəlkə, qarmağım...

İçində sən olan o uçağı da
Dartıb gətirərəm öz limanıma.
Bu şəhər yağışa dua edirəm –
Göylərdən düşürsün səni yanıma.

**O, SƏNSƏN**

Qollarına avar çəkən gözlərin,
Qucağındır səcdə yeri, and yeri.
Həsrətinə yorğun düşən şəhərin
Yanağında biri var ki… o, sənsən.

Dan yerinin saçlarını saraldan,
Qayıdış yox, qürub adlı bir yoldan.
Ürəyimi götürdüyün vağzalda
Gecikdiyim bir qatar ki… o, sənsən.

Bahar qollarımda, payız saçımda,
Şehli baxışların kirpik ucunda.
Şirin görüşlərin titrək ovcunda
Bir xatirə yeri var ki… o, sənsən.

Ulduzların gecə rəngli gözündə,
Vücudumun hər sətirlik izində,
Bir şeirin közə dönmüş sözündə
Misraları darıxar ki… o, sənsən.

Nəfəsinə qurban etdim zamanı,
Kitab-kitab sözə dönən insanım.
Bu dunyada sevgi adlı unvanım,
Hardan bilsin adamlar ki… o, sənsən.

**DAŞ DÜŞSÜN BAŞINA**

Kədər qatarlanıb hava xəttində,
Ruhum bir təyyarə qanadı üstə.
Yenə həsrətimi möhür vururlar,
Eh…yorğun bir pasport sənədi üstə.

İndi xatirələr çox yüksəklikdə,
Göyün səs-küyündən batır qulağı.
Xəyalım – göy donlu stüardessa,
Yalnızlıq – uzanan uçuş zolağı.

De, necə yuxuya verim göz yaşın?
Bu yalqız ömrümü necə qurtarım¬?
Getmə! – deyəcəkdim,
dilim qurudu...
Daş düşşün başına ayrılıqların.





# Əli Əl-Əmiri :

## “Dünya poetik sanitariyaya möhtacdır...”

*Medelin Poeziya Festivalındakı (2023) çıxışı*

*Fələstin və iordan əsilli şair, rəssam Əli Əl-Əmiri Vəqqas kəndində anadan olsa da, İordan vadisinin qonşuluğundakı Qulaiat kəndində böyüyüb. Uşaqlıqdan, sevgi və sürgündən danışan “Mənin fəhmim”, “Mənim qeyri-müəyyən əlim”, “Bəyaz tutulma”, “Mürəkkəblə yazı” şeir kitablarının müəllifidir. 1985-ci ildən BƏƏ, Küveyt, Misir, Makedoniya, Fələstin, Rumıniya və ABŞ-da qrup rəsm sərgilərində iştirak edib. Dubay Beynəlxalq İncəsənət Simpoziumunun (DIAS) təsisçisi və bədii rəhbəri, İordaniyada Erzal Mədəniyyət və İncəsənət Assosiasiyasının yaradıcılarından biri, İordaniya Yazıçılar Birliyinin, Ərəb Yazıçılar Birliyinin və İordaniya Yazıçılar Birliyinin üzvüdür. Hazırda BƏƏ-də Sharjah Book Authority tərəfindən nəşr olunan “Publishers Weekly- Arabic” kimi nüfuzlu jurnalının redaktoru və direktorudur. Əli Əl Əmiri 2020-ci ildə Səlim Babullaoğlunun dəvəti ilə AZTV və REAL TV ilə birgə gerçəklərşdirilən “Evdə qal!” - “Dünya şairləri Azərbaycan üçün şeir oxuyurlar” onlayn poeziya marafonunda iştirak edib. Dəfərlərlə “Publishers Weekly- Arabic” jurnalında Azərbaycanla, Azərbaycan ədəbiyyatı, eləcə də Azərbaycan-ərəb ədəbi-mədəni münasibətləri ilə bağlı müsahibə, şeir, elmi, publisistik yazıları dərc edib.*

*https://www.youtube.com/watch?v=a8lyNHT7uwk*

***

Çağdaş dünyanın səhnəsi hələ də zülmət içərisindədir, kainat qaranlığa, zülmətə, qana və ağrıya qərq olub. Əski müstəmləkəçilik virus kimi yenidən mutasiya edir. Dünyamız müsair texnologiyalar sahəsində fövqəladə inkişafa şahidlik edərkən, insani dəyərlər daimi tənəzzül keçirir.

Kasıblıq bütün qitələrdə pərvəriş tapır, yeni müharibələr alovlanır, “coğrafi irqçilik” artır. Amansız qloballaşma təbiəti cibindəki lotoreya, sərvət sayır artıq, “əsas millətlər” digərlərinin “alovuna” qızınır.

XXI əsrdə Fələstin yenidən işğal olunur və işğalçılıq dünyanın digər bölgələrində davam edir, yerli xalqların tarixi ədalətsizlikdən çəkdiyi əzab “insan ehtiyatları”nın daimi ehtiyatsızlığına çevrilir.

Dünyamız narahatdır və insanların

itirilmiş mənəviyyatını bərpa etmək üçün poetik sanitariyaya möhtacdır. Hər gün daha da azğınlaşan, böyüyən qloballaşmanın viran etdiyi vacib insani dəyərləri başa düşmək, hiss etmək, dirçəltmək üçün fərqli mədəniyyətlər arasında poetik qardaşlıq qaçılmazlığa çevrilir.

Diqqətlə baxanda, bizim bu kiçik dünyamızda cahilliyin, yoxsulluğun, "qətl-ölüm və təslimiyyət sənayesinin necə çalışıdığını", dəyərlərin necə dəyişdiyini, başqa şəkillər aldığını, oğurluğun "peşəyə" çevrildiyini, bizə verilmiş ən güclü keyfiyyətin — sevginin zəiflik hesab olunduğunu apaydın görmək olar. Təslimiyyət tolerantlığa çevrilir, hərçənd dözüm, dözümlülük yalnız məzlumun iradəsi, onun oğurlanmış haqqı və ləyaqəti geri qaytarıldıqdan sonra mümkün ola bilər. Dəyərlər təhrif edilir, gözəllik təhrif edilir, kopyalama və metamorfoz tərənnüm olunur, plastik torpalardan nüvə tullantılarına qədər ziyanlı şeylərin yeganə istehsalçısı olan insan hər gün bir az daha artıq aşınır. Biz hər gün və hər gün qəddarlaşan bəşərin, dünyanın kainatı zəhərlədiyinin, ona qənim kəsildiyinin daha çox şahidi oluruq. Biz bəzi ölkələrin qitələrin sərvətlərini necə talan etdiyini, onları ardıcıl şəkildə necə səfalətə sürüklədiyinin şahidinə çevrilirik. Yerli xalqlar zamandan və coğrafiyadan kənarda qalır, çıxdaş edilir, həmin xalqların tarixi işğal edilir, mədəniyyətlər təhrif edilir, dağın, quşun, çayın vəsfi üzərində qurulan dəyərlər, elə meşələrin özü də məhv olur. Apaçi qəbiləsinin adı belə təhrif edilir, öldürmə və məhvetmə maşınına, təyyarə adına çevrilir. İşğala müqavimət göstərənlər "təcavüzkar" damğası ilə yarğılanır. Bütün sadaladıqlarıma və daha çox sadalamadıqlarıma görə, yoxsulluğun yalnız istehlakçı statistikasında xatırlandığına görə bu gün (!) bizim (!) şeirə, poetik ruha daha çox ehtiyacımız var. Bizə amansız qloballaşma deyil, poetik, humansit qloballaşma, böyümə lazımdır. Poeziya bəşərin diri vicdanı, sərhədləri aşan sevgi səsidir. Poeziya eşqdir, sevgidir, intuitiv dərektmənin ən qısa yoludur, həyatı işıqlandırır, mənanı tapır, batindən və zahirdən qəlbləri alovlandırmaq gücündədir. Poeziya hərfi naz-qəmzə, nadiclik deyil, qəlbin daxili yanma mühərrikinin yanacağıdır. Əsarətə hayqıran yenilənmiş səsdir, zamandan, həyatdan, qəlblərdən gizlin qalan gözəlliyə uzanan və toxunan əldir. İnsan ulduzları, çayları, atları, quşları, şimşəkləri, daşları, buludları, küləyi, meteoru ahəng içində tutan təmərküzləşmiş kainatdır. Astronomlar bu kainatda yeni planetlər, aylar, ulduzlar və qalaktikalar kəşf etməyə davam edəcəklər, amma bilmək lazımdır: insan ruhunda hələ də ancaq poeziyanın araşdıra biləcəyi naməlum planetlər var.

**Tərcümə: Sona Səlimli / Səlim Babullaoğlu**

# TELLİ MƏDƏT VƏ XANKƏNDİDƏ TORPAQ SATAN DƏLİ QADIN

*(sənədli hekayə)*



Rey KƏRİMOĞLU

Aylı bir yay gecəsi idi. Hər gecə olduğu kimi, ətrafı yoxlamaq məqsədilə erməni kəndi ilə bizim kəndimiz arasındakı Xatınarxı çayının ətrafında gəzişirdim. Ay işığı hər tərəfi süd kimi işıqlandırır və mən hər qarışını əzbər bildiyim yerləri nə vaxtdır adət etdiyim bir diqqətlə izləyirdim.

Sırayla düzülmüş böyürtkən kollarını keçib pişpişəliyə çatanda qulağıma lap yaxından səslər gəlməyə başladı. Bu nə yaxınlıqdakı çayın şırıltısı, nə cırcırama səsi, nə çaqqal ulaması, nə it hürməsi idi. Daha çox iniltiyə bənzəyirdi.

Əvvəlcə mənə elə gəldi ki, hansısa yaralı heyvanın iniltisidir. Dəqiqləşdirmək üçün səs salmamağa çalışaraq, barmaqlarımın ucunda ehtiyatla irəliləyib, pişpişəliyə uzandım və bütün diqqətimi toplayıb, səsi dinləməyə başladım.

Ani sükutdan sonra səs yenidən gələndə eşitdiyimin insan səsi olduğunu dəqiqləşdirib, bir az da səfərbər oldum. Ermənilər ola bilərdi. Hər ehtimala qarşı kəmərimə keçirdiyim əldədüzəltmə tapançamı çıxarıb, hazır vəziyyətdə Xatınarxına sarı bir az da irəlilədim. Çaya lap yaxınlaşıb, budaqları suya sallanmış qovaq ağacına söykəndim və səsə daha diqqətlə qulaq kəsildim.

Bu, kiminsə eşidəcəyindən çəkinərək için-için ağlayan kişinin hıçqırtısı idi. Səs bir az yuxarıdan, Xatınarxı çayının böyük olmayan dərəsi boyunca sanki suya qarışıb, axıb gəlirdi.

On dörd gecəlik ayın yerə yolladığı süd rəngli işıq danışanları uzaqdan bir cüt kölgə kimi “ələ verirdi”. Yavaş-yavaş bu bir cüt kölgəyə yaxınlaşdıqca kişi hıçqırtısının arada nəysə pıçıldadığını da eşidirdim. Azərbaycanca danışırdılar. Amma tam aydın olmurdu ki, kişi nə deyir. Hıçqırtı ilə pıçıltı bir-birinə qarışmışdı.

“Kişi necə ağlayarmış, İlahi!” – fikirləşirdim.

Bir az da irəliləyib, o bir cüt kölgənin yaxınlığında üzüqoylu uzanıb, onları dinləyirdim:

– Jasmen, Jasmen! Mən haranın daşın salım başıma, Jasmen?! Mən neyləyim, Jasmen?! Bu nə iş idi, gəldi bizim başımıza? İndi neyləyək? – kişi balaca uşaq sayağı hıçqıra-hıçqıra pıçıldayırdı.

Jasmen isə qarışıq ləhcəylə ona cavab verməyə çalışırdı:

– Bilmiram, məsəb haqqı, bilmirəm! Danış görum, Anar necadır?

– Yaxşıdır, Anar da yaxşıdır o biriləri də. Təkcə Güllü sənin kürlüyünü edir. Səni istəyir! “Ana” deyib, dünyanı dağıdır, Jasmen! Onu heç kəs ovuda bilmir...

Mən bu səsin sahibini beynimi çox da zorlamadan asanlıqla tanıdım. Kəndçimiz Telli Mədət idi.

***

Kəndimizdə bir neçə Mədət var idi. Keçəl Mədət, Usta Mədət və Telli Mədət. Təhsilsiz, fağır və sakit adam idi Telli Mədət. Ata-babadan fəhlə olmuşdular. Həm də kəndin xeyir işlərində at belində camaatı toya-düyünə dəvət edirdi. Özünün atı olmazdı, toy sahibinin, ya da toy sahibinin qohum-əqrəbasının atını bir günlük ona verərdilər. Onda Mədət özünü at belində lap dağın başındaymış kimi hiss edərdi.

Bəzən hətta atdan düşəndən iki-üç gün sonra da özünü mühüm adam hesab edərdi.

Mədətin taleyinə acıyırdım...

Hələ əmin-amanlıq idi, aralığa qan düşməmişdi. Bir gün kəndə hay düşdü ki, Telli Mədət qonşu kənddən Jasmen adlı erməni qızını qaçırıb. Erməni qızını qaçırdığına görə Mədəti danlayanlara o, tutuquşu kimi əzbərlədiyi bir sözü deyirdi:

– Sevən gözlər kor olar!

O vaxt yüz faiz əmin idim ki, Mədət bu sözün mahiyyətini əsla bilmir. Beləcə, Mədət sözünün üstündə durub toy da elədi.

Mədətlə Jasmenin beş uşağı oldu – Güllü, Cəmilə, Ellada, Sabir, Anar.

Sonuncu uşaq olanda artıq dava başlamışdı. Ermənistandan, Xankəndidən, Ağdərədən, Xocavənddən azərbaycanlıları qovurdular. Bakıda, Sumqayıtda, Şamaxıda, Gəncədə, Ağdamda yaşayan ermənilər də belə bir vəziyyətdə birgə yaşamağın mümkün olmadığını anlayıb, gedirdilər. Növbə bizim kəndə də gəlib çatmışdı. Jasmen, məncə, daha çox utandığından çölə-bayıra çıxmırdı. Ona görə utandığından ki, Qarabağ məsələsini ermənilər – onun mənsub olduğu millətin nümayəndələri başlamışdı. Amma Mədətin uşaqları küçəyə çıxır, məktəbə gedib-gəlirdi. Bir-iki yeniyetmə uşaqdan savayı heç kəs onlara “gözün üstə qaşın var” demirdi

Nəhayət, belə yaşamağın mümkün olmadığını anlayan Jasmen bir gecə kəndimizi tərk elədi. Mədət gecənin bir vaxtı onu sakitcə aparıb Xatın arxından keçirib, öz kəndinə yola salmışdı. O vaxtdan Jasmen öz doğulduğu kənddə yaşamağa başladı. İmkan tapan kimi gecələr Xatınarxı çayının qırağında Mədətlə görüşüb dərdləri ilə baş-başa qalırmışlar...

– Madat, qadan alım, burnumun ucu goynayır Güllüdan otru! Nolar, bir dafa gatirç onu gorum!

– Gətirərəm, Jasmen, gətirərəm!

– Sabira da de, kandda heç kasla spor-zad elamasın! Pis vaxtdır ha. Oldumu, Madat?!

– Eləmir, çox sakit uşaqdır.

– Madat, Allah bu davanı başlayan ermənilərə lanat eləsin elə!

– Eləsin, Jasmen, eləsin!

– Gul kimi yaşayırdıq. Mexriban qonşularımız var idi. Bizi çox istayırdı onlar. Heç bilmiram, bu dava qurtarandan sonra onların uzuna neca baxacam?! Madat, ermənilər məni çox incidir, təhqir edirlər, alçaldırlar. Dali olmasam, yaxşıdı məsəb haqqı. Kaş bu muharba başlamayadı...

– Hə də, Jasmen. Gül kimi yaşayırdıq, dolanırdıq, xoşbəxt idik. Sənə güldən artıq bir söz deyən olurdu?

– Yox, mashab haqqı, demirdilar!

***

1993-cü ilin yayında ermənilər kəndimizi işğal edib yandırdılar. Deyirlər, həmin gündən bir erməni qadın Mədət, Güllü, Cəmilə, Ellada, Sabir, Anar – haraylayıb, kəndimizi dolaşırmış. Kənd köçəndən bir neçə gün sonra havalanan qadın hələ də kəndin xarabalığında balalarını axtarırmış...

Mədət, Güllü, Cəmilə, Ellada və o biri iki qardaş isə işğal altında qalan öz doğma kəndlərindən uzaqda – çadır şəhərciyində yaşayırdılar.

Sonradan Anar könüllü olaraq orduya yazılıb, ermənilərə qarşı döyüşdü.

Telli Mədət çadır şəhərciyində bir il yaşayandan sonra dünyasını dəyişdi.

***

Xankəndidən olan, vaxtilə azərbaycanlılarla münasibəti olmuş bir erməni illər sonra Rusiyada bizimkilərə bir əhvalat danışıb. Deyib ki, 1993-cü ilin payızında Xankəndidə küçədə üst-başı kirli, nimdaş paltarda dəli bir qadın görüb. Şəhərin mərkəzi küçələrində bir torba torpağı qarşısına qoyub yanından keçənlərə səslənirmiş:

– Qarabağ torpağıdı. Satmıram, pulsuz verirəm! Alın, yeyin! Niyə yemirsiniz?! Torpaq istəmirdiniz? Alın də! Alın, doyunca yeyin! Amma balalarımı qaytarın mənə!

Sonra da qol götürüb oynayırmış...

Hər gün axşam da torpaq kisəsinin ağzını səliqə ilə bağlayıb, qoltuğuna vurub ağlaya-ağlaya qaranlığa qarışırmış. Gecənin qaranlığında onun taqətsiz, bir az da havalı səsi küçələri dolaşırmış:

– Mədət! Güllü! Cəmilə! Ellada! Sabir! Anar!..








Xəyalə Sevil

**SONRA SƏRİNLƏYİR ÜRƏYİN ODU**

Sonra sərinləyir ürəyin odu,
Sonra ruhdan düşür adam hər şeyə.
Gözlərini bağlayırsan hamıya,
Bir də yaşanmasın yaşanan deyə.

Sonra birdən qəribsəyir əllərin,
...Tale yaman yerdə ayırdı bizi.
Heç bilmirsən yerin-yurdun hardadı,
Evin içidimi, ya çölün düzü?

Sonra səsin gəlir gecədən – həzin,
...Keçməyən nə var ki? – bu da keçəndi.
Amma ürəyimin dərin yerində
Bir həsrət var, o keçməyir haçandı.

**AYRILAQ DA, SƏNƏ NECƏ XOŞDUSA**

Öyrəndim ki, nə ilk, nə son kəs deyil,
Bu dünyada heç nə dözülməz deyil.
Ürəyimi sındırmağın bəs deyil?
Olan-qalan inamın da qaçdısa?..

Mən də səni dağ bilmişdim, eh, çətin,
İlk fürsətdə tükəndi cəsarətin.
Bu bədəni, boy-buxunu nə edim
Əgər için cılızdısa, boşdusa?

Yarı yolda qırıldı ki ruh bağı,
Uzaq dayan, görünmə heç, ha baxım.
Əl altında saxladım ayrılığı,
Ayrılaq də, sənə necə xoşdusa.

**ELƏ QƏRİBƏYDİ DUYĞULAR ONDA**

Elə qəribəydi duyğular onda,
Nə heç nə yox idi, nə də var idi.
Məni birdəfəyə məğlub eyləmək
Tək sənə verilmiş ixtiyar idi.

Onda anlamadın, indi anlasan...
İndi anlasan da, nə fərqi var ki?
Nə qədər ki aramızda məsafə,
Anlaşmazlıq, uzaqlıq nə qədər ki...

Barı heç olmasa təsəlli üçün
Bir qırıq xoş söz de, könlünü yumma.
“Hər şey düzələcək, yaxşı olacaq”, –
Desən, inanardım, demədin amma.

## İNNƏN BELƏ SƏN DƏ LAZIM DEYİLSƏN

İnnən belə sən də lazım deyilsən,
Qırılmışam, tökülmüşəm, qəmliyəm.
Sən ki mənim alın yazım deyilsən,
Vaxt lazımdı ki, özümü cəmliyəm.

Nəyin var ki? Sözünü tutmağın yox,
Məni yaxşı unutmağın var sənin.
Ürəyimin heç xeyrini görmədim,
Ürəyimdən topladığım bar sənin.

Bu gecə də özün yoxsan, sözün var,
Sən bilməzsən, susub danışmaq olur.
Salamımız, sağolumuz yerində,
Görürsənmi? Küsüb danışmaq olur.

## MƏN İNDİ HƏR ŞEYİ UNUDUM GƏRƏK

Mən indi hər şeyi unudum gərək,
Geriyə qayıdım o boyda yolu.
Bu da taleyimin məndən aldığı,
Bu da taleyimin quru “sağ” olu.

Özümdən yüz dəfə üzr istəyim,
Özümü son dəfə bağışlayımmı?
Mən heç həyatımda bu qədər kinli,
Bu qədər amansız olmadım amma.

Mənim yerimdimi bu yer, İlahi?
Hər şeyə, hamıya naşı düşmüşəm.
Ah, mənim əvvəlki ağılsızlığım...
Hər şeyi sonradan başa düşmüşəm.

## XƏYALIM XATİRƏNİ DOLANDI, GƏZDİ, KEÇDİ

Xəyalım xatirəni dolandı, gəzdi, keçdi,
Yenə gözü açıq görüldü yuxum.
Sevgimdən aldığın o həzz də keçdi,
Mənim hamıdan çox peşman olduğum.



Heç nə danışmıram sənin haqqında,
Amma susmağım da yaxşı hal deyil.
Saat geridədi, vaxt geridədi,
Bu da ömür deyil, eh, yığval deyil.

İçim üzümdədi, əlim dizimdə,
Hələ üstü açıq qalıbdı yaram.
Zamanla bitəcək, amma hələ ki
Ən pis hisslər ilə xatırlayıram.

**GƏRƏK DARIXMAYAYDIM**

Yaşadığım nə varsa,
Davam edən keçmişdi –
Təzəsi yox günlərin.
Elə bir yerdəyəm ki,
Nə dayazam, nə dərin.
Susub içimi çəkdim –
Ağırdı içimin yükü,
Tale məni nə saydı?
Mənim də səhvim az deyil,
Gərək darıxmayaydım.
Doğmayam, yadam özümə?
Bu ruh bədənin nəyidi?
Məni anlamadılar!
Hamıdan uzaq gəzmək də
Sevilmək istəyidi.

**SƏNİ ÇOX XATIRLADIRDI**

Səni çox xatırladırdı,
Yatıb öldürdüm gecəni.
Dağıtdım fikrimin səliqəsini
Ki, düşünməyim heç səni.
Nə yeridi,
Nə vaxtıdı həsrətin.
İndi səni düşünməyə
Bəs axı nə gərək var?
Fikirli gəzirəm,
Qəmgin gəzirəm
Görən deyir,
Bu işdə bir ürək var.
Ümid bitir,
Təsəllilər başlayır:
Qoy getsin gedənlər,
Nə olacaq ki?
Özümə də yer qalsın
Ömrümün sıxlığında.
Mən varam,
Həmişə öz yanımdayam
Hamının yoxluğunda...

**TUT ƏLİNDƏN ÜRƏYİNİN**

Tut əlindən ürəyinin,
Gözündən uzağa qoyma.
Bir az təkliyə düşsə,
Yadına düşəsiyəm.
Xatirəm əziz qonağın,
Keçib yuxarı başa
Nələr danışacaq sənə.
Gör necə
Tanış gələcək
Bu od sənə, ocaq sənə?
Tut əlindən ürəyinin,
Gözündən uzağa qoyma.
Bilirəm, unutmamısan.
Demişdin ki, unudacam,
Amma...
Hansı sözünü tutdun ki,
Heç bunu da tutmamısan.



NAĞIL

Əfsanə RƏHİMLİ



# Tənbəl ayı

Biri var idi, biri yox idi, çalışmağı heç xoşlamayan, rahatca yemək tapmağa öyrəşmiş bir tənbəl Ayı var idi. Günlərin bir günü qış yuxusundan güclə oyanan Ayı hiss etdi ki, bərk acıb. Heç həvəsi olmasa da, çarəsiz qaldığı üçün yerindən birtəhər qalxıb çaya balıq tutmağa yollandı.

Yaxınlıqdan, bir yarpağın üstündən uçub keçən Çəyirtkə cır səsi ilə Ayını dindirmək istədi:

- Ohoo, Ayı, sən oyanmısan ki! Nə olub, bəs niyə qaşqabağını tökmüsən? Yoxsa səni arı sancıb?

Çəyirtkə bunu deyib qəhqəhə çəkdi.

Ayı könülsüz dillənərək:

- Yaman acmışam, - dedi. - Heç taqətim qalmayıb.

- Doğrudan?

- Hə.

- Çox acmısan?

- Çox!

Ayı Çəyirtkəyə qısaca cavablar verməklə canını ondan qurtarmaq istəyirdi. Çəyirtkə isə əl çəkmək bilmir, hey cırıldayırdı:

- İndi hara gedirsən belə?

- ...

- Dilin tutulub, nədir?

- Balıq tutmağa...

- Ahaa, belə de... Amma tuta bilməzsən. Bacarmazsan balıqlarla...

Ayı təəccüb içində ayaq saxladı:

- Niyə?

- Çünki onlar çox dəcəldirlər. Yəqin, sənin gəlişini hiss edib dənizə qaçıblar artıq. Həm də sən ləng, küt, onlar isə qıvraq, qoçaq... Tuta bilməzsən!

- Əgər indi başımdan getməsən, bu cırıltını kəsməsən, mən balıqlardan əvvəl səni pəncəmlə tutub əzəcəm.

- Yaxşı, yaxşı, özündən çıxma, getdim mən.

Çəyirtkə, doğrudan da, sıçrayıb uzaqlaşdı. Əhvalı daha da pozulan Ayı onun dalınca baxıb narazılıqla başını buladı. Sonra da yoluna davam edib az getdi, üz getdi, Dovşanla rastlaşdı. Dovşan ona heç zaman sataşmaz, artıq sözlər deməzdi.

- Salam, Ayı, həmişə gəzməkdə! Qış yuxun bitdimi?

- Hə, dovşan.

- Oyun oynayaqmı səninlə?

- Çox acam indi, heç taqətim yoxdur. Başqa vaxt...

- Onda bir şey tapıb ye, istəsən, sonra oynayarıq. Məni taladakı moruq kollarının yanında tapa bilərsən.

Dovşan sözünü tamamlayıb talaya tərəf qaçmağa başladı.

Ayı az gedib çox yoruldu, çox dayanıb az getdi, birdən yoluna Canavar çıxdı:

- Ayı, nə yaxşı rastlaşdıq!

Aclığın daha da əldən saldığı Ayı handan-hana dilləndi:

- Nə olub ki?

- Səni qonaq çağırmaq istəyirəm. Üç gün sonra biz tərəfə gələrsən.

- Çox acam, bacarmaram.

- Görürəm ac olduğunu. Gəl, yeməyimiz bol olacaq.

- O vaxta hələ çox var. Baxaram... İndi özümü çaya çatdırım gərək.

- Çaya niyə? Hazır yeməyin var orda?

- Yorma məni! Balıq üçün...

O an gözləri işıldayan Canavar tezcə Ayının sözünü kəsdi.

- Balıq? Maraqlı olar. Mən də gəlirəm səninlə.

- Yolunla get.

- Yox, gəlirəm mən də!

Ayının daha etiraza gücü yetmədi. Canavar da onun yanına düşüb çaya doğru yola düzəldi.

Yolda qarşılarına Zürafə çıxdı və dərhal da Ayını söhbətə tutmaq istədi:

- Aaa, Ayı, qış yuxundan oyanmısan?

Ac və taqətsiz Ayı gözlərini süzdürüb başını silkələdi.

Ayının əvəzinə Canavar dillənib dil-dil ötdü:

- Oyanıb, hə. Özü də bərk acıb. Çaydan balıq tutmağa gedir. Yəni gedirik...

- Hmm... Amma mənim sənə sözüm vardı... - deyən Zürafə bir anda qüssəyə qərq oldu.

Ayı Zürafənin əhvalındakı dəyişikliyin səbəbini öyrənmək üçün özünü ələ alıb soruşdu:

- Nə olub? Bəlkə, səni incidən var?

Ayının onunla belə maraqlanması Zürafəyə xoş gəldi, bir azca utanaraq gülümsədi:

- Yox, elə bir şey yoxdur. Amma su içməyə getmişdim, gördüm, çaydakı balıqlar ağlayırlar.

- Niyə?

- Böyük balıqlardan biri balaca balığın balasını udub. O balaca balıq da ağlayırdı. Yaxşı olar ki, sən gedib çaydan balıq tutmayasan. Yoxsa balıqların daha çoxu ağlayacaq. Çünki doğmalarını itirmiş olacaqlar. Ayı, sən onların ağlamasına razı olmazsan, belə deyilmi? Çünki onlar bizim dostlarımızdır! Biz hamımız bir ailəyik burada!

Ayı duruxdu:

- Axı mən balıq tutmağı sevirəm. Əyləncəli işdir. Üstəlik, qarnımı doyururam. Bilirsən, mən çox tənbələm. Balıq tutmaq isə asandır, çox zəhmət istəmir. Bəs mən balıq tutmasam, nə yeyərəm? Ağaclarda bal-pətək axtarmağa heyim-həvəsim yoxdur...

Ayının bu cür aciz halda donquldanmağı Zürafəyə qəribə gəldi. Canavar isə söhbətin nə zaman bitəcəyini gözləyir, narazılıqla onları süzürdü. Zürafə boynunu daha da uzadıb, ucadan səsləndi. Bu, bir çağırış idi. Onun səsinə ətrafdakı heyvanlar bir-bir, iki-iki qaçıb oraya gəldilər. Zürafə onlara əhvalatı söylədi. Hər heyvan tezcə Ayıya öz köməyini təklif etməyə başladı. Ona yemək tapmaqda yardım edəcəklərini söyləyib, balıqlara toxunmasın deyə Ayını dilə tutmağa çalışdılar. Ayı başa düşürdü ki, buradakı hər heyvanın özünə uyğun işi, məşğuliyyəti var. Onlar müxtəlif yollarla yemək tapır, ancaq balıqlara toxunmurlar. Həm bunu bir daha anlaması, həm də heyvanların onu dilə tutarkən çox səs-küy salmaları Ayını qəzəbləndirdi. Təkcə Canavar heç nə demirdi. Çünki Canavar Ayıya qoşulmaqla bir macəra axtarışına çıxmışdı. Amma indi o macəranın baş tutmayacağını hiss etdiyi üçün məyus idi.

Bu anda hardansa Tülkü peyda oldu. Sakitcə gəlib Ayının yanında dayandı, üzünü ona tutub oxumağa başladı:

Heç yazıq-yazıq baxma,
Sən ki qorxaq deyilsən.
Ac qalmazsan, darıxma,
Necə gücün var, bilsən!

Yenə əvvəlki kimi
Çaydan balıq tutarsan.
Dinləsən dediyimi,
Aclığı unudarsan.

Gəl bunlara inanma,
Mən deyənə əməl et!
Boş sözlərə aldanma,
Sən balıq tutmağa get!

O titrəşən balıqlar
Çox cəld və dəcəldirlər.
Balıqlar, şən balıqlar...
Get, tut, ye - gözəldirlər!

Tülkü Ayını dilə tutaraq o biri heyvanlardan addım-addım uzaqlaşdırırdı. Onlar isə Tülkünün hiyləgərliyini, yalançılığını çoxdan bilirdilər. Ayının başqa cür yemək tapmasını, balıqlardan uzaq durmasını istəyirdilər. Odur ki, səs-səsə verib Ayını bu yoldan çəkindirməyə çalışırdılar. Başqa vaxt olsaydı, bəlkə, Ayı da Tülkünün hiyləsini anlayardı. Amma indi aclıq onu üzdüyü üçün şirin sözlərə aldanırdı. Həm də balıq tutmaq qədər rahat iş tapacağına əmin deyildi.

Hər tərəfə yayılan səs-küy oradan xeyli uzaqda yorğun düşüb yatmış Meşə Kralı Şiri yuxudan oyatdı. Qəzəblənib qorxunc bir səslə nərildədi. Bu nərilti Ayının ətrafına toplaşmış heyvanları çox qorxutdu. Susub sakitcə gözləməyə başladılar. Acıqlanmış Şir ağır, ancaq qətiyyətli addımlarla onlara yaxınlaşdı. Burada nə baş verdiyini soruşanda Zürafə özünü birtəhər ələ alıb cavab verdi. Şir əzəmətli başını çevirdi, qəzəbdən parıldayan baxışlarla Ayını süzdü. O an Ayının dizləri əsirdi. Nəhayət, Şir qəzəbli səslə dilləndi:

- Mənim bu məmləkətimdə hər kəsin öz işi, ruzisi var, Ayı! Bircə sən qış boyunca yatırsan! Oyanandasa ortalıqda veyillənirsən. Acan kimi də çaya cumub zavallı balıqlara qənim kəsilirsən. Artıq özünü yığışdırmalısan! İndi seçimini et: ya tənbəlliyin daşını atıb çalış, ya da tərk et bu məmləkəti! Yoxsa sənin üçün çox pis olar!

Öndə Şir olmaqla, oradakı heyvanlar Ayının ətrafından çəkilib getdilər. Ən sonda isə Ayıya tərs-tərs baxan Canavar oranı tərk etdi.

Ayı pərt, məyus halda yerində qalmışdı. İndi onu aclıqdan çox, Şirin dedikləri narahat edirdi. Xeyli düşündükdən sonra Ayı yerindən tərpəndi, yorğun addımlarla irəliləməyə başladı. Çox getməmişdi ki, başının üstündə arılar dövrə vurub vızıldaşdı. Başını qaldırıb baxan Ayı, nəhayət, yan-yörəsində canlılar olmasına sevinərək onlardan soruşdu:

- Arılar, ay arılar, siz haraya uçursunuz belə?

- Çiçəkli talaya! Bal toplamağa! - deyə cavab verən arılar vızıltıyla uçub uzaqlaşdılar.

Ayı sağda-solda ucalan ağacların budaqlarında şən-şən ötüşən, cikkildəşən quşlar gördü. Üzünü onlara tutub sual verdi:

- Quşlar, quşlar, siz orada nə edirsiniz?

- Çör-çöp daşıyırıq! Özümüzə yuva qururuq!

Yeridiyi cığırın ətrafındakı al-əlvan çiçəkləri görən Ayı, onlara da eyni sualı verdikdə:

- Biz açılıb ətir saçırıq! Arılar bizdən şirə çəkirlər! Sonra da o şirəni bala çevirirlər! - cavabını eşitdi.

Ayı Şirin bayaq ona dediklərində tam haqlı olduğunu indi daha yaxşı anladı: meşədəki hər canlının özünə uyğun işi, ətrafına bir faydası varmış!

Bunu düşündükcə Ayının pərtliyi bir

qədər də artdı. Məyus halda donquldanaraq yoluna davam etdi. Çayın kənarına çatanda dayanıb balıqlara baxmağa başladı. O, ac, qəmgin və fikirli idi. Buraya gəlsə də, balıq tutmaq istəmirdi. Çünki Şirin qəzəbindən qorxurdu.

Birdən iri yarpaqların üstündə oturmuş qurbağalar birağızdan quruldaşıb Ayını fikirdən ayırdılar. Başını qaldırıb qurbağalara baxdıqda onlardan biri dedi:

- Ayı, biz sənin niyə qəmgin olduğunu bilirik!

- Nə tez xəbər tutdunuz?

- Axı biz uzaqdan da çox yaxşı eşidirik! İstəsən, yemək tapmaqda sənə kömək edərik!

- Necə?

- De görək sənin ən sevdiyin yemək nədir?

- Bal... bir də balıqlar...

- Yox, balıqları unut! Daha balıqlarla işin olmasın!

Amma bal taparsan. Sən meşəni gəzdolan, ən gözəl, ətirli çiçəkləri arılara nişan ver. Onlar da əvəzində sənə bal versinlər. Beləcə, arılara faydan toxunacaq, özünə isə iş və yemək tapacaqsan.

Bu təklif Ayıya xoş gəldi. Aclığını və kədərini unutdu. Qalan taqətini toplayaraq meşədə təzə-tər çiçəklər axtarmağa getdi. Çox gəzdi, çox axtardı, qollu-budaqlı bir ağacın dövrəsində rəngbərəng çiçəklər gördü. Arıların bu çiçəkləri xoşlayacağını düşündü. Onlardan dəstə-dəstə dərib bir qədər əvvəl arılara rast gəldiyi yerə yollandı. Ancaq arıları orada tapmadı. Vaxt ötdü, qaranlıq düşdü. Ayı yorğun-arğın halda evinə qayıtdı. Çiçəkləri bir tərəfə atıb, mürgüyə daldı. Səhər açılan kimi qalxıb o çiçəkləri həmin arılara aparmaq istədi. Amma baxdı ki, çiçəklər solub, büzüşüb, bəzilərinin ləçəkləri tökülüb. Çarəsiz qalıb yenə çaya tərəf yollandı. Qurbağalar Ayını birağızdan şən səslə salamladılar:

- Ayı, arılar sənə bal verdilərmi? Qarnını doyura bildinmi?

Ayı küskün halda donquldandı:

- Meşəyə getdim, çox axtardım, gözəl çiçəklər dərdim. Amma arıları tapa bilmədim. Səhər isə çiçəkləri solmuş gördüm. Bu işdən heç nə çıxmadı. Yenə ac qaldım.

Ayıya məsləhət vermiş qurbağa onu dinlədikdən sonra dedi:

- Səhv etmisən. Sən çiçəkləri dərməyəcəkdin. Onları tapıb, yerini arılara nişan verəcəkdin.

Ayı məsələni anlayıb razılıqla başını tərpətdi.

Qurbağa sözünə davam etdi:

- Eybi yox, yenə taparsan. Amma bu dəfə diqqətli ol. Yoxsa çiçəklər hamısı məhv olar, özün isə ac qalarsan. Haydı, durma, tələs!

Ayı həvəslənib yenidən meşəyə qayıtdı. Bu dəfə başqa cığırla addımlayan Ayı çox getməmişdi ki, nəhəng bir ağacın qırılıb yerə sərələndiyini gördü. Ağac o qədər şaxəli idi ki, yıxılanda saysız-hesabsız əlvan çiçəklər onun altında qalmışdı. Ayı gördü ki, ağacın gövdəsindəki oyuqdan yerə bal süzülür. Yaxınlaşıb baxanda orada bal dolu köhnə bir pətək gördü. Sevindiyindən atılıb-düşdü. Baldan yedikcə Ayının gözlərinə işıq, bədəninə qüvvət gəldi. Ətrafdakı çiçəkləri xilas etmək üçün ağacın bütün qol-budaqlarını qırdı. Onları çiçəklərdən aralı bir yerə daşıyıb, orada üst-üstə qalaqladı. Ayı insanların bəzən meşədən ağacların quru qol-budaqlarını böyük zəhmətlə qırıb apardıqlarını görmüşdü. O, toplayıb hazır qoyduğu qalağın insanlara gərək olacağını düşünərək sevindi. Axı bununla onların işini asanlaşdırmış, deməli, faydalı iş görmüşdü.

Bir az keçdikdən sonra çiçəklərin çoxu başını qaldırıb dirçəldi. Onların xoş ətri yayılıb ətrafı bürüdü. Ayı pəncəsini pətəkdəki bala batıraraq ağacın gövdəsinə

sürtdü. Çiçəklərin ətri, balın qoxusu arıları buraya cəlb edəcəkdi. Beləliklə, Ayı arılara şirəli çiçəklər nişan verirdi. Əvəzində nə vaxtsa onlardan bal istəməyə üzü olacaqdı. Bunu anladıqda Ayının əhvalı elə yüksəldi ki, şadlığından oxuyub-oynamağa başladı:

Mən bir qoçaq Ayıyam,
Tükləri xurmayıyam.
Yatıb yuxuya daldım,
Oyanıb çox ac qaldım.
Qurbağa ağıl verdi,
Doğru yolu göstərdi.
Mən də bir iş bacardım,
Zəhmətimdən güc aldım.
Həvəslənib çalışdım,
Rahatlığa qovuşdum.
Balıqlardan əl çəkdim,
Dürüstlüyə qol çəkdim.





Gülər Mübariz

## DARIXMAĞIN TABLOSU

Elə darıxaram ki, həsrətin odu sönər
adım gəldiyi yerdə,
Baş götürüb gedər, geri qayıtmaz bir də.

Bütün darıxmaqların izinə kölgə salar,
Saçlarına dən düşər,
Sevdam örpəyin açıb ayaq altına atar,
Ağlın ilə hisslərin bir-birindən gen düşər
Yoxluğunun səfası hökm sürdüyü
yerdə…

Hicranın qədəmini yolda vüsalın əzər,
Arzuları kəm gəzər.
Sənsizliyim utanar, gözünü məndən
çəkər,
Kirpikləri nəm çəkər.

Yolunu ayrı salar, keçmişimə qarışar,
Taleyilə barışar.
İzi- tozu da qalmaz bir baxışın əsiri bapbalaca
qəlbimdə,
Qapıların bağlayar üşüyəndə qəlbim də.
Baş-başayıq, bir mənəm, bir də ki darıx-
mağım,
Unudur yoxluğunu qəflətən karıxmağım.

Qorxma, gözümün nuru, bu darıxmaq dərd
deyil,
Kədərə yoldaş deyil,
Gözlərində yaş deyil.
Sənin kimi gözəldir, əli məndən aralı,
Gözləri qaralı yar.
Mən elə darıxaram,
Elə darıxaram ki, qəmim gözəlliyiylə
Könüllərdə taxt qurar.

***

Deyəsən…
Deyəsən, gənc deyiləm,
Üzüaşağı gedir ömrümün il qatarı.
Yol çəkir həyatımdan üzü atama sarı…
Daha şıltaq deyiləm,
Nə də sonbeşik nazlı,
Segah üstə çalınır gəncliyin telli tarı.
Payız təslim alacaq mən doğulan baharı.
Düşüncələr qarışıq, dəyişibdir ruhum da,
Daha səs-küy sevmirəm indiki hüzurumda.
Tənhalığım qapadı köz olan yaraları,
İndi doğru sanıram bir zaman qınadığım,
Yaxına qoymadığım bütün o olmazları.
Daha uzaq deyiləm
Anamın danışdığı o "vaxt gələr" sözünə,
Gedərək mən də daha bənzəyirəm özünə.
Bir zaman bəyənməyib dəyişdiyim dalğanı
İndi zövqlə dinləyib anlayıram hər anı,
"Rast", "Çahargah" muğamı, ya da telli sazdakı
O yanğılı havanı.
Daha ehtiyatlıyam, asta-asta baxıram
Əzrayılın gözünə;
Dəli-dolu deyiləm əvvəl olduğu kimi –
İllərlə barışmışam, yaş öz sözünü deyir.
Çayı dəmli sevirəm, anam içdiyi kimi,
Daha çətin gəlməyir
Qərarımı çevirəm onun seçdiyi kimi.
İndi görə bilirəm yaxşını, həm yamanı,
Düşmənə bənzətmirəm səhvimi üzə deyib
Mənə candan yananı.
Zamanın qüdrətiymiş, yaşayasan, görəsən.
Öyrənirəm get-gedə illər necə dəyişir
Daxilində qoruyub saxladığın insanı.
Bitir artıq nağılı, göydən üç alma düşür,
Beləcə sonlanıram.
Daha nələr yazırsan, qorxursanmı, deyəsən?
Artıq cavan deyiləm, deyəsən, yaşlanıram.



***

“Rəssam, sevgilimin rəsmini gəl çək,
Sevgilim gözəldir, sən də gözəl çək”.
Deyirdi nakam şair…
Kəlmələri qor götürüb, köz yaradıb könüllərdə,
Elə rəssam tapın ki, şairimi vəsf eləsin,
Sızıldasın könül simi pərdə-pərdə.
Elə vəsf eləsin ki, anlasın cümlə-cahan
Gözündə yuva quran nə varsa, qüssəyə dair.
Elə vəsf eləsin, daş əriyib muma dönsün,
Okeanlar quma dönsün,
İzi qalsın vərəqlərdə.
Fikirlərdə tufan qopsun, kirpiklərdən leysan töksün,
Yarımçıq taleyinə qalanmış o ocaq sönsün.
Çəksin onun gözündəki baxışını, bacararsa,
İçindəki qəmiylə bir.
Çəksin gözünü sətir-sətir,
Ruhu  o gözdəki mənanı sararsa…
Çəksin harayı, dilsiz olan naleyi-ərşi
Bu saatdan sonra bir rəsmə sığarsa..
Ya da bir qəlbə yararsa…
Elə çəksin ki, baxanlar oxusun,
Mən elə qəm görmədim, nur qoxusun.
Gözəldir qəm də, əgər gözlərinə yaraşarsa,
Mikayıl kimi yorğun, Müşfiq təki nakam gəncin
Deyilməyən kəlamını çəkdiyi rəsmə toxusun.
Kim əgər rəsmi sorarsa,
Desin ki, qəm çəkirəm vərəqlərə,
Dərd əkirəm könüllərə, itibdir fırçamın dincliyi…



**BİR GÜN DESƏLƏR...**

Bir gün gəlib desələr ki, o, çox yaxşı insan idi,
İnanma!
Hər kəlməni ismim ilə bəzəsələr,
Sətirlərə gül-çiçəyi düzsələr də,
Bu nağıla çox güvənmə, eşit, amma inanma,
Deyiləni əsl qiymət, deyəni adam sanma.

Yaxın otur, gəl dərdləşək, həyat yaman qısadır,
Bu dünyadan küsənləri o dünyaya susadır.
İki yolun astanası  uçurumdur, dayanma,
Sən də sonradan yanma…



Get söylə ki, bu dünyanı əldə çıraq,
Cümlə-cahan dolaşsalar,
sərhədləri də aşsalar,
tapmayacaqlar gedəni.
Görmüsənmi ərşə çıxıb sonradan yerə enəni?
İtiriblər daha məni...

Gedənlərə bəzək vurub ağlamağı bacarırıq,
Mənzil başına çatmamış biz başqa bir yol alırıq.
Bu nə gərdiş, nə gedişat, nə hikmətsə,
Gedən birdən ən qiymətli kimsə olur,
Hər bir kəsdən yaxın olur.
İnsanları sonda sevib, qiymət vermək ədalətsə,
Yoxdur mənim doğru işim,
Yalan imiş hər vərdişim.

Bax beləcə…
Çox düşünmə, yazdıqlarım bir nağıltək unudular,
Sözün sehri gül ömrüdür, dildən çıxan kimi solur.
Soruşsalar məni səndən, denən, o qız xəyal idi,
İstəmədi yalanları, alışmadı saxtalığa,
Həsrətinə, hicranına yoldaş olan vüsal idi.
Baş əymədi ayrılığa…
Riyakara yovuşmadı, bu üzdən də dərd başından sovuşmadı.
Hər kəlməsi halal idi, qovuşmadı yaxşılığa.

Arzuları, istəkləri başlaya bilmədən bitdi,
Bir yuxutək bu dünyadan ötdü-getdi…

## YORĞUN FOTOLAR

Sən sevdamın qatilisən, mən ki sənə yar demişəm,
Xəyalına hərsət ikən qəlbdə yerin var, demişəm.
Güvəndiyim o dağlara yağan gizli qar demişəm
...Gəl boynumu sar, demişəm.

Gecələr həmdəmim olub, gündüzlərim küskün düşüb,
Fotolarda qalan əksim yorğun düşüb, üzgün düşüb.
Arzularım bu dünyadan o dünyaya sürgün düşüb
...Bəxtimə naçar demişəm.

Şəhriyarın naləsinə qoşulmuşam sətir-sətir,
Nə uzatsam, əlim çatır, nə qışqırsam, ünüm yetir.

Son görüşə gələn zaman dincliyimi mənə gətir
... Ruhumu apar demişəm.

***

Ay şəhidim…
Gözlərinin alovunda sönmüşəm,
Yoxluğunda damla-damla, zərrə-zərrə yandıqca
Hər gün, hər an çökmüşəm.
Nisgilinə qurban olum, elə bilmə,
Hər qapını döyəni sən, hər yolumdan keçəni sən,
Gələni də, gedəni də sən sandıqca,
Elə bilmə, xəyalını əvəz edən, səni mənə unutduran birisi var,
Sanma ki, mən bircə an da xatirəni qəlb evimdən çıxarmışam, ya sökmüşəm.
Düşünmə ki, səndən sonra bu həyatın gerisi var.
Ya da sənsiz dinlədiyim kəlmələrin qulağımda bir həniri, bir səsi var.
Gedişinlə aparmısan yaşamağın dadını da.
Gözlərimdə əks olunan həyat filmin adını da.
İndi ancaq yalnızlığın "Sən" adında bir kəsi var,
Ovunmayır xatirənlə, pıçıldayır qulağıma:
"Xəbərin var, o gedəndən mən ölmüşəm?"
Günah yazır ayağıma –
"Ay insafsız, ondan sonra daha nəyin mənası var?"
Mən bu ömrü iki yerə "sənli, sənsiz"ə bölmüşəm.
Unutmuşam daxilimdəki insanı, məsum baxan qadını da,
Sənsiz neynim bu dünyanın qohumunu, yadını da?
Varlığına qovuşmağın çarəsi var?
Yuxuma gəl, dərdin alım, gəl görüşək, söhbətləşək,
Xəbər verim, sən gedəli qəlb evimdə nə talan var.
Xəbər verim, sən gedəli mən nələri unutmuşam, gör bir nələri silmişəm,
Bilsən nədən, ya nələrdən vaz keçmişəm?
Elə baxma,
Qurban olum gözlərində məskən salan
Mən sarıdan təlaşına, qüssə yağan
O qayğılı baxışına…
Nə qədər ki xatirən var, adın yaşar könüllərdə,
Mən də varam, vətən deyən, səni anan o dillərdə.
Nə söyləyək bu taleyin naxışına?
Cənnətməkan qoxulumsan, ay şəhidim,
Sən yarımçıq yuxulumsan.
Oxşamağa qıymadığım nakam qismətli oğlumsan.

## QÜRBƏTİN DƏRDİ

Baş götürüb yollanıram göylərə, səndən uzaq yerlərə,
Sənsizliyi və səni bu diyarda tərk edim,
Özüm özümdən gedim…
Yer üzündən silinim.

Xəyalınla savaşıram, orda qal,
Mən adlı dərddən sağal.
Getdiyim yerə gəlmə, yollarını gendən sal.

Mən səndən gizlənirəm, bəs sən hara gəlirsən?
Özün mənə deyirdin, məndən betər dəlisən.
Gəlmə deyə yalvarıram sözlərə,
Sözlər də üsyan edir, dava açır gözlərə.

“Bu nə baxış?”
Rəhmin gəlsin ellərə.
Hər baxdıqca bağrım başın dəlirsən.
O baxışa məğlub olan biçarəyəm, bilirsən.
Nə sən Məcnun deyilsən, nə də ki mən Leyliyəm, düşməmişik çöllərə.

Dünyanın o başına gəlmişəm ki, unudum,
Yaddaşımı sökmüşəm, xatirəni də silim.
Ayrılığı tale yox, özün yazdın alnıma,
Yastığımdan qoxunu sulara etdim təslim.
Bəs niyə sızıldayır canımın sol tərəfi?!
Qoxun gəlir burnuma…
Elə bil itirmişəm ən əzizi-xələf səni.



Küləyi gətirmişəm özüm ilə arxamca,
Sənə havadar gəlib, sanki bəllidir əslim.
Pıçıldayır astaca:
“Qəlb evində talan var,
Gözü yolda qalan var”.
Deyəsən, səhv gəlmişəm, ya da dəli oluram,
Səndən neçə dənədir, ay zalımın balası, hər yerdə surətin var.

Mənlə bərabər gəlib sən adlı obam, elim,
Mən uzağa qaçdıqca sənə yaxın oluram.
Yüz illik dərdi-səri sığdırdığım qırx ilim
Sənsizliyə sığmır heç düşünüb mat qalıram.
Və... buludtək doluram.



## DARIXMIŞAM

Gedişinə namə yazdım – mürəkkəbi göz yaşımla,
Gözlərimi kor etsə də, sətir-sətir oxumuşam.
Ay insafsız, inanmırsan,
Neyləyim ki, anlayasan,
Mən səninçün darıxmışam.
Uzaqlaşıb başqa səmtə gedərkən də
Ayrılığa aparan o nazlı yerişə baxmışam.
Yoxluğunu gözüm görüb, ürəyimdə saxlamışam.
Gizli-gizli ağlamışam.
Yollarını bağlamadım, getmə, dayan.
Demədim ki, gəl ol hayan.
Sənli olan hər nə varsa,
Gəl, nə qalıb, al o zaman.
Bu yüklərdən sıxılmışam.
Toplayacam, nəyin varsa,
Gəl, yığ apar, öldürəcək məndə qalsa.
Bir sirr açım… Doğru yoldan yıxılmışam.
Bilirsən də, mən yalanı bacarmadım heç bir zaman.
Bəhanədir xatirələr, bəhanədir əşyan-filan…
Gəl, yetər ki, səni görüm,
Gedərkən bir də üzülüm.
Nə deyirəm, heç bilmirəm, sənsiz yaman karıxmışam.
Barı qayıt qonaq kimi, mən razıyam.
Bu dönüşün olsa da ötəri, yalan,
Düşünmərəm bu sevdada yanılmışam.
Bir də qayıt, yalvarıram.
Gözlərinə bir də baxım, baxışına tamarzıyam.
Pıçıldayım qulağına: sənsiz yaman darıxmışam…





# KÖVRƏK ÜRƏYİNDƏ HƏZİN BİR KƏDƏR DAŞIYAN ŞAİR

## *və yaxud 70 yaşa salam verən İbrahim Yusifoğluna dost məktubu*

Elxan Yurdoğlu

Elə bil dünən idi. “Gəlib çatdım 50 yaşa” deyən İbrahim Yusifoğlunun bir əsri yarılamasının sevincinə şərik olmaq üçün şair dostlarla birlikdə Şərur rayonuna yollanmışdıq. Zarafat deyil, 50 il. Şərur şəhər 2 nömrəli orta məktəbin geniş zalında onun yubiley gecəsi keçirilirdi. Hamı bir-bir danışır, ürək sözlərini söyləyir, təbriklərini çatdırırdı. Dostlar... qohumlar... şairlər... Yazı adamları... Heç şeirə aidiyyəti olmayan adamlar da çox idi. İbrahim Yusifoğlu sevənlərin məclisi idi.

O isə başda oturub qayğılı baxışlarını zalın tavanında, əslində isə sonsuz bir nöqtədə düyünləyib əlini ağappaq saçlarında gəzdirirdi qeyri-ixtiyari. Ağlıq həm də zirvə nişanəsidi axı. Sanki şair uca bir dağa yaslanmışdı. 50 yaş da zirvədi axı. 50 yaşa yaslanıb, bəlkə də, ömrün kulminasiya nöqtəsindən geriyə boylanırdı.

Bu günlərdə, daha dəqiq desəm, sentyabr ayının 30-da isə onun 70 yaşı tamam olub. Dünənki kimi yaddaşımızda iz qoyan bu 20 illik ömür nə tez keçdi, İlahi!

Rəqəmlərin tilsimi ilə uşaqlıq illərimə, 10 yaşıma qayıdıram. Məktəb direktoru işləyən atamın hər dəfə Şərurdan qayıdanda gətirdiyi qəzetləri maraqla oxuyardım. 20 yanvar hadisələri yenicə baş vermişdi və rayonumuzun “İşıqlı yol” qəzetində dərc olunmuş “mənim inamımı güllələdilər” poemasını maraqla oxumuşdum. Mənə çox qəribə gəlmişdi; necə ola bilər axı, inamı da güllələməkmi olar? Amma olurmuş. Böyüdükcə, yaşa dolduqca nəinki inamı, sevinci də, sevgini də güllələməyin mümkün olduğunu anladım. Bunu isə mənə ilk dəfə üzünü görmədiyim, tanımadığım İbrahim Yusifoğlu başa salmışdı.

Bir müddət sonra atamın kitabxanasında əl içi boyda bir kitab diqqətimi çəkmişdi: bu, inamı güllələnən şairin ilk şeirlər kitabı olan “Araz bayatıları” idi. Həm də mənim oxuduğum ilk şeirlər kitabı.

Daha sonra tələbəlik illərimin ilk vaxtlarında atam mənə daha bir kitab gətirəcəkdi – “Mənim inamımı güllələdilər”. Təkrar oxuduğum həmin poemada mənim üçün hər şey apaydın görünəcəkdi:

Çoxu inanmırdı, doğrusu, mən də,
Bu qonşu qəsdinə inanmayırdım.
Bütün sərhədləri bütöv ölkədə
Torpaq davasını gülünc sayırdım.

Gözüm görə-görə, haqq deyə-deyə,
Yurduma xəyanət, qəsd eylədilər.
Sülhə, göyərçinə, süni hər şeyə,
Mənim inamımı güllələdilər.

İbrahim Yusifoğlu 1954-cü ilin sentyabr ayının 30-da Şərur rayonunun axarlı-baxarlı, dağların sinəsinə söykənmiş Axura kəndində anadan olub. Dağ adamlarının mayasında həmişə bir kövrəklik, həlimlik, zəriflik, bütün bunlarla birlikdə həm də daxili bir sərtlik olur. Mənə elə gəlir ki, haqqında danışdığım şair bu xarakterlərin hamısını özündə ümumiləşdirir. Yazdığı şeirləri oxuduqca da buna əmin olursan. Onun şeirlərində qayaların sivri sərtliyi, bulaqların həzin nəğməsi, çiçəklərin bihuşedici rayihəsi, göy qurşağının cəlbedici rəng harmoniyası var.

Bu sözlərə akademik İsa Həbibbəylinin aşağıdakı fikirlərini də əlavə etməyə ehtiyac var: "Həyatı barmaqları bənövşəyi mürəkkəbli şagirdlərin və müəllimlərin arasında keçən İbrahim Yusifoğlunun bir çox misraları həm rəng çalarına, həm poetik mənasına görə bənövşə çiçəyinə bənzəyir. Bəlkə də, belə demək mümkündür ki, İbrahim Yusifoğlunun şeir yaradıcılığı bütövlükdə sanki badam ağacında bənövşə çiçəyidir".

Bəli, onun ömrünün 70 ilinin 45 ili pedaqoji fəaliyyətlə keçib. Həmişə də öz peşəsinə sadiq qalıb. Müəllimliyin saflığı, müqəddəsliyi İbrahim Yusifoğlunun şeirlərində də dilə gəlir:

Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi, ləpəli çaydı,
Ömrü ömürlərə paylanan paydı,
Safdır, müqəddəsdir müəllim ömrü.

Həyatda hər zaman gözləri toxdu,
Ürək ovsunlayan sözləri çoxdu,
Dünyanını varında gözləri yoxdu,
Odlu bir nəfəsdi müəllim ömrü.

Əmək fəaliyyətinə başladığı dövrdən müəllim işləsə də, özündən fərqli olaraq, yetirmələrinin bir çoxu Əməkdar müəllim adına layiq görülsə də, bu, İbrahim Yusifoğlunun daxilində nə hansısa həsədə səbəb olur, nə də onu narazı salır. Onun dilindən dəfələrlə eşitdiyim cümləni olduğu kimi yazmaq istəyirəm: "Mənim dərs dediyim şagirdlər Əməkdar müəllim fəxri adına layiq görülüblərsə, bu, elə mənim Əməkdar müəllim olmağıma, bununla fəxr etməyimə kifayət edir". Bir də ki, İbrahim Yusifoğlunu tanıyan hər kəs onu hər şeydən əvvəl şair kimi sevir. İndiyədək 30-dan çox şeir, poema və nəsr kitabının müəllifi olması da dediklərimizi təsdiq edər.

İbrahim Yusifoğlu şeirlərini iş masasının arxasında əyləşib, "bu gün mütləq bir şeir yazacam" iddiasıyla sözü zorlayaraq yazanlardan deyil. Onun şeirlərində səmimilik var. Bu səmimiliyi oxucu ilk misradan hiss edir, yaşayır:

Yaman gileyliyəm özüm özümdən,
Ürəyim istəyən bəxtim olmadı.
Şəvə saçlarıma səpələndi dən,
Məni kövrəldəcək kədər qalmadı.

Bu da bir taledi, başım üstündən
Bulud çəkilmədi, günəş doğmadı.
Heç nə istəmirəm Tanrıdan ki mən,
Ruhuma bircə bu yağış doğmadı.

Çıxıb gedəcəyəm sənin əlindən,
Dünya, fərq qoymadın, ölüyəm, sağam.
Ruhuma qəm hopmuş nəğmələrimlə
Özgə bir dünyada yaşayacağam.

Xalq yazıçısı Hüseyn İbrahimov da İbrahim Yusifoğlunu səmimiliyinə işarə vuraraq deyirdi: "İbrahim Yusifoğlun xoşuma gələn şairdir, çünki nə yazırsa, ürəkdən yazır, şeirləri də özü kimi səmimidir".

Nədənsə İ.Yusifoğlunun bütün şeirlərində həzin bir kədər var. Bunu ancaq onu

lap yaxından tanıyanlar bilər. Kövrəkliyi elə bil ki, onun alın yazısıdı. “Məni kövrəldəcək kədər qalmadı” desə də, o, bir uşağın küsməsindən də kövrələ bilər, bir qızın ayrılıq göz yaşlarından da. Bir şəhid anasının donmuş baxışı, külək aparan çörək qırıntılarının arxasınca hoppana-hoppana gedən sərçə çarəsizliyi də onun kövrəlməsinə səbəb ola bilər.

Şəvə saçlarına ağappaq qar yağan bu şairin şeirlərini oxuduqca əmin olursan ki, o, küsməyi bacarmır... İnciyir. İncikliyini də heç vaxt büruzə vermək istəmir. Şeirlərinə hopdurur. Sözlərlə açır ürəyini. Vərəqləri qaraldır. Küsə bilməmək azarındandır ki, etiraz kimi oxunur bəzi şeirləri: “Çıxıb gedəcəyəm sənin əlindən” deyir, “Ən əzablı işlərə dözüb sinə gərərəm” deyir. Bəzən isə daha da hiddətlə dinir. “Mən zalım adamam” şeirindəki kimi. Amma taleyinə şairlik yazılıbsa, dünyaya şair kimi gəlibsənsə, istəsən də, zalım ola bilməzsən, İbrahim müəllim. Əsgərlik illərində belə çəkdirdiyi şəklində əlində silah əvəzinə çiçək tutub qoxlayan şairin zalım olmasına kim inanar ki?! İndiyə kimi də kimsə sizin zalımlığınızdan şikayət etməyib, bilirəm.

Bir məqamı da xüsusi qeyd eləmək istəyirəm. Atalar deyib ki, birini yaxşı tanımaq istəsən, onunla gərək yol yoldaşlığı edəsən. Mən də bir dəfə İbrahim müəllimlə bir həftəlik yol yoldaşlığı eləmişəm. 2008-ci ilin noyabr ayının əvvəllərində mən, Zeyqəm Vüqar və İbrahim Yusifoğlu Urmiya şəhərinə şeir festivalına yollanmışdıq. Hər üçümüz bir otaqda qalırdıq. Axşamlar sərin havada şəhərin mərkəzindən axan Urmiya çayının kənarında o qədər səmimi və şirin söhbətlərimiz olub ki. O vaxta kimi yaxından tanıdığım şairi lap yaxından kəşf elədim. Həmin günlərdə Naxçıvan-Urmiya-Tehran-Məşhəd-Təbriz-Naxçıvan dairəvi marşrutumuzdakı şirin söhbətlər zamanı yazdığı şeirlərin, demək olar ki, hamısının necə yarandığını özündən dinlədim. Bildim ki, “Sulara danışdım yuxularımı” inamına söykənən, “Şairlər Allahdılar, sözlərinin Allahı” əminliyi, “Bu qış xasiyyətdə mənə oxşayır” etirafı, “Sən məni duymazsan duyulan kimi” küskünlüyü hardan gəlir, nədən qaynaqlanır.

Bəlkə də, sözlərimdə yanılıram, amma İbrahim Yusifoğlu oğul kimi, qardaş kimi, dayı kimi, əmi kimi, ata kimi, həyat yoldaşı kimi, cəmiyyətin üzdə olan ziyalısı kimi tamamilə fərqli bir ampluadadırsa, baba kimi tam başqa bir aləmdədir. Bunu onun uşaqlar üçün yazdığı şeirlərini oxuyanda daha gözəl hiss edirsən. Şairlər onsuz da öz uşaqlıqlarını daim içlərində, gizli bir tərəfdə saxlayırlar. Tək qalanda öz uşaqlıqları ilə uşaq oyunları oynamağı da sevdiklərini bilirəm. Nəvələrinə qoşulub uşaqlaşmağı şairlərdən çox heç kim şiddətlə istəyə bilməz. Çünki şairlər, əslində, nəvələri üçün uşaqlaşmırlar, öz uşaqlıqlarını yaşayırlar. İbrahim Yusifoğlunun şeirlərində də onun uşaqlığını görmək olur. Buna görə də o, uşaqlar üçün yazdığı şeirlərdə də balaca fidanlara nələrisə öyrətməyi, onları düşündürməyə çalışmağı qarşısına məqsəd qoyur:

Günəbaxan, günəbaxan,
Ay özünü günə yaxan.
Quşlar səni dənləyəcək,
Açıq qalıb axı yaxan.

Filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Eyvazovun təbirincə desək, “mayası büllur bulaq suyu ilə nanəli, qərənfilli dağların torpağından yoğrulmuş” İbrahim Yusifoğlunun şeirlərinin böyük bir qismini lirika təşkil etsə də, onun doğma yurda, vətənə, böyüyüb boya-başa çatdığı Axura kəndinə, Şərur torpağına, Naxçıvan elinə, bütün bunların timsalında Azərbaycanın dərdinə, kədərinə, sevincinə həsr olunmuş onlarla şeiri var ki, həmin şeirlərin ovqatı milliliklə mayalanıb. Bu baxımdan onun “Torpaq bayatıları”, “Dərdlərin belimi

əydi, ay vətən", "Vətən haqqında şeir", "Bu nəğməm sənədi, doğma Naxçıvan", "Axura kəndi", "Ana kəndim, qayıtmışam qoynuna", "Daha Araz boyu qatar getməyir" və bu qəbildən olan şeirlərini oxumağa dəyər.

Hələ Sovet hökuməti dağılmamışdan qabaq inamı silahlara tuş olan İbrahim Yusifoğlu hirsini boğa bilməyərək təəssüflə qələmə sarılırdı:

Bizim haqda iftiralar, yalanlar təzə,
Bayquşlara duz veririk, səsləri batmır.

Yaltaqların yaltaqlığı çatır mərkəzə,
Bizim isə haqq sözümüz mərkəzə çatmır...

Daha sonra qazanılan müstəqilliyin nələr bahasına başa gəldiyini yaşadığı üçün Vətənə səslənirdi:

Axır ki, ayırıb düşməni dostdan,
Tanıdın ən qəddar yağını, Vətən.
Qoynun uzaq olsun alovdan, oddan,
Yaşa müstəqillik çağını, Vətən.

İllər keçdikcə, qazanılan müstəqillik firəvan həyata, rahat yaşayışa çevrildikcə, evindəki, qonşudakı, kəndindəki, yurdundakı uşağın, gəlinin, qocanın üzü güldükcə, sevinci gözlərində bərq vurduqca, gündən-günə gözəlləşən doğma el-obası rəngbərəng dona büründükcə, Naxçıvan özünün gül-çiçək ətirli həyatını yaşadıqca İbrahim Yusifoğlu yenə şeirlə dillənəcəkdi:

Qovmusan başından dumanı, çəni,
Toylu-büsatlıdı qoynunda hər yan.
Qəlbimdən süzülən bu şən nəğməni
Sənə bəxş edirəm, doğma Naxçıvan.

Sevimli şairim, aramızdakı yaş fərqinə baxmayaraq, (İbrahim Yusifoğlu mənim atamla həmyaşıddır) dəyərli dostum İbrahim Yusifoğlu haqqında deyiləcək sözüm çoxdur. Nədənsə varlığımda sevincdən uçunan titrəyiş hiss edirəm. Barmaqlarım klaviaturanı döyəclədikcə demək istədiklərimin hamısını deyə bilməməyin nigaranlığı ürəyimdə qövr eləyir. Əlli yaşında yazdığı şeirini pıçıldayıram qarşımdakı kitabının üz qabığından boylanan ağ saçlı şairə:

Əllərim başım altında,
Qismətim daşın altında,
Ölümüm qaşın altında,
Gəlib çatdım əlli yaşa.

Əlli yaş nədi ki, İbrahim Yusifoğlu! Bu gün artıq 70 yaşın şeirini gözləyirik sizdən. Aşıq Alı necə demişdi: Yüzə nə qaldı... Həəəə, hələ 80 yaşın, 90 yaşın, 100 yaşın şeirini də gözləyəcəyik sizdən. Axı özünüz demisiz:

Ömrümün elə bir zirvəsindəyəm,
Qalıb damağımda gəncliyin tamı.
Yenə yaratmağın həvəsindəyəm,
Məndən ola bilməz özgə adamı.

Şair doğulanın başqa adam olmaq şansı olmur. 70 yaşınızda belə yolunuza ağappaq saçlarınızdan işıq düşürsə, nur süzülürsə, 100-ü də yaşamağınızı arzulamadan keçmək olmur. Yenə və yeni-yeni şeirlər yaratmağınız arzusuyla, 70 yaşınız mübarək, İbrahim Yusifoğlu...

**Elxan YURDOĞLU,**
**şair dostunuz...**
**Naxçıvan şəhəri**

İbrahim Yusifoğlu 1954 –cü ildə Şərur rayonunun Axura kəndində anadan

olmuşdur. NDU –nu Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə bitirmiş, uzun müddət təhsil sahəsində çalışmışdır.

1968 – ci ildən bədii yaradacılıqla məşğul olan İbrahim Yusifoğlunun 32 adda müxtəlif janrlarda bədii kitabları çap olunub. O, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, "Qızıl Qələm" media mükafatıçısı və Prezident təqaüdçüsüdür.

İbrahim Yusifoğlu hazırda AMEA–nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşıdır.

## YAŞADIĞIN YAŞA DƏYƏR

Bu həyatda naşı olsan,
Bir sapandan daşı olsan,
Yanaqların yaşı olsan,
Bəxtin gedib daşa dəyər.

Könlün seçdi igid, mərdin,
Çox bəlaya sinə gərdin,
Qurtarmadı sevgi dərdin,
Yanağında yaşa dəyər.

İlk eşqini saxlasan da,
Yada salıb ağlasan da.
"Ah"larınla oxlasan da,
Gözdən ötüb qaşa dəyər.

Günah sənlə gəzirdisə,
Ürəyini əzirdisə,
O günaha nəzirdisə –
Payladığın aşa dəyər.

Hər günü tay ilə bilsən,
Dərdi qəlbdən silə bilsən,
Ömrü ömür bilə bilsən,
Yaşadığın yaşa dəyər.

## MƏN ÇƏKƏN DƏRDLƏRİ SƏN BARI ÇƏKMƏ

Mən dedim... sən gəldin...durdun önümdə,
Gözləri çağlayan bulaq kimiydin.
Ruhum ovsunlanan bu xoş günümdə
Sən mənə ünyetməz uzaq kimiydin.

Nə qədər yaxındıq, o qədər uzaq,
Sarsıldım duyğulu baxışlarından.
Nə bir qol qaldırdın, nə açdın qucaq,
Qorxdum gözlərinin yağışlarından.

Sən ki bənzəmirdin yada, özgəyə,
Bilirdim, sən məni duyub gəlmisən.
Şeir söylətməyə, söz eşitməyə,
Qəlbinin səsinə uyub gəlmisən.

Görən, nə tapmısan şeirlərimdə?
Onların sevincdən kədəri çoxdu.
Elə sinəmdəki dərdlərimin də
Qədəri varsa da, hədəri yoxdu .

Daha nə söyləyim bu payız günü,
Görürsən, yarpaqlar xəzələ dönüb.
Sənə deyəcəyim şeirlər, düzü,
Yaza bilmədiyim qəzələ dönüb.

Mənli hisslərini saxla özündə,
Axı qəm dəniyəm, qəlbinə əkmə.
Yansam da çatdığın ocaq közündə,
Mən çəkən dərdləri, sən barı çəkmə.
Mən dedim...
            sən gəldin...
                        durdun önümdə,
Gözləri çağlayan bulaq kimiydin.
Ruhum ovsunlanan bu xoş günümdə
Sən mənə əlyetməz uzaq kimiydin.

## MƏNƏ BİRCƏ GİLƏ GÖZ YAŞI BƏSDİ

Göylərin üzünü aldı buludlar,
Qəlbimi ürpədən külək də əsdi.
Eh, səndə nə qədər əmanətim var,
Qaytarsan... bir gilə göz yaşı bəsdi.

Bitdin bənövşətək yolumun üstə,
Yaydın yaylığını qolumun üstə,
Yığdım dərdlərimi solumun üstə,
Ağrılar çoxaldı, səbrimi kəsdi,

Mənə bircə gilə göz yaşı bəsdi.
Vətənin obasın, elin sevmişəm,
Günəşin, yağışın, yelin sevmişəm,
Anamın şipşirin dilin sevmişəm,
Zirvənin qartalı, sərt qaşı bəsdi.

## GECİKMİŞ MİSRALAR

Özümü duyandan gizlicə, aşkar,
Ruhumu oxşayan gül axtarırdım.
İlməsi qardan ağ, üstündə cüt nar,
Pəncərə önündə tül axtarırdım.

Sənə tuş gəlmədim baharda, yayda,
Çölü, çəmənliyi gəzdi gözlərim.
Bir payız günündə çatdılar dada
Səndən əllərini üzən gözlərim.

Gördüm, o çiçəksən – gəzdiyim gülsən,
Ruhuma yayılan ətrin bəsimdi.
Nə qədər xoşbəxtəm, nə qədər, bilsən,
Sevincdən ürəyim əsim-əsimdi.

Gəlmişdin mələyin qanadlarında,
Saçını küləklər darayırdılar.
Alma qızartısı yanaqlarında,
Gözlərin yolumu arayırdılar.

Yamanca ürkəkdin, yaman tələşlı,
Arxanca bir qısqanc göz izləyirdi.
Ancaq xəyalında bir qaraqaşlı,
Səni oxşayırdı, əzizləyirdi.

Sənli keçəcəkdi ömrümün ardı,
Qəlbimdən kədəri, qəmi silmişəm,
Nə yaxşı, həyatın payızı vardı,
Nə yaxşı, mən səni tapa bilmişəm.

## NUR SAÇILSIN

Bir azcana üzüm gülcək
Qismətimə daş atılır.
Zərrə boyda sevincimə
Kədər, qüssə, qəm qatılır.

Bu ömürdən bezikmişəm,
Çox istəyə gecikmişəm,
Əlli ilə ev tikmişəm,
Nəm çəkməkdən ev dağılır.

Yetəmmədim söz taxtıma,
Heç düşmədi söz vaxtına,
Közü basdım öz baxtıma,
Söz süzülür, qaş çatılır.

Saçım, qışın qırov qarı,
Yeməyimdi yarma, darı.
Şəkər, təzyiq düşmür barı,
Yeməyimə həb qatılır.

İçim isti, çölüm buzdu,
Dodaq quru, dil susuzdu,
"Düşmənlərim" şəkər, duzdu,
Yağ da, bal da nəhs sayılır.

Qızıl ömrüm döndü misə,
Alov söndü, düşdüm hisə,
Fərq olmadı yaxşı, pisə,
Yerə, göyə çən yayılır.

Bu halımla gedim hara,
Dərd əlindən gəldim zara.
Ulu Tanrı, et bir çara –
Dan sökülür, nur saçılır.

## BİR QIZ GÖRDÜM SƏNƏ BƏNZƏR

Bir qız gördüm sən yerişdə,
Sən duruşda, sən biçimdə.
Sənə oxşar gülüşündən
Ovsunlandı söz içimdə.

Yanağı dağ lalasıydı,
Ürkək ceyran balasıydı,
Pəmbə bulud talasıydı,
Yağasıydı su içimdə.

Qaşlarını dartması da,
Gözdə ocaq çatması da,

Saçların yan atması da
Sən nizamda, sən idimdə.

Süzgün baxıb boylanmağı,
Nazla gəzib dolanmağı,
Hamını xoş, dost sanmağı
Sənə bənzər, sən seçimdə.

Bir az dəcəl, şıltaq qızdı,
Neçə donmuş qəlblər qızdı,
Baxışları sərhəd cızdı:
Sənə bənzər, sən seçimdə.

Bir qız gördüm, sənə bənzər,
Duyğulanıb saldım nəzər.
Bu sən idin, lap təzə-tər,
Közərdi bir köz içimdə.

**ÖLÜMÜ GÖZLƏYƏN QOCA**

Gen otaqlar ona dardı,
Çıxıb həyətdə gözləyir.
Deməyə çox sözü vardı,
Yetişən anı izləyir.
Qol da açıb onu quca –
Ölümü gözləyən qoca.

Nəfəs dərir ağır-ağır,
Üz-gözündən giley yağır.
İstər dindir, istər çağır,
Çətin sözə qulaq asa –
Ölümü gözləyən qoca.

Saf ömrünə lil qatdılar,
Böhtan, nöqsan, çirk atdılar,
Sındırdılar, alçaltdılar,
Hər halında oldu uca –
Ölümü gözləyən qoca.

Dönüb bir də geri baxmır,
Nə kövrəltmir, nə də yaxmır,
Torlu görür, eynək taxmır
Baxışları dönüb buza –
Ölümü gözləyən qoca.

Bilə bilmir, bu nə haldı,
Ölüm harda ölüb qaldı.
Yəqin, şeytan tora saldı,
Heç bilmir ki, necə yoza –
Ölümü gözləyən qoca.

Dinən çağı dinənmədi,
Gülən vaxtı güləmmədi,
Ölən çağı öləmmədi.
Həyatından bezən qoca –
Ölümü gözləyən qoca!







# ŞEİR VAXTI

Anar SEYİDAĞA

## İZ

Tənhalıq yanında
kiminsə olmaması deyil,
Tənhalıq yanında heç kimi
hiss edə bilməməyindi.
Ümidsiz sevməkdi əzab verən.
Səhra yağışıdı gülüşlərin.
Qeyri-səlis məntiqdi qovuşmağımız.
5-10 adamın içini
yandırmaq fəlsəfəsidi şeirlər.
Unutmaq deyilən bir şey varsa, xəstəlikdi.
Nağıllardı ağlımızda
doğruluğun kimsəyə
lazım olmayan izləri.
Və
cəhənnəm qorxusudu
cənnəti doya-doya yaşamamaq.

## ADAM

Bir salam söylə də açılsın dilim,
Yoluna yalandan çıxdığım adam.
Səni necə xoşbəxt edəm, nə bilim,
Yüz kərə qaldırıb yıxdığım adam.

Körpə sevgimizi tutub bələdim,
Əlimdən nə gəldi, onu elədim.
Sən buz parçasısan, demə, belədi,
Qarşına keçincə axdığım adam.

Çox qırdın, çox yordun istəmədən sən,
Başladıq yenidən, bitdi yenidən.
Elə bilmə sənsiz sıxılmıram mən,
Uzaq durmağımla sıxdığım adam.

Yol deyil, bilirəm,  mənim seçdiyim,
Canından keçərsən candan keçdiyim. –
Dirisini boğmaq fikirləşdiyim,
Ölməsindən amma qorxduğum adam.

## CƏZA

Bu qədər məlum içindən
Nədən sən məchulu seçdim?
Həsrətin yüz cür həlli var,
Ən çətin üsulu seçdim.

Deməzdim,deməzdim amma
Tənə etməsəydi çoxu.
Xaraba qoyduğun qəlbin
Bayquşu özünsən axı.

Səni itirmək yoxdursa,
Qorxu nəyimə gərəkdir?
Yatıb səni görmərəmsə,
Yuxu nəyimə gərəkdir?

Yanımda ol,səni sevmək
Qoy yazılmasın qəzama.
Tanrım, mən razı deyiləm
Ömürlük sevmək cəzama.

## MƏNDƏN NƏ YAZIB ALLAH?

Gözlərimə bax bəzən –
güzgünü neyləyirsən?
Qoy ölüm həsrətindən –
özgəni neyləyirsən?

Misra-misra oxunma,
qoşum, dastan eyləyim.
Məhəbbətə himn yazım,
səni bəstəm eyləyim.

Əllərim fırça olsun,
sinən rəsm varağım.
Yanağından oxunsun
mənim möhur dodağım.

Saçını uçuran yel
dəli nəfəsim olsun.
Qollarının arası –
Olsun – qəfəsim olsun.

...Hey səni arzuladım,
Yalvardım – susub, Allah.
Görən, alın yazında
məndən nə yazıb Allah?

## XOŞBƏXT OL

Mənə bir toy havası çal
Qaval daşı ilə –
Tarixin yaddaşına oynayım.
Dindirin xarıbülbülü –
Vətən yazdım son kərə –
Şahiddi.
O gəlinin xınası havalıdı –
sevgilisi şəhiddi...
Bitməz bu müharibə
Son şəhid
qızına
Divardakı şəklindən –
Xoşbəxt ol!
deyənədək.

## QLADİATOR

Zəfərinə tamaşatək
Baxılan qladiator kimiyəm.
Bu sevgilərdən ayrılantək
Düşüncələrimin əsiri
olduğumu anlayıram.
İndi mənə əl çalanlar
Zuy da tutar, bilirəm.
Ölmək üçün bir az tezdi –
yavaş-yavaş ölürəm.
İlahi, İlahi!
Eşidirsən məni?
Baxırsan,
Eyni adamlardı,
Eyni dualar,
Eyni arzularla
Yoruruq səni?
İlahi!
Bir şey istədiyim yox,
Sadəcə, səni görmək istədim.

## İSTƏYİRƏM

Sənə oruc olmaq nədi,
doya bilmək istəyirəm.
Alnımı alnına qoyub
namaz qılmaq istəyirəm.
Gəl deyirəm, gəlirsən ki,
Nə düşündün deyirsən ki.
Yasaq meyvəm deyilsən ki,
bir diş almaq istəyirəm.

Sevgi hanı, inam hanı?
De, inanım, atam canı.

Qırım töküm, “papatya”nı? –
əmin olmaq istəyirəm.

Səninləmi qoşa düşdüm?
Başdan etmə, başa düşdüm.
Düşünürsən, işə düşdüm –
İşə salmaq istəyirəm.

## ÇIXIR

Niyə əyilməyən ruhum
qabağına dustaq çıxır.
Səndən sonra ürəyimə
kim gəlirsə, qonaq çıxır.

Gedəməm, nə qədər vursan,
Nə olar, yanımda dursan.
Allah haqqı! İnanmırsan?
Sənsiz hər şey yamaq çıxır.

Ölümmü mərd olum sənə?
İtimmi dərd olum sənə?
Deyirəm sərt olum sənə –
İçimdən bir uşaq çıxır.
Sevmə, oxuma nəzmimi,
Qıra bilməzsən əzmimi.
Özün çək sevgi rəsmini
Mən çəkirəm, çılpaq çıxır.

## İÇİNDƏ

Başqa aləmdəyik – nə kürə, nə yer,
Odla oynayırıq təndir içində.
Hərə bir tənliyin məchulundadır –
Necə tam çıxasan kəsir içində?!

Hansı yana gedək, vardı bir tuzaq,
Hər iki tərəfdə it hürür ancaq.
Div bilir, kim yatar, kim qalar oyaq,
Kimə su aparsın xəlbir içində.

Bu dar ağacıdı, baxma ucuna,
Sən yellən, küləklər dönsün saçına.
Ürək nə düşünür, kimin vecinə,
Boğaz xoşbəxtdirsə kəndir içində.

Günahdı, yasaqdı əyləncə, tar, saz,
Nə gözəllik gördük, dedilər, olmaz!..
Sən də, qəbirqazan, bir az enli qaz,
Adam sıxılmasın qəbir içində.

## NƏDİ?

Məni öldürməyə bir cümlə bəsdi,
Bu atəş, bu vulkan, top-tüfəng nədi?
Gözündən süzülən tək damla bəsdi –
Üzümə dəyişən yeddi rəng nədi?

Bilməyib qırmaq var, bilib qırmaq var,
Sevməyib xoş tutmaq, sevib yormaq var.
Öpüb oxşamaq var, gəlib görmək var,
Qısa mesaj nədi, soyuq zəng nədi?

Mən meydən qaçıram, içir ruhumu,
Dünya dərd yeridi, qaçır ruhumu.
Çox uzaq tutursan, uçur ruhumu –
İpin doladığın çərpələng nədi?

Nə misallar gördüm, mənə nə tərci?
Yorma özünü də, gəl tutaq mərci.
Ay zalım, sevirəm, nə il, nə bürcü –
Ha əkizlər nədi, ha xərçəng nədi?



## ANIM



# "HAÇANSA BİR ŞAİR KÖÇƏR BU ELDƏN..." – deyən Səyavuş Sərxanlı həm də inanırdı ki, "bir şair adısa yadigar qalar..."

Müfəssəl təfərrüata varmıram. Ötən əsrin 60-cı illərinin sonlarında ədəbi cameəmizdə bir "Ulduz" parladı. İlk sayı 1967-ci ilin elə birinci – yanvar ayında işıq üzü gördü. O vaxt təzə söz sarıdan korluq çəkən oxucular gündüzün gündüz çağında "Ulduz"un hər sayını çıraqla axtarır, dərgi ələ düşəndəsə əldən-ələ gəzirdi. Həmin 60-cı illərin sonları – 70-ci illərin əvvəllərində "Ulduz" öz kəhkəşanında neçə-neçə parlaq "ulduz"lar – imzalar toplamışdı və o kəhkəşanda ən gur işıq saçan ulduzlardan biri də elə o idi...

Bir xalq şairinin geniş təqdimatı ilə dərginin növbəti saylarının birində o zamanlar nəşriyyatlarımız tərəfindən çap edilən bir "gənc şairin ilk kitabı" həcmində şeirləri dərc edilmişdi.Oxucularla bu görüşdən hələ xeyli əvvəl isə Nəbi Xəzrinin "Uğurlu yol"u ilə "Azərbaycan gəncləri" qəzetində şeirləri çap olunmuşdu.

O, "Ulduz"çu idi. Uzun müddət ona doğma olan bu jurnalın sadiq əməkdaşı olaraq qaldı. Qoy oxucuları intizarda saxlamayım...

Səyavuş Sərxanlını deyirəm. "Ulduz" jurnalı ötən əsrin axırlarına yaxın illərdə Səyavuş Sərxanlının imzasını ulduz kimi parlaq etmişdi. O da çalışdığı doğma jurnala "borclu" qalmayıb qışda şaxtalı, sazaqlı Sibirdən vurub, yayın cırhacırında Donbasın cəhənnəm kimi isti daş kömür şaxtalarından çıxırdı. Səyavuş Sərxanlının isti-soyuq bilməyən bu "səyahətləri" sonralar qələmə aldığı bir-birindən maraqlı publisistik yazılara dönüb, jurnalda işıq üzü görür və "Ulduz"un həmin sayı oxucular tərəfindən həvəslə qarşılanır, oxunurdu. Jurnalda "Ölüm sevinməsin qoy..." rubrikası da onun adıyla bağlıdır. Bu rubrika altında çap olunan elegiyalarında özü də cavan olan Səyavuş Sərxanlı dünyadan vaxtsız köçmüş neçə-neçə iftixar ediləsi, öyünüləsi gənclərimizi oxuculara tanıtmışdı. Jurnalda əvvəl ədəbi işçi kimi fəaliyyətə başlamış, daha sonra şöbə müdiri də olmuşdu. Ömrünün son illərində "Azərbaycan" jurnalında poeziya bölməsinin müdiri olsa da, Səyavuş Sərxanlı yaddaşımda hələ də "Ulduz"çu kimi qalıb.

Yubiley yaşları keçirilmədi, bir də, görəsən, bu yubiley yaşları haqq etdiyi təntənə ilə qeyd ediləcəkdimi? Öz istəyincə... Sağlığında haqq etdiklərinin heç birinə nail ola bilmədi. Bəlkə də, elə bu səbəbdən boylu-buxunlu, dolu bədənli,Səyavuş iki il Tibb institutunun müalicə-profilaktika fakültəsində təhsil alsa da, can sağlığının qayğısına qalmadı. Səyavuş Sərxanlı cismən özünü qoruya bilmədi. Və... 63... yaşında dünyadan köç etdi. Ancaq dünyadan cismani ayrılığından xeyli əvvəllər, bəlkə də, özüyçün nə qədər ağrılı-acılı olsa da, "Haçansa bir şair köçər bu eldən..." misralarını qələmə almışdı.

***

...Onda 1974-cü ilin soyuq yanvar ayının ilk günləri idi. Yeni il şənlikləri başa çatmışdı. Keçmiş SSRİ-nin, eləcə də respublikamızın böyük dəmiryol qovşaqlarından birində – Biləcəri stansiyasında, dəmiryolçuların mədəniyyət sarayında mədəni-kütləvi tədbirlər üzrə təşkilatçı çalışan bir dostumuz vəzifə borcuna uyğun növbəti bir tədbir keçirirdi, axı buna görə aylıq maaş alırdı.

"Asudə saatların səmərəli keçirilməsi ilə bağlı" təsdiq edilmiş plana uyğun dəmiryolçuların o illərdə tanınan cavan şairlərimizdən Səyavuş Sərxanlı ilə görüşü olacaqdı. Tədbir təşkilatçısının dəvəti ilə "fəxri qonaqlar" arasında bir yaxın-tanış kimi mən də var idim, onda hələ ali məktəbin son kurs tələbəsi idim.

Tədbirdən qabaq təşkilatçının otağında çay içdik. Yox, deyəsən, bu isti çayın göz atdığımız klubun iri, gen-geniş, hündür, soyuq zalında bizi qızdırmağa gücü çatmayacaqdı. Ev sahibi, demə, əvvəlcədən yüngülvari, xudmani bir hazırlıq görübmüş...

"Ev sahibi"nin təkidi ilə bir qurtum çaydan sonra Səyavuş da, axır ki, süfrəyə əl uzatdı. Təbii ki, tədbir də təyin edilən vaxtdan bir qədər gec başlandı...

Səyavuş Sərxanlının o illərdə "Ulduz" jurnalında Yer kürəsinin altıda biri qədər əraziyə malik olan SSRİ adlı nəhəng bir imperiyanın ayrı-ayrı "müttəfiq" qardaş respublikalarına səfər təəssüratları ilə bağlı çap olunan iri həcmli publisistik yazıları geniş oxucu marağında idi.

O məlum görüşdən qabaq Səyavuş Sərxanlı Ukraynadan təzəcə qayıtmışdı və həmin görüşdə Donbasda yerin altında çalışan kömür çıxaran şaxtaçıların ağır əməyindən, məşəqqətli həyatından özünəməxsus emosionallıqla, ağrı-acı ilə, pafosla danışırdı. (Yəqin ki, tədbirdən qabaq "qızınmaq" üçün içdiyimiz "çay"ın da müəyyən təsiri var idi).

"Ulduz" jurnalında Donbas səfəri ilə bağlı yazdıqlarında isə burda danışdığı söz-söhbətin çoxusu yer almamışdı. Neçə-neçə belə kütləvi tədbirlərdə iştirak etmiş Səyavuş Sərxanlı, əlbəttə, bilməmiş deyildi ki, belə məclislərdə "havadan iy çəkən, sözü göydə tutan ayıq-sayıqlar" da otururlar...

Səyavuş Sərxanlı isə heç nədən qorxub çəkinmədən yerin altındakı "cəhənnəmdə" çalışan Staxanovçuların "əmək rəşadətlərindən" odlana-odlana, yana-yana danışırdı.

Onunla ilk canlı ünsiyyətim o gündən başlandı. Və o ünsiyyət sonralar yaxın dostluğa çevrildi və Səyavuşun vaxtsız ölümünəcən davam etdi.

***

1975-ci ilin qarlı-şaxtalı fevral ayının ortaları idi. Rayonumuzun, Şabranın (keçmiş Dəvəçinin) ucqar dağ kəndlərinin birində, məhşur Pirəbədil kənd orta məktəbində ixtisasım üzrə müəllim işləyirdim. Kənd poçtalyonu iri bir konvertdə mənə bir banderol gətirdi. Müəllimlər otağında tez-tələsik banderolu açdım. Hələ oxuculara, abunəçilərə çatdırılmamış "Ulduz" jurnalının 1975-ci il fevral sayı idi. Mündəricata baxmadan dərhal səhifələri tez-tez vərəqləyib çevirdim.Və budur, jurnalın "İlk hekayələr guşəsi"ndə "Buz heykəllər əriyir..." adlı hekayəm. Səhifənin sonunda isə bu ilk hekayəmi o zaman jurnalda nəsr şöbəsinin müdiri kimi capa təqdim edən Səyavuş Sərxanlının mənə ünvanladığı ürək sözləri: "Aydın, əzizim! Qoy bu ilk addım, həqiqətən, böyük bir yolun başlanğıcı olsun!

Əgər ola bilsə...

Səyavuş Sərxanlı, 18 fevral,1975-ci il" .

Bu vaxtacan qardaş Türkiyədə, hətta Moskvada ayrı-ayrı dərgilərdə neçə-neçə yazım, neçə-neçə kitablarım işıq üzü görsə də, "Ulduz"un həmin sayını indi də əzizləyə-əzizləyə qoruyub saxlayıram.

Görəsən, unudulmaz dostumun ümidini doğrulda bilmişəmmi?..

***

Doğulub boya-başa çatdığı Şəmkir şəhərində orta məktəbi qızıl medalla bitirmişdi. Ən mötəbər bir ali təhsil ocağının – N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-proflilaktika fakultəsinə qəbul olunmuşdu.

Oxuduğu ali məktəbdə vur-tut bircə illik tələbəlik həyatından sonra özlüyündə belə bir qərara gəlmişdi ki, insanlara nə vaxtsa bir təbib kimi sağalıb müalicə almaq üçün yazacağı dəva-dərman reseptlərindən daha çox, deyəcəyi poetik sözlə şəfa verə bilər, dərdlərinə o sözləri məlhəm ola bilər. Axı hələ orta məktəb illərindən şeirlər yazırdı və o şeirlər də dövri mətbuatda çap olunur, oxucular tərəfindən də bəyənilirdi.

Beləcə bir ildən sonra Tibb İnstitutunda təhsilini yarımçıq qoydu, həkim olmaq niyyətindən əl çəkib vidalaşdı. Rayona qayıtdı. Bir neçə il istehsalatda çalışdı. Sonra

da ADU-nun jurnalistika fakültəsinə qəbul oldu. O zaman 1962-ci il idi. Tezliklə Səyavuş Sərxanlı imzası mətbuat səhifələrində vaxtaşırı görünməyə başladı.

Ədəbiyyata Nəbi Xəzrinin yazdığı “Uğurlu yol”u ilə “Azərbaycan gəncləri” qəzetində çap olunan “Cığır” və “Səslədi məni” adlı şeirləri ilə gəlmişdi. Sonra “Ulduz” jurnalının səhifələrində bir Xalq şairinin yazdığı geniş təqdimatla az qala o illərdə çap olunan şeirlər kitabı həcmdə yaradıcılığından nümunələr oxuculara çatdırılmışdı.

***

Ötən əsrin 70-ci illərinin əvvəllərində ilk sevgilərindən nakam qalan, “məhəbbət oxları” daşa dəyən cavanların dilinin əzbəri olan məhşur məhəbbət şeirləri az qala “yarıyanların” da dillərinin əzbəri idi.

Eşqdən, məhəbbətdən “yarımayan” cavanlar isə yaralarına məlhəm, dərdlərinə təsəlli kimi o şeirləri əzbərləyir, bəzən elə ürəklərindəcə səssiz-səmirsiz, misra-misra öz-özlərinə pıçıldayıb, bəlkə də, təsəlli tapırdılar.

Dildə-ağızda gəzən belə şeirlərdən birinin də müəllifi o idi – boylu-buxunlu, qıvrım saçlı, qaraşın, suyu şirin Səyavuş Sərxanlı.

Tez-tez oxucularla görüşlərə gedirdi, belə görüşlərin iştirakçıları da daha çox gənc oğlan və qızlar olurdu, cavan oğlanlar da şairin öz dilindən “Qayıt” adlı o şeiri eşitmək istəyirdilər.

Kürsüyə sığmaya-sığmaya şeirini deyən Səyavuşun səsi indi də qulaqlarımdadır:

***Ötəri buludtək dolmağa nə var,***
***Ömür istəyirəm, gurşadla yağsın.***
***Dünyada arxasız qalmağa nə var –***
***Heç kəs məhəbbətdən yetim qalmasın!***

***Nəğmə aparmısan özünlə birgə –***
***Ömrüm səssiz qalıb, sədasız qalıb.***
***Dəniz aparmısan gözünlə birgə –***
***Ürəyim tufansız, dalğasız qalıb.***

***

Səyavuş Sərxanlı hələ cavan olsa da, müdrik babalarmız, köhnə kişilərmiz kimi milli mənəvi dəyərlərimizə, adət-ənənələrmizə, yazılmamış qayda-qanunlarmıza dəyər verən, hörmət qoyan ağsaqqal bir şair kimi yaradıcılığının elə erkən çağlarında məşhur “Duz-çörək” şeirini də yazmışdı.

***Babalar illərlə odlu ürəklə***
***Bu nemət yolunda candan keçiblər.***
***İnsan tanınıbdı duzla-çörəklə,***
***Ən böyük andı da ona içiblər!***

***Sınayar, tanıdar yüz dostu, yarı,***
***O daim ömürlə-günlə qoşadır.***
***Duz-çörək insanın ürək meyarı,***
***Duz-çörək insanın məhək daşıdır.***

Axı elə özü də duz-çörək qədri bilən idi...

Və onun Şəmkirdə, şəhərin Sərxanlı məhəlləsindəki ata evində indi adları ədəbiyyatmızın klassiklərinə çevrilən neçə-neçə sənətkarımız o ocağın halal duz-çörəyini kəsmişdi.

Səyavuş Sərxanlı bir vaxt süfrəsinin qonaqları olmuş qələm dostlarının adlarını ata ocağı haqqında yazıb “Azərbaycan” jurnalında çap etdirdiyi “Şəmkir şikəstəsi” adlı həzin, kövrək bir yazısında xoş bir xatirə kimi xiffətlə yada salırdı.

Adlarını sadaladığı qonaqlarının, dostlarının cərgəsində mənim də adımı çəkirdi və mən hələ o ocağın qonağı olmamışdan çox-çox əvvəl Səyavuşun şeirlərinin birindən o ev, o yurd yeri onsuz da mənə doğma, əziz olmuşdu.

***Başına döndüyüm ulu kəhrizin***
***Başında başımın tacı bir ev var.***
***Gözü tox, könlü tox, görkəmi həzin,***
***Qonaq-qarasının acı bir ev var.***

Ancaq... Bu da bir qismətmiş, nəymiş, mən ilk dəfə o evin ən hüznlü bir günündə “müsafir”i”oldum.

1977-ci ilin yayı, iyun ayının 22-si idi. Tarix dürüstlüyü ilə ona görə hələ də yadımdadır ki, orta məktəblərdə bizə keçilən tarix fənnindən bilirdik ki, alman faşistləri SSRİ adlanan ölkəmizə 1941-ci ilin iyun ayının məhz 22-də qəflətən basqın etmiş və Vətən müharibəsi başlamışdı.

Həmin gün unudulmaz dostum Səyavuş Sərxanı ilə bir yerdə idik. Səyavuş bildirdi ki, bəs bu gecə qatarla şair Ağa Laçınlı və 60-cı illərdə oxucular tərəfindən əl-əl gəzən

"Ata laylası" povestinin müəllifi, yazıçı Faiq Dərgahovla Şəmkirə oxucularla görüşə gedəcək. Qatarın yola düşməsinə hələ çox qalmışdı və Səyavuş da yır-yığış üçün yaxın ünvandakı evinə yollandı. Bilirdim ki, neçə gündür ki, Səyavuş evdə təkdir. Ailəsi qıraqda idi. Qayıdanda halı özündə deyildi, demə, içəri keçməsiylə telefon zəng çalıb, məlum olub ki, atası Əli kişi qəflətən vəfat edib, sabah da dəfnidir. Təbii ki, mən də Səyavuşu tək qoymayıb, ona qoşulub Şəmkirə getməliydim. Vağzalda qatarın tərpənməsinə az qalmış Ağa Laçınlı ilə Faiq Dərgahov da gəlib çıxdı. Onları məsələdən hali etdim, əlbəttə, oxucularla görüşdən daha söhbət gedə bilməzdi. Səyavuş Sərxanlı nə qədər təkid etsə də, Ağa Laçınlı və Faiq Dərgahovu fikirlərindən döndərə bilmədi. Hər iki sənətkar da bizə qoşulub Şəmkirə yollandılar. Onların "yol azuqələri" də kupedə açılmamış qaldı. İxtiyar atanın dəfnində iştirak edib sonra Bakıya geri qayıtdılar.

Mərhumun yeddisi çıxanacan Səyavuş məni Şəmkirdən buraxmadı. Onsuz da bilirdim ki, Səyavuş Şəmkirdə sayılıb-seçilən, xətirli-hörmətli bir ocağın övladıdır. O yeddi gündə mən buna bir daha şahid oldum. O yeddi günün hər birində yas mağarı dolub-boşalırdı...

Nə yaxşı ki, sonralar şad-xürrəm günlərində də mən dəfələrlə o ocağın halal süfrəsinin qonağı oldum, duz-çörək kəsdim.

***

70-ci illərin ortalarında bir cavan şair kimi Səyavuş Sərxanlının şöhrəti artdıqca, əlbəttə, bədxahlarının, paxıllığını çəkənlərin də sayı artırdı.

Parlaq gələcəyinə inananlar çox idi. Və elə bu da qəlbiqaraları hərəkətə gətirdi.

Həmyaşıdı olan bir şair həmkarı Səyavuş Sərxanlı haqqında sifarişləmi, ya sifarişsiz, bəlkə də, öz düşüncəsinin qərarı ilə, hər nəsə... bir məqalə yazıb "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirərək onu plagiatlıqda günahlandırdı.

Doğrudur, Anar müəllim o vaxt "Ulduz" jurnalındakı bir ədəbi müzakirədə özünə xas obyektivlik, həssaslıq və xeyirxahlıqla Səyavuş Sərxanlını bu haqsız ittihamdan müdafiə etdi.

Ancaq...

...Səyavuş Sərxanlı əyilmədi. Sındı. Arxadan vurulan bu qəfil, gözlənilməz zərbədən sarsıldı və illər keçsə də, bir daha özünə gələ bilmədi. Gələcəyi ümidlər doğuran cavan, istedadlı şairin ilham çeşməsi, nə yazıqlar ki, bax beləcə qurudu, çağlamaq bir yana, tükəndi.

Uzun müddət əvvəlcə "Ulduz", sonralar "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri olan Səyavuş Sərxanlının şair kimi imzası mətbuat səhifələrində az-az göründü. Gələcəyi vədlər verən bir sair istedadını göstərə bilmədi.

***

Rayon statusu yenidən bərpa edilmiş Siyəzəndə 1992-ci il sentyabrın 5-də yerli "Çıraq" qəzetinin ilk sayı işıq üzü gördü. Qəzetə mən redaktorluq edirdim. Qəzetimizin ilk sayında müraciət etdiyim tanınmış qələm dostlarımın da təbriklərini çap etmişdik. Xahişimi yerinə yetirib təbrik məktubu yollayan Səyavuş Sərxanlı öz ürək sözlərində belə yazmışdı: "Təzəcə şölələnməyə başlayan qəzetinizin adı nədənsə mənə "qığılcımdan alov doğar" məşhur kəlamını xatırlatdı.

...Daha sonra isə... Gör ağlıma nə gəldi: "Çıraq öz dibinə işıq salmaz" ifadəsi. Elə işığın, odun, yanmağın özü kimi sirli, soraqlı, hikmətli bir deyim...

...Lap sonra isə köhnə şairliyimdən qalan iki misram yadıma düşdü:

***Qələm nida kimi düz olduğundan***
***Onun yazdığı da düz olmalıdır!"***

Səyavuş Sərxanlının o vaxt "Çırağ"ın ilk sayında dərc etdiyimiz o təbrik məktubunu, ürək sözlərini niyə indi xatırlayıram?

Səyavuş Sərxanlının "köhnə şairliyini yada salması" məni o vaxt da, elə indi də kövrəldir, mütəəssir edir. Yəqin ki, Səyavuş Sərxanlı "köhnə şairliyini" elə özü də qubarlana-qubarlana yada salırmış... Ancaq heç kimin arxasınca gileylənmirdi.

Halbuki onu qoymadılar. Qolunu, qanadını dəfələrlə sındıranlar oldu.

Sözümün bu yerində elə Səyavuş Sərxanlının özü kimi dünyasını vaxtsız dəyişmiş həmyerlisi, istedadlı şair Taleh Həmidin onun xatirəsinə xitabən yazdığı məqaləsindən sətirləri yada salıram: "Diz qatlayıb birnəfəsə kitab yazmışdı. Gözəl bir adı var idi. "Göy suların sultanı"nı oxumuşdum. Nə qədər zəhmət çəkmişdi. Səyavuş inanırdı ki, bu kitab çap olunacaq. O da həmin kitabdan maddi, mənəvi zövqünü görəcək. Səmimiyyətindən, bir az da sadəlövhlüyündən hamıya inanan Səyavuş bu dəfə də aldandı".

***

Əlbəttə, Səyavuş Sərxanlı haqq etdiyi fəxri ad almağın arzusunda idi. O illərdə SSRİ Yazıçılar İttifaqının Bədii Publisistika Şurasının üzvü seçilən Səyavuş Sərxanlıya Respublikanın Əməkdar jurnalisti adını da qıyıb vermədilər.

***

"...Haçansa bir şair köçər bu eldən..." – bu qubarlı misra da Səyavuş Sərxanlınındır. Həm də "Bir şair adısa yadigar qalar.." həqiqətinə, yəqin ki, Səyavuş Sərxanlının şəkki-şübhəsi yox idi.

Yazıb-yaratmaq eşqi, həvəsi ilə:

***...Yollar üz qoyubdur ömrün qışına,***
***Mən gərək tələsəm, gərək tələsəm...***

– deyən Səyavuş Sərxanlı da, nə yazıqlar ki, dünyadan, həyatdan vaxtsız köçməyə, 2005-ci ilin isti bir yay günündə, ömrünün 63-də soyuq torpaq altına tələsdi.

***

Nədənsə kövrək, dolan bir bulud kimi boşalmaq istədiyim günlərin bir günü gözlərim evimin üst tərəfindəki dağlarda qalmışdı.

O dağlarda ki, zirvəsində boz buludlar həmin gün donub qalmışdılar və o buludlar sanki gizli bir tellə bir-birləri ilə bağlanmışdılar. Biri yerindən azca tərpənsəydi, o birilər də pərən-pərən düşəcəkdi.

Düymə kimi qopacaq o buludları elə bil nəyəsə oxşadırdım və birdən-birə yadıma nə vaxtsa oxuduğum şeirin musraları düşürdü:

***Dağların başında bir çəngə bulud***
***Bir parça yolunmuş saça dönübdür.***

Xatırladım. Səyavuş Sərxanlının şeirindən idi. Sonra da qulaqlarımda şeirin başqa misraları səsləndi:

***Gözlərim önündə adicə bir val***
***Hissləri qovuran saca dönübdür...***

Ürəyimdən evə, içəri keçmək, köhnə patefonu qoşub "Segah"a qulaq asmaq keçdi. Ürəyimdən keçənlərə əməl də etdim.

Rübabə xanım həmişəki yanıqlı səsi ilə adamı odsuz-ocaqsız yandırıb-yaxır, şairin halına həmdəm olurdu:

***Su axır, arxa nə var,***
***Dolanır, çarxa nə var...***
***Məndən öz yarım küsüb,***
***Bilmirəm, xalxa nə var...***

***

**P.S.** Səyavuş Sərxanlının vəfatından illər keçmişdi. Onu hələ tələbəlik illərində mənimlə birgə görüb yaxından tanıyan oğlum Şəhriyar xidməti işi ilə bağlı bir gün Şəmkirdən qayıdandan sonra: – Ata, Səyavuş əmi ilə şəhərlərində görüşdüm, – deyə doluxsuna-doluxsuna mənə bir xəbər çatdırdı. Çaşqınlığmı görüb: – Getdiyim ünvan Səyavuş Sərxanlı küçəsində idi... – dedi.

Sevindim. Bir də digər əziz bir dostumun – Cabir Novruzun məşhur misrasını xatırladım: "Sağlığında qiymət verin insanlara!.."

***2023***

Aydın TAĞIYEV

# ŞEİR VAXTI



## Ülkər Nicatlı

**GÖRDÜM**

Taleyin yolları azıb dumanda,
Göz yaşım can verir neçə gümanda.
Kövrək arzularım nicat umanda
Ümidin boynunu bükülü gördüm.

Səbrim daşa çırpıb öz yaddaşını,
Ocağım söndürüb köz yaddaşını.
Doldura bilmədim söz yaddaşını,
İçində nə qədər söz külü gördüm.

Bir kövrək çiçəyi qoxuyum-dedim,
Durub gözlərini oxuyum-dedim.
Bəxti bircə naxış toxuyum-dedim,
Ömrün ilməsini sökülü gördüm.

**ANAMA MƏKTUB**

Yuxuma gəlmisən bu qış gecəsi,
Qayğılı qəlbinə qurbanam, ana.
Dünyanın ən böyük müqəddəsliyi,
"İncil»im, "Tövrat"ım, "Quran"ım, ana.

Yuxuma gəlmisən bu qış gecəsi,
Yastığım bələnib sənin ətrinə.
Yenə də səpilir layla qoxusu
Ömür kitabının hər bir sətrinə.

Yuxuma gəlmisən bu qış gecəsi,
Ömrü çiçəkləyib yuxularımın.
Sənin gəlişinlə həyat qapısı
Bağlanıb üzünə qorxularımın.

Yuxuma gəlmisən bu qış gecəsi,
Köz düşüb üstünə xatirələrin,
Yuxunu yorğantək çəkir üstümə
Sənin nəvazişli, kövrək əllərin.

**XƏZƏRİN PAYIZI**

Mənim könlümdəki duyğular kimi
Bu payız günündə çırpınır Xəzər.
Ruhumdan ələnən söz qoxusunu,
Allah, bu dənizin sularına sər.

Sahilə can atan coşqun dalğalar
Vüsala tələsən könlüm kimidir.
Tufanlar içində boğulan qayıq
Uzaqdan əl edən ölüm kimidir.

Sənli xatirələr üşüyür burda,
Yenə ürəyimi həsrət dağlayır.
Dənizin üzünə qəriblik hopub,
Dalğalar hönkürür, sahil ağlayır.

Payız saçlarını sərib dənizə,
Ayrılıq havası qoxuyur sular.
Yuvatək boşalan sahillər üçün
Tənhalıq nəğməsi oxuyur sular.

**YUXUSU ÜŞÜYƏN KÖRPƏ**

Yurd uğrunda şəhid olub atası,
Bu körpənin yuxusuna qar yağır.
Açılmayan dili üstə, İlahi,
«Ata»sözü qoxusuna qar yağır.

Vətən qədər tarixi var, yaşı var,
Bax üstündə uyuduğu mundirin.
Başqa dili anlamaz o, bilməz o.
Bu körpəni yurd dilində dindirin.

Böyüdükcə böyüyəcək dərdi də,
Ürəyindən ağrı-acı yığışmaz.
Öz ömründən asar ata şəklini,
Şəhid adı çərçivəyə sığışmaz.

Ta oxşamaz bu körpənin boyunu,
Döyüşdədir atasının qolları.
Bu körpənin xatirinə yol gəlir
Uzaqlardan qələbənin yolları.

**MƏNİ UNUT DEMİŞDİN**

Dəniz gözlüm, məni unut demişdin,
Gözün aydın, sətir-sətir unutdum.
Gördüm səni unutmağa tabı yox,
Ürəyimi sənə xətir unutdum.

Sevgi mehi öpməz daha üzündən,
Dadı qaçıb ömür adlı bu yolun.
Götür mənim göz yaşımı, nə olar,
Öz əlinlə göz yaşını yu yolun.

Çatılıbdı qaşı sənli günlərin,
Xatirələr üzün tutub qəhərdən.
Bütün dünya ayrılığa yoluxub,
Sevgi köçüb sən yaşayan şəhərdən.

Vaxtın olsa, bu yaralı misramın
Könlün alıb, göz yaşını silərsən.
Dəniz gözlüm, məni unut demişdin,
Sevmək özü unutmaqdır, biləsən.

**GÜNAH NAĞILI**

Gözlərinin gözlərimə yazdığı
O məktubun gözlərindən gen düşək,
Duyğuların əlifbası gizlidir,
Gəl bu gizli əlifbada görüşək.

Al ovcuna əllərimi şeirtək,
Xatirələr heca-heca oxunsun.
Sevgi-sevgi çiçəkləyən dodaqlar
Bir meh kimi yanağıma toxunsun.

Əl eyləyək ötüb gedən anlara,
Çıxarmasın bu sevgini yadından.
Bircə misra məktub yazaq Allaha
Bu bir anlıq xoşbəxtliyin adından.

Günahına qurban olum, ay Allah,
Bu günahım oğurlayıb ağılı.
Bələnibdir taleyimin ətrinə
Sevgi dolu bu günahın nağılı.

**BAYRAQ**

Mənası uludur, hikməti dərin,
Qanından rəng alıb neçə min ərin.
Şuşa qalasını alan əsgərin
Təbəssümlə dolu üzüdür bayraq.

Ürəklər boyuna açıb qucağın,
Şərəf tarixidir ötən hər çağın.
Millətin qəlbində yanan ocağın
Heç vədə sönməyn közüdür bayraq.

Bir üzü Turandı, bir üzü Quran
Qalalar endirən, sərhədlər quran,
Oğul qəbri üstə səssizcə duran
Şəhid anasının gözüdür bayraq.

Şanlı zəfərinlə, Vətənim, tanın,
Şəhid ətirlidir damarda qanın.
Qələbə soraqlı Baş Komandanın
Yurdda dalğalanan sözüdür bayraq.

Dağlarda qalmayıb nə duman, nə çən,
Şöhrətin boy verir zirvələrəcən
Bu torpaq uğrunda canından keçən
Şəhid oğulların özüdür bayraq.

**GÜLÜMSƏ, QADIN**

Sən həyatın sevgi fəslisən,
Hər səhər alnından öpür mələklər,
Diksinir
içindəki xatirələr...
Dodağında bir öpüş,
gözlərində unudulmaq
qorxusu üşüyür.

Qar altında gülümsəyən
bənövşə kimisən bir az,
ətrinə, məsumluğuna can atar
ruhunda səni gəzdirənlər
və səni fəth etmək istəyənlər...

Bir ömür
canında balıq kimi çırpınar
fəth olunmaq arzusu,
utanarsan
işğal olunmuş arzulardan.

Sənin adına

hopub Tanrı qoxusu,

Sən bütün duyğuların

and yerisən, qadın.

Baxma ayrılıqlara,

vüsal sənin özünsən,

qoy fələk səni

qoxlamasın,

özündən özünə sarı

yeri sən, qadın.

Adın çiçəkləyən yerdə

Tanrı gülümsəyir

hər gün, qadın.

Sən də gülümsə,

bəxti açılsın tənhalığın...

Üzü gülsün

daraqsız saçların,

duvaqsız acıların.

Gülümsə, qadın,

Tanrı üşüyür...

**HƏR GECƏ GƏLƏRƏM YUXULARINA**

Sənsiz, çətin,  ömrüm sevgi qoxuya,

Könlüm əsir düşüb bu lal qoxuya.

Həsrəti bir misra verib yuxuya,

Hər gecə gələrəm yuxularına.

Qurudub gözümün yağışlarını,

Ovudub alnımın qırışlarını.,

Söküb ayrılığın naxışlarını

Hər gecə gələrəm yuxularına.

Bir ovuc ümidi səpib ağrıma

Könlümə deyərəm: – daha ağrıma.

Sənli arzuları basıb bağrıma

Hər gecə gələrəm yuxularına.

Ovcunda saxlayıb göy ahlarımı,

Bir gün qurudacaq gün ahlarımı.

Yollara döşəyib günahlarımı

Hər gecə gələrəm yuxularına.

**SON QATAR**

Tənhalıq sözündən yıxılıb ömrüm,

Üzü çiçəkləyib ayrılıqların.

Ürəyi qırılmış bir misrayam mən,

Yağırsan gözümdən sən narın-narın.

Mənim ümidimin könlünü almaz

Həsrətin saçımı oxşayan əli.

Şirin günahların çicək yeridir

Sənin kimi aşiq, mənimtək dəli.

Qollarım uzanan hicran yoludur,

Sənsizlik bu yolda şütüyən qatar.

Uzaqda bir vüsal kövrəlib mənsiz,

Gəl məni bir misra özümə qaytar.

Üzü qəm qoxuyur xatirələrin,
Gözümdə islanıb gözümün yaşı.
Sən gedən yolların sinəsi üstə
Öpür saçlarımı həsrət yağışı.

Ümid qatarının pəncərəsindən
Atdım əllərimi sənin dalınca.
Yenə bu vağzalda oturub ağlar
Son arzum səndən bir xəbər alınca.

Fələk də gözünü çəkmir nə vaxtdı
Mən gözü yaşlıdan, mən gözü nəmdən.
Götürüb üsüyən arzularımı
Son vüsal qatarı keçir sinəmdən.

**KƏDƏR OCAĞI**

Bu söz heykəlinin önündə çoxdan
Cavabsız məktuba dönüb qalmışam.
Bugünkü həsrəti yola salmamış
Yenə ayrılıqdan məktub almışam.

Sənin insafına yenə qar yağır,
O sevgi qoxulu yolların hanı?
Könlümü oxşayan qoşa misratək
Boynuma sarılan qolların hanı?!

Sənsizlik qoxuyan qərib misralar
Gör necə üşüdür mənim qəlbimi.
Ovcunun içində tutrək əllərim
Kaş yenə çırpınsın göyərçin kimi.

Qərib bir nəğməyə dönüb,əzizim,
Daha ləzzəti yox sənsiz həyatın.
Kədər ocağıtək üşüdür məni,
Hər gün dodağımı isidən adın.
Sən də məni unutdun...

Sənə sarı qanad açan ürəyim
Köynək geyib gözlərimin yaşından.
Hər gün mənə məktub yazır ümidlər,
Gəlib çatmır dünyanın o başından.

Sən də məni hamı kimi unutdun,
Gedib durdun ayrılığın yanında.
Xatirələr üzün yuyur hər səhər
Yazmadığım misraların qanında.

Yığışdırıb aparmısan səbrimi,
Sözüm yoxdur daha sənə deməyə.
Gözlərimdə bir ev tikib həsrətin,
Əlim qalxmır qapısını döyməyə.

Asta oxu, gözlərinə dolacaq,
Varaqdakı bu misralar külümdü.
Son qürurum dodağımı dişləyir,
Deyəmmirəm sənsiz qalmaq zülmdü.

Urəyimdə dəfn elədim yenə də
Eşq qoxulu qərib-qərib sözləri.
Məktub-məktub göy uzündə ağlayır
Yetim qalan bu sevginin gözləri.



NƏSR

# SON ÇAĞIRIŞ

Səadət MUSAYEVA



*Hekayə Təcili Tibbi Yardım Stansiyasında işləyən bir gənc həkim qadının yaşadığı real hadisə əsasında yazılıb.*

Səhər növbəsi yeni başlamışdı. Çox vaxt olduğu kimi, stansiyada yetərli sayda tibb bacısı olmadığı üçün bu gün mən yenə də tək işləyəcəkdim. Operatordan yeni daxil olan çağırış vərəqəsini götürüb gün boyu işləyəcəyim təcili yardım maşını ilə ünvana yollandıq. Ünvan şəhərin köhnə yaşayış məhəllələrindən birində yerləşirdi. Mən çağırış vərəqəsində qeyd olunan birmərtəbəli yaşayış sahəsinin qapısına yaxınlaşıb bir neçə dəfə qapını döydüm. Cavab verən olmadığı üçün qapını itələyib açdım və tünd kərpic rəngli yeni boyanmış kimi parıldayan enli. uzun və çox səliqəli eyvana daxil oldum. Eyvanın qarşısında səliqəli sement örtüklü dördkünc və çox böyük olmayan həyət vardı. Eyvanda və həyətdə hər hansı bir əşyanın olmaması, üstəlik, bəzi dəhşət filmlərinin ilk səhnəsini xatırladan səssizlik məni bir xeyli ürpəndirdi. Mən eyvanın sol tərəfindəki nəfəsliyi xatırladan ilk kiçik qapıya nəzər salıb bir qədər irəlilədim. Ağ rəngli qapıya çatıb dayandım. Mövcud ab-havanın məndə yaratdığı gərginliklə titrəyən əlimin arxasıyla qapını döydüm. İçəridən mənə "gəlin" deyən bir kişi səsi eşitdim. Bir qədər ehtiyatla qapını araladım və bu zaman divarları ağ, döşəməsi eyvanla eyni rəngdə rənglənmiş olan böyük boş otağı görüncə təlaşım bir az daha artdı. Mən "gəlin, gəlin" təkrar edən kişi səsinə tərəf boylanaraq otağa daxil oldum. Otağın baş tərəfində ağ rəngli səliqəli yataq dəsti salınmış çarpayıda uzanan oğlan başını bir qədər mənə doğru dikəltmişdi. Onun qarşısındakı üzəri ağ örtüklə örtülmüş stolun üstündə sanki yenicə itilənmiş kimi parıldayan böyük bir bıçaq vardı. Oğlan stolun yanındakı üzü ona tərəf çevrilmiş yeganə stulu işarət edib "əyləşin" dedi. Mən titrədiyimi bəlli etməməyə çalışaraq əlimdəki ilk yardım çantasını stulun üzərinə qoydum və çağırış vərəqəsində qeyd edilən ismi "Nəsibə Hüseynova, 31 yaş" oxuyub "xəstə haradadır?" – deyə soruşdum. Oğlan gözünün ucu ilə məni süzüb susdu.

– Siz çağırmısız?

Oğlan başını tərpədib dodağının altında mızıldandı.

– Mən çağırmışam.

– Zəhmət olmasa, adınızı, soy adınızı, atanızın adını və doğum tarixini deyin, çağırış vərəqənizdə qeyd etməliyəm.

Oğlan heç də sualıma cavab verməyə həvəsli görünmürdü. Qarşımdakı pasiyentin şikayətlərini soruşdum.

– Burda ürək narahatlığı yazılıb, buyurun, sizi dinləyirəm, şikayətiniz nədir?

– Ürək döyünməm var.

Mən dərhal pasiyentimin nəbzini yox-

ladım və nəticə oğlanın şikayətini təsdiq edirdi.

– 120, bəli taxikardiyanız var. Daha hansı şıkayətləriniz var, ürək döyüntülərindən başqa sizi nə narahat edir?

Mən sualımı bitirib pasiyentin üzünə baxdım. Zənnimcə, bu onu bərk narahat etdi, o, tez gözlərini aşağı dikib baxışlarını məndən gizlətməyə cəhd etdi.

– Ürəyinizdə ağrı, yaxud hər hansı başqa bir narahatlıq hiss edirsinizmi?

– Həkim, özünüz tapın... sakitləşdiriciyə ehtiyacım var, mənə iynə vurun.

Mən cəld ilk yardım çantasını açdım, tanometri çıxarıb pasiyentin təzyiqini ölçmək istədim. Tanometrin manjetini onun qoluna bağlamaq istədikdə o, mənim əlimi tutub geri itələdi.

– Həkim, niyə boş şeylərlə vaxt itirirsiniz, mənə ehtiyacım olan iynəni vurun, gedin.

Mən təmkinli olmalıydım, bu həmin an ağlıma gələn tək şey idi. Gizlətməyə çalışsamda titrədiyimin kənardan açıqca göründüyünü bilirdim.

– Sizə gərəkli olan hansı iynədir? Mən sizə gərəkli olan iynəni vura bilmək üçün öncə sizi müayinə etməliyəm. İcazə verin, təzyiqinizi ölçüm. Ürəyinizdə ağrı varmı, ürək döyüntüləriniz tez-tez olur? Ürəkbulanma, baş ağrıları, baş gicəllənmə...

Oğlan əvvəlki təmkinli halını pozaraq saymağa başladı.

– Xanım, mən yavaş-yavaş əsəbiləşməyə başlayıram. İndi ancaq ürəyim döyünür. Bir azdan titrəməyə başlayacağam, ağrılarım başlayacaq... bilirsiniz... ağrılarım, sümüklərim qırılacaq...

– Siz indi sakit olmağa çalışın, narahat olmayın, sizə ehtiyacınız olan iynəni vuraram.

– Doktor, elə isə vaxt itirməyin. O oyuncaqlarınızı yığışdırın. Özünüz hər şeyi yaxşı bilirsiniz, uzatmayın.

– Bəli, doğrudur, anladım, artıq vaxt itirməyə gərək yoxdur. Sizə ürək döyüntülərini tənzimləyən bir dərman verim.

Oğlan əlini yellədərək yataqdan mənə doğru dikəldi.

– Xanım, nə dərman?

– Ürək döyüntülərinizin sayı...

Oğlan səs tonunu yüksəltdi.

– Xanım, siz mənə lazım olan iynəni vurun.

Mən əlimdəki aparatı büküb yerinə qoydum. Əlimi ilk yardım çantasının içərisində gəzdirib əlavə etdim.

– Görürsüzmü, diqqətlə baxın, sizə gərəkli olan o iynə bu çantanın içində yoxdur. Bilirsiniz niyə?

Mən tələsik ilk yardım çantasını bağladım və çağırış vərəqəsni ona doğru uzatdım.

– Bu çağırış vərəqində xəstənin ağır vəziyyətdə olduğu qeyd ediləndə biz o güclü iynələri mütləq özümüzlə götürürük. Çünki sizin nəzərdə tutduğunuz o iynələri biz yalnız xəstənin vəziyyəti tələb etdiyi hallarda işlədirik. Sizin bu çağırış vərəqəsindəki qeydləriniz isə belə bir halı ehtimal etdirmir. Odur ki, mən bura gələndə həmən ampulaların olduğu kiçik penalı maşında qoydum. İndi gedib onu gətirərəm, mən tez qayıdaram. Siz heç narahat olmayın. İnanın, ehiyac olan dərmanları vurduqdan sonra halınız dərhal yaxşılaşacaq. Mən, əslində, əvvəldən qarşımdakı pasiyentimin məndən nə tələb edə biləcəyini təxmin etmişdim. Onun məndən istədiyi dərman vasitələri xalatımın altında belimə bağlamış olduğum kəmərdən asılmış penalımda saxladığım kiçik narıncı rəgli qutunun içərisində idi. Yalnız xəstənin vəziyyətinin göstəriş olduğu hallarda vurduğumuz və boş ampulasnın işlədilmə səbəbini əsaslandırıb yazmış olduğumuz çağırış vəsiqəsiylə birlikdə mərkəzə təhvil verilməsi tələb olunan promidol və morfin kimi narkotik analgetiklərdən söhbət gedirdi.

Oğlan gözlərinin altından mənə baxıb başı ilə təsdiqlədi. Deyəsən, mən onu inandıra bilmişdim. İlk yardım çantasına əl atanda oğlanın mənim fikirlərimi oxuya biləcəyi qorxusuyla əlim tir-tir əsirdi. Çantanı götürüb qapıya üz tutdum. O, yataqdan bir qədər dikəlib gözlərinin altından məni süzürdü.

– Siz yataqdan qalxmayın, mən bu dəqiqə qayıdıram.

Qapıya çatana qədər hər an kürəyimdə itiliyi ilə parıldayan iri bıçağın saplanacağı ürpəntisini hiss etdim və bu qorxu hissi mən qapıdan çıxıb ürpərdici səssizliyi içində addımladığım eyvan boyunca davam etdi. Küçəyə çıxıb bir anlıq durdum və ilk yardım çantasını bərk qucaqlayıb var gücümlə ağlamağa başladım. Sonra ensiz dalanla maşına doğru qaçdım. Halımı görən sürücü bərk təlaşlandı – xeyir ola, doktor, nə olub, sizə nə olub?

Mən əlimlə ona sakit olmasını işarət edib maşına oturdum.

– Narahat olmayın. Xəstə... bu bir qorxunc abstinensiya...

Mən təcili yardım maşınındakı radiostansiya vasitəsi ilə mərkəzə ətraflı məlumat verdim və stansiyaya dönmək üçün icazə istədim. Bu mənim Təcili Tibbi Yardım Stansiyasındakı son iş günüm və son çağırışım oldu.





# ŞEİR VAXTI



İmir MƏMMƏDLİ

## KÖLGƏ

Ağac da yox idi həyətlərində,
Zəhmətkeş atanın alt köynəyini
Yuyub da kəndirə sərəndə ana
Onun kölgəsində oynayırdılar
Uşaqlar yayda.

## GÖLMƏÇƏDƏKİ GÜNƏŞ

Adi bir gündü,
Duru gölməçədən göyə zillənən
Göydəki gündü.

## ANAMIN HEYKƏLİ

Qəbrinin üstündə incə bir lalə –
Anama gül heykəl qoyubdu bahar.
Elə bil qəflətən «ay ana!» desəm,
Bu çiçək çevrilib üzümə baxar.

## ETİBAR

Bıçaq boğazına dirənəndə
Heç tərpənmədi,
Elə zənn etdi ki,
Boynundakı kəndiri kəsib
Azadlığa buraxacaqlar.

## AZADLIQ VƏ ACLIQ

Tələyə düşmüşdü,
Ayağını gəmirib qurtardı ordan.
Amma həmin axşam yaman acanda
Qayıdıb yedi öz ayağını.

## PARADOKS

Metro qatarının basabasında
Dostunun yasına tələsirdi o.
Dostuna qazılan qəbrin altından
Keçirdi metro.

## İLAHİ DAİRƏ

Torpaqdan yaratdı,
Sonra baxdı, baxdı  yaratdığının əməllərinə,
Yenidən torpağa çevirdi onu,
İstədi yoğurub
Bu dəfə daha da təkmilləşdirsin.

## HARA GEDİRSƏN?..

İnsan qocalanda torpağa gedir,
Torpaqdan çıxırlar əlvan çiçəklər.
Görəsən, yolda bir-birinə rast gəlirlərmi
Gedib-gələnlər,
Bir-birindən soruşurlarmı:
– Hara gedirsən?

## GÜLLƏR

Yazda çəmənləri bəzəyən güllər
Dünyalarını dəyişənlərin son sözləridir.
Burada qalan sevimlilərə
Gül göndərirlər yerin altından.

## İKİÜZLÜ DÜNYA

Dünyanın da iki üzü var, –
Evin pəncərəsindən baxdıq,
Baxdıq qatarın pəncərəsindən,
Birində dururdu məğrurcasına,
O birində qaçırdı hündür ağaclar...

## ÜÇÜNCÜ RƏNG

Gecə, gündüz kimi,
ağ-qara kimi
İki yerə bölünmüşdü o kənd, o oba.
Ortada uzun bir təpə var idi –
Gecəylə gündüzün,
Ağla qaranın arasındakı
Məchul rəng kimi.

## KƏNDİN TƏPƏLƏRİ

Kəndin təpələri təpələr deyil,
Torpaq dikəlib ki,
Üstündə açan əlvan çiçəklər
Yaxşı görünsün,
Qışda qar yağanda
Eniş boyu sürüşə bilsin
Taxta xizəklər,
Yayda günəşin al şəfəqləri
Sancılsın yerə nizələr kimi.
Kəndin təpələri təpələr deyil.

## KƏPƏNƏK ÖMRÜ

Yaşamalı idi kəpənək bir gün,
Həmin gün şıdırğı yağışlar yağdı,
Səhər asimana gün çıxdı, amma
Artıq qurtarmışdı kəpənək ömrü.

## BAĞLI QAPI

Qapı döyüləndə
Evdə heç kəs yox idi deyə,
Xəcalət hissi keçirdi kilid.

## QIŞIN PAPAĞI

Fevralın sonunda qış geri döndü,
Ətrafa boylandı,
Qüzeydə qalan ağ papağını
götürüb getdi.

## ZƏLZƏLƏ

Evlərlə birlikdə xəyallar uçdu,
Dağıntılar altında qaldı arzular.
Aləm silkələnəndə
Quşlar pırıldaşdı, göylərə uçdu,
Asimandan asılı qaldı durnalar.

## QAPALI MƏKANDA

Qəflətən otağa girən sərçətək
Hərdən yol gəzirdi çıxmağa, amma
Kişinin qəlbinin aynalarına
Dəyib qalırdı.

## SİÇANLARIN OYLAĞI

Pişiklər yatanda
Siçanlar çıxırlar yuvalarından.
Səhərə qədər veyillənirlər
Pişiklərin yuxularında.

## İSMARIŞ

Bir zaman Tiflisdə ismarışımı
demişdim Kürə,
O da çatdırmışdı Azərbaycana.
Xəzər eşidəndə demişdi: «gəlsin»...

**DALANDAR**

Dalandar süpürür xəzəli, amma
Bircə yol başını qaldırıb baxmır
Hündür ağacların buluda toxunan
zirvələrinə.

**TÜSTÜ**

Avtobus gəlirdi,
O minib gedirdi,
Sən ötürürdün baxışlarınla,
Amma təkərlərin izi itirdi
Göz işləməyən uzaq çöllərdə,
Lakin tüstü... tüstü göyə yayılıb
Hər gün piltə-piltə bulud olurdu.

**TƏZƏ PALTAR**

Təzə paltarıma mübarək demə,
Təzə libasın altında bəzən
Köhnə yaralar gizlənir, gülüm.

**TORAĞAY**

Bizi görən kimi uçan torağay
Cəh-cəh vura-vura göylərə qalxır.
Görəsən, gedib haqqımızda
Nələr söyləyir uca Allaha?

**İNSAN**

Qanadları bala yapışıb qalan
milçəkdir insan.
Bal boldu, içində bata da bilər,
Üzərinə yayxanıb yata da bilər,
Amma artıq heç vaxt o uça bilməz.

**ÇƏTİN MƏTN**

Mən xeyli tərcümə etmişəm, amma
Hələ belə çətin mətnim olmayıb, –
Özümü sənə sevdirim deyə,
Eşqimi çevirirəm sənin dilinə.

**DAĞA DÖNƏN TƏPƏ**

Burada bir təpə vardı,
Həmin təpə dönüb dağa,
Aha, bildim,
Nənəm ölüb, babam ölüb,
Qarışıbdı bu torpağa.

**YAXIN QOHUMLAR**

Yaxın qohumlardan xəbərin varmı?
Bakıda sənsən,
Yaşıl çöllərdə – zərif lalələr.
Onlar səni bilməz, sən də onları.

**AYAQQABILAR**

Ana bir gün küsüb evdən çıxanda
Qucağında gedən balaca qızın
Ayaqqabıları dəhlizdə qaldı.

...Ana qayıtdı,
Qızın ayağına olmur həmin ayaqqabılar,
Sıxır ayağını, amma geyinib
Axsaya-axsaya gəzir qızcığaz.

Necə də xoş imiş ayağı sıxan
Ayaqqabının
Verdiyi əzab, verdiyi ağrı.

**DƏNİZ**

Necəsən, soruşdum,
Dalğanı elə çırpdı üzümə,
Elə bil şəst ilə bağlandı qapı.
Sən demə, dəniz də insan kimidir,
Nə bir dincliyi var, nə də cavabı.

**BURAX... BURAXIM...**

Burax məni, çıxım gedim,
Düşünmə ki, darıxaram.
Burax məni, əvəzində
Mən də səni buraxaram.

***
Əlvida demədən getdin, gözəlim,
Gözümdə əridi üzün qar kimi.
Arxanca çırpındı ayaq izlərim
Sahilə atılan balıqlar kimi.

**MƏSAFƏ**

Məsafə nədir,
Səni məndən uzaqlaşdıran,
Yoxsa
Məni sənə yaxınlaşdıran yol?

**QƏRİBİN XƏYALI**

Qürbətdə meydanı tam daralanda
Qəribin yadına ölkəsi düşdü.
Elə bil həmin an körpə uşağın
Üzünə ananın kölgəsi düşdü.

**TANRI VƏ İNSAN**

Tanrının yanından insan həmişə
Yan keçib gedir.

Tanrıdan anrıda
Tanrı axtarır.

Tanrısa gedənin dalınca baxıb
Köks ötürəndə
Göy guruldayır...

**QƏRİBİN QAZANCI**

Gözümüz yol çəkə-çəkə,
Yurd həsrəti çəkə-çəkə,
Yuva bizi çəkə-çəkə
Qayıdırıq...

**GÜNƏŞLİ VƏ KÜLƏKLİ GÜN**

Şəfəq sınır qarışqanın
Parıltılı kürəyində...
Niyyət qalır,
Yön dəyişir
Günün tozlu küləyində...

**GÜLSATAN QADIN**

Piştaxta dalında duran bir pəri
Məftun eləyirdi, inan, hər kəsi.
Yan-yana düzmüşdü yasəmənləri
Axşamdan kəsilmiş fərələr kimi.

***
Nəğmənin bir ucu qalınca səndə
Tellərtək çəkilən yollar kiridi.
Sən öz ürəyinin
Açarını
Mənə versən də,
Həmin gün dəyişdin köhnə kilidi.

***
İnanma izdiham kədəri yenə
Tək qəlbdə cücərir nisgilin dəni...
Bağışla, İlahi, bu səhər yenə
Ah çəkib narahat elədim səni.

**«KİTKAT» KAĞIZI**

Hələ qış deyildi,
Hələ çağı idi sərin payızın.
Birdən külək əsdi,
Ördək balası cücələrə qarışan kimi
Sarı yarpaqlara qarışıb getdi
'Kitkat' kağızı.

**CAVAB**

Dedilər, sənin gəzdiyin cavab
Gizlin saxlanılan bir şüşədədir.
Həmin şüşə isə sal qayalıqda
Bir kahadadır.

Mən tapdım şüşəni,
Divin canı çıxdı həmin şüşədən,
Cavab çıxmadı.

**ŞƏKİLLƏR**

Mənə külək şəkli çəkmək istəsən,
Əyilmiş bir ağac şəkli də bəsdir,
Dağılmış telləri bir gözəl qızın,
Ya da bir oğlanın kəkili bəsdir.

Əgər sevgi şəkli çəkmək istəsən,
Çiçəkli kolların şəkli də bəsdi.
Tənhalıq şəklini çəkmək istəsən,
Ot basmış yolların şəkli də bəsdi.

Həyatın şəklini çəkmək istəsən,
Ağır bir ömürün şəkli də bəsdi,
Yəni ağac kimi qəddi bükülmüş,
Qocalmış İmirin şəkli də bəsdi.

**YAZMIRAM DAHA**

Sevgi şeirləri yazmıram daha,
Qənaət edirəm ağ vərəqlərə.
Harda kağız, vərəq düşsə əlimə , ?
Təyyarə düzəldirəm,
Gəmi düzəldirəm
Nəvələrimə.





Nemət MƏTİN

Dərgidə kitab

# YÜK

İnsan ömrü boyu yük daşıyır. Kimi ailə yükünü, kimi vicdan yükünü, kimi də çiyinlərinə aldığı hansısa bir yükü... N də iri anbarlardan birində yükdaşıyan işləyirdi. Artıq bir il idi ki, bu ağır işi görürdü. Baxmayaraq ki, iki diplomu vardı, amma bir çox gənclər kimi universitet illərində avaraçılıqla başını qatmışdı. Gənclik şirin şeydir. Adamı nə günlərə salır. Çılğın gənclik havası adamı evdə oturmağa qoymur. N də belə gənclərdən idi. Gəncliyini yelə vermişdi. O, "dolu" yaşamağı sevirdi. Qrup yoldaşları dərs oxuyanda N qız sevirdi. Dəli-divanə olub çöllərə düşmüşdü...

Yük daşımağı sevmirdi N. Kim sevər axı? Amma ümidi vardı ki, nə vaxtsa vəzifəsi qaldırılar, ali təhsilli olmağına önəm verilər. Bu minvalla düz bir il işlədi. Danışığını, hərəkətini bilməyən adamların içində itib-batdığını görmürdü. Lakin içlərində dosent, hərbçi, usta, idmançı da vardı. Tale hamını ovcuna yığıb həmin anbara atmışdı...

Qocalı-cavanlı hər bir yükdaşıyanın üzündən zəhrimar yağırdı. Kir-pasın, çirkin içində cırıq-cırıq olmuş əlcəklərlə irili-xırdalı yükləri sağdan sola, soldan da sağa daşıyırdılar. Kimi deyinir, kimi söyür, kimi də qarğış edirdi...

Bir gün gecə növbəsində o qədər gərgin iş gedirdi ki, bir işçinin ürəyi getmişdi. Bədbəxt hadisə də az olmurdu. Elə yeni ildə də işə düşmüşdülər. Gecə saat on ikini gözləyirdilər. Hər kəs evdən gətirdiyi yeməkləri stola düzməyə tələsdiyi vaxtda yük maşınları anbarın ağzına düzüldü. Dilxor olan işçilər maşınlara doğru addımladılar. N də digərləri kimi yükləri daşıdıqca telefonla bayram təbriki yazırdı. Saat on iki tamam olanda alınlarından axan tər damcılarını silə-silə, gözləri işıldaya-işıldaya uzaqda görünən atəşfəşanlığa tamaşa elədilər. N-in dostu K-nın başı mesaj yazmağa bərk qarışmışdı. Üstünə gələn yük maşınını görmədi. Maşını görəndə artıq gec idi. O, yerə yıxıldı və sağ ayağı təkərin altında qaldı. Bağırtısı aləmi başına götürdü, N qaça-qaça onun yanına gəlsə də, artıq iş işdən keçmişdi...

N bir il işləyəndən sonra əsgərlik dövründə oxuduğu kitabları xatırladı. Görünür, necəsə monoton həyatını dəyişmək istəyirdi. Ona elə gəldi ki, təkcə kitab oxuyanda özünü xoşbəxt hiss edib. Yenidən kitab oxumaq istədi və o gündən telefonuna kitablar yükləməyə başladı. İşdə vaxt tapan kimi oxuyurdu. Şekspirin "Romeo və Culyetta"sını, Kamyunun "Yad"ını, Kafkanın "Çevrilmə"sini oxuduqca ürəyinə fərəh hissi doldu. Özünü azad, güclü hiss etdi. Kitabların misti-

kası onu ələ aldı. Zaman ötdükcə daha çətin əsərlərə baş vurdu. Don Kixotun macəralarına həm güldü, həm ağladı. Robinzonla adada "yaşadı". İvan İliçlə "öldü". Sergi ata ilə "oyandı". Dorian Qreyin portretini "çəkdi". Martin İdenlə səyahətə yollandı. Qulliverlə "balacalaşdı", "böyüdü".

Artıq işlədiyi yerdə anbardar vəzifəsinə yüksəlmişdi. Fiziki işinin azalacığını düşünsə də, elə olmadı. Əksinə, yükdaşıyanlara kömək etməli idi. Həmişə nəsə, kimsə çatmırdı. Adam, texnika, vaxt... Üstəlik, bütün gördüyü işləri kompüterdəki proqramlara yazmalı və rəhbərliyə göndərməli idi. İşi başından aşırdı. Son zamanlar işdə oxumağa vaxt tapmasa da, evdə, yolda oxuyurdu. Oxumayanda həyat N-ə mənasız gəlirdi. Sanki oxuyanda fikirlər beynində daha tez formalaşırdı. O qədər oxudu ki, bir gün məqalə yazdı. Yazıçıların həyatından maraqlı hadisələrə istinad etdi. Beynindəki yükü vərəqlərə boşaltdıqca ürəyindəki yükdən də azad olduğunu hiss etdi. Tibet buddistləri haqqında məqalə yazdı, işə Milarepa ilə başladı. Bir çox balladaların, şeirlərin müəllifi aydınlanmaq barədə tez-tez düşünərdi. O qərara gəlmişdi ki, bu barədə tanımadığı insanlardan soruşsun. Çoxundan soruşmuş, hər kəs fərqli şeylər demişdi. Bir gün o, dağ cığırında ağır yük daşıyan qəribə rast gəlmiş, eyni sualı ona da vermişdi. Qərib isə kürəyindəki yükü yerə atmış, dərindən nəfəs almışdı. Milarepa qışqırmışdı:

– Anladım! Bəs aydınlanmadan sonra nə baş verir?

Qərib gülümsəmiş və yükünü götürüb yoluna davam etmişdi.

N növbəti bir il ərzində xeyli məqalə yazdı. Kitab çap etdirmək istəyirdi. Dostu K bunu öyrənəndə sevindi. N daha da həvəsləndi. Kitab çap etdirmək üçün B nəşriyyatının baş redaktoruna müraciət etdi. Həyəcanlı idi. Amma onu narahat edən bir şey vardı. İşdən bezmişdi. Özünü aqressiv aparırdı. İş yoldaşları onu heç vaxt belə görməmişdilər. N-in uzun illər ərzində ürəyinə yığılan qəzəbi vulkan kimi partlayırdı. Artıq qəti qərara gəlmişdi. O gün səhər "İşləmək istəmirəm!" – deyə çığırmışdı...

İşə çatan kimi bunu rəisə bildirdi. Göygöz, bəstəboy rəis belə məsuliyyətli işçini itirmək istəmirdi. Üstəlik, N-dən incimişdi. Onu otağına təkrar çağırıb dedi:

– Elə bilirsən, bu anbarda Tolstoyu yalnız sən oxumusan? Tolstoyun səni xilas edəcəyini düşünürsən?

N sadəcə gülümsədi. Gözləri par-par parıldayırdı.

– Mən rus dilində Tolstoyun külliyyatını oxumuşam...

Rəisin uzun-uzadı pafoslu çıxışını N artıq dinləmirdi. Axırda rəis ona belə bir təklif etdi:

– Bu anbarın harasında hansı vəzifəni istəyirsənsə, götür.

N-in cavabı qısa, amma ağır oldu:

– Mən sizinlə işləmək istəmirəm!

N çiynindəki ağır yüklərdən birini yerə qoysa da, qarşıda onu xeyli ağır yüklər gözləyirdi...

## QISA HƏYAT TARİXÇƏSİ

Saleh yeddiaylıq doğulmuşdu. Yaşayacağına dair ümid olmasa da, anası onu gözünün işığı kimi qoruyub cana gətirmişdi. Yenə də cılız idi. Yaşıdlarından azı iki dəfə balaca olsa da onlarla ayaqlaşmağa çalışırdı. Qaçırdı, yıxılırdı, ağaca dırmaşırdı...

Zaman keçdikcə Saleh də böyüyürdü, inkişaf edirdi. Boksa getdi, aldığı zərbədən burnu qırıldı. Güləşdə üç gün keçməmiş qulaqları əzildi. Karatedə sol ayağı zədələndi. Sonunda əsgərliyə apardılar. Komandirin sevimli əsgəri idi. Əmrə müntəzir, sadiq əsgər oldu. Hara buyurulurdusa, canla-başla yüyürürdü. Tərxis olunanda ürəkdən sevinmişdi. Onsuz hər işə saf ürəklə yanaşırdı. Mülki həyata gec öyrəşdi. Bir qız gördü, bir könüldən min könülə o qıza vuruldu. Ürəyi quş olub uçdu. Onu görəndə otuz iki dişinin otuz ikisi birdən görünürdü. Belə sevirdi Saleh o qızı, lap ürəkdən. İşlə məşğul olmurdu, bir işin qulpundan yapışmırdı, heç düşünməyə də macalı olmurdu. Qızın qardaşları onu döyəndən sonra da ağıllanmadı. Ağzı açıq qızın kölgəsində süründü.

Özünü qıza göstərmək üçün maşın almalıydı. Heç bu fikir də öz ağlına gəlməmişdi. Məhəllədəki başından qız əskik olmayan oğlanın elədiklərini yamsılayacaqdı. Əmisinin köməyi ilə zavodda işə düzəldi. Fikri-zikri ancaq pul yığıb maşın almaq idi. İşdə tər-su dabanından axsa da, xəyallara dalırdı. Xalidə onun qara maşınına baxıb sevinəcəkdi. Uzun saçlarını naz ilə yelləyib Salehə göz süzəcəkdi...

Vaxt-vədə yetişdi. On üç min manat pul yığan kimi özünə maşın aldı. Min manata da sürücülük vəsiqəsini qırx günün içində düz-qoş elədi. Artıq onun da maşını vardı, lap elə istədiyi kimi. Düzdü, maşını ona alverçilər sırımışdı, dörd min də xərci vardı maşının. Amma Saleh bütün bunları görməzdən gələrək qızın qaldığı məhəlləyə doğru şütüdü. Qızı görcək əli ayağına dolaşdı, əyləci səhv saldı. Sükanı əlindən çıxan maşın qabaqdakı maşına necə çırpıldısa, ələ gəlmədi. Alnı partlamışdı, amma yenə də gülümsəyirdi. Dünya-aləm onun üçün təkcə o qızdan ibarət idi. Yuxuda belə adını sayıqlayırdı, Xalidə... Xalidə... Xalidə...

Hələ uşaqlıqdan bizim kimi deyildi Saleh. Onu siqaret dalınca kim göndərsəydi, etiraz etməzdi. Sevinə-sevinə qaçardı. Otuz yaşı var, nə olsun, yenə də elədir. Saf ürəyi tozlu ağlına hakimdir. Keçən həftə futbol oynamağa getmişdik. Salehin bizi görcək elə bil gözlərinə işıq gəldi.

– Hara gedirsiz?

– Futbola. Gəlirsən?

– Bəs nə.

– Ay səni, canavar. Gəl!

– Nə götürüm?

Bu sualı eşidən məhəllə ağsaqqalı dedi:

– Saleh, bint, yod və dərmanları apar. Birdən kimsə yıxılar. Kömək edərsən.

Saleh gözdən itdi. Onu gözləmədən futbola yollandıq. Saleh oyun başlanandan on dəqiqə sonra təngnəfəs stadiona çatdı. Əlində bir sellofan dərman, bint və yod vardı. Bunu görəndə qarnımızı tuta-tuta gülməkdən uğunduq, qıpqırmızı qızardıq.

Salehin on yaşı olanda faciə yaşamışdı. Bacısı qış günlərinin birində soba kənarında yatıb qalır. Hörüyü alışıb yanan qızı xilas etmək olmur. O gündən Salehin ürəyi yaradır. Qızlara qarşı həssasdır.

Yeniyetmə olanda yaşıdlarının biriylə sözü çəp gəlmişdi. Qarşısındakı oğlan ondan olduqca zəif idi. Söhbət davaya çevriləndə Saleh onu döymədi. Sadəcə yaxasından tutub dayandı. Oğlan nə qədər əl-qol atsa da, ona dəymədi. Əksinə, oğlanın köynəyi cırıq-cırıq oldu. Davadan sonra ondan soruşdum:

– Saleh, nə üçün onu vurmadın?

– Özümdən zəifləri vurmuram, – dedi və gözləri sulandı...

Saleh harada adam görürsə, yaxınlaşır.

"Əmi, salam. Bibi, necəsiz? Dayı, verin mən aparım. Qonşu, nə var, nə yox?"

Hər səhər arabayla zibil atmağa gedir. Həmişə düşünürdüm ki, hər gün bir ailə bu qədər zibili necə yığır? Sən demə, Saleh özü arabayla gedirmiş. Qonum-qonşuda nə zibil vardısa, atmalıydı.

Hər söhbətə girişərək mənasız fikirlərini deməsəydi, ürəyi partlayardı. Onu acılayanlara belə gülümsəyirdi. Ürəyini istəsən, çıxarıb verərdi. Heç kimi incitməyən, heç kimin toyuğuna kış deməyən Salehi dünən bıçaqladılar. Narkoman qonşusu ondan borca pul istəyəndə sözləri çəp gəlmişdi. Narkomanın da gözlərinə qan gəldisə, damarı qaşındısa, nəyə desən, əl atar. Dünyanın ən saf adamını da bıçaqlayar.

Həmin gündən saflıq məhəlləmizdən birdəfəlik itdi. Hətta Salehin aşiq olduğu qız da daha ürəkdən gülümsəmir...

## YALAN

İdris qocalıb əldən düşmüşdü. Həyat yoldaşı Nazilə dəli olandan sonra onun başına ütü vurmuş, dəfələrlə onu söymüşdü. Bir dəfə məhəllədə yalan danışan yeniyetməni, nadinc oğlanı acıladı. Oğlan əsəbindən İdrisin əsasına bir təpik vurdu. Müzavinətini itirən İdrisin başı beton bardura dəydi. Beləliklə, İdris, gözlərini nakam həyata birdəfəlik yumdu. İyirmi il öncəyə qayıdaraq İdrisin həyatına baş vuraq. Film lentini geriyə çevirməyin əsl vaxtıdır. İdris hər zaman yalan danışmağı sevərdi. Məhəllədə dama oynayanda da cığallıq edirdi. Uşaqlara, böyüklərə, dostlarına, tanışlarına, tanımadıqlarına yalan danışmaqdan həzz alardı. Ancaq bu yalanlar heç kimin xətrinə dəyməzdi. Çünki yalanın kökündə gülüş vardı. İnsanların kefini açmaq üçün İdris gecə-gündüz çalışardı. İş yerində Elnur adlı oğlana bir dəfə dedi:

– Eh, mən günlər görmüşəm. Günlərin bir günü prezident zavoda gəlmişdi. Məni görüb ayaq saxladı. İşlətdiyim dəzgaha baxıb gülümsədi. Keyfi kök idi. Mənə dedi ki, qardaş, yeməyə nə var? Beləcə söhbətimiz açıldı. Mənə bütün həyatını danışdı. Kotlet-çörək yeyə-yeyə danışıb-gülürdü. Arabir doğranmış göyərtidən də ağzına atırdı.

Elnur inanmışdı. Kimə danışırdısa, gülməkdən uğunub gedirdilər. Çünki hamı gopçu İdrisi tanıyırdı. Elnur üç nəfərə danışandan sonra nə baş verdiyini anladı. Üzü qıpqırmızı oldu. Hər dəfə onu görəndə gülümsəyirdi. Ürəyinə xoş ovqat yayılırdı. İdris hər gün işdən sonra məhəlləyə çıxıb dama, şahmat, nərd oynayanlarla günü başa vururdu. Səhərə kimi samovar çayı içib gülüşürdülər. Əsl məclis adamı idi. Bir az içəndən sonra yalanın dərəcəsi artırdı. Məclisdəkilər əylənirdilər. Sinəsində Stalinin və Leninin döymələri var idi. Əsgərlikdən yadigar qalmışdı.Yayda isti olduğu üçün köynəyinin yuxarı üç düyməsini açıq saxlayırdı. Yaş öz sözünü deyirdi. Artıq İdrisin dişləri tökülmüşdü. Yay günlərindən biri idi. Məhəllədə hər gün futbol oynayırdıq. Təngnəfəs topun arxasınca o yana-bu yana qaçırdım. İdrisə o vaxt baba deyirdik. Məni yanına çağırıb dedi:

– Nahid, sənə yaxşı təklifim var. Ala bu beş yüz manatı, get dükana. İki dənə marojna al gətir, yeyək. İstidir, nəfəsimiz kəsilir.

– Yaxşı, baba. Yerimdən götürüldüm. İki dəqiqədən sonra ikimiz də taxta oturacaqda oturub dondurma yeyirdik. Sərinlik bədənimizi soyudanda özümüzə gəldik.

Həmişəki kimi kefimi açmaq istədi.

– Bilirsən, o vaxt, hardasa on il öncə qapımız döyüldü. Açanda kimi görsəm yaxşıdır? Suala cavab verməyə məfər verməyib, davam etdi:

– Polis əməkdaşı. Məndən xahiş etdi ki, onunla gəlim. Razılaşmaqdan başqa çıxış yolum yox idi. Maşında tər məni aparmışdı. Hara getdiyimizi bilmirdim. Böyük bir villanın qarşısında polis əməkdaşı maşını saxladı. Evə daxil olduq. Ev nə ev. Uzan, tamaşa elə! Başdan-başa çilçıraqlar, italyanski mebel və daha nələr, nələr. Sən demə, deputatın evi idi. Məni görmək istəyirdi.

İdris babanın sözlərinə inanmışdım. Evə gedəndə atama danışdım. Uğunub özündən getdi. Sonra heç kimə  işi olmayan İdris haqqında xatirə danışdı:

– Bir dəfə İdris xəstələnmişdi. Yaxınlıqdakı xəstəxanada yatırdı. Xəstəxananın qoxusundan insan daha da xəstələnir. Dərmanların qoxusu, xəstələrin iniltilərinə qoşulub rəqs edir. İdris orada sağala bilməzdi. Bir az cavan olsaydı arağa istiot səpib, içərdi. İndi isə qocalıb. İynə-dərmanlarla, sistemlərlə yaşayır. Özü kimi yalançı dostları onu görməyə gəlmişdilər. Zöhrab və İlkin alma, armud alıb yanına keçmək üçün tibb bacısının cibinə bir şirvan basdılar. Dostları dərman iyi verən otağa daxil olanda İdrisin gözlərinə işıq gəldi. Üç saat dayanmadan danışıb-güldülər. Zöhrab və İlkin İdrisin uşaqlıq dostları idilər. Zöhrab həmişə kimisə tüfənglə vururdu, İlkin isə basdırırdı. Yalan dünyalarının kriteriyaları bundan ibarət idi. Birinci Zöhrab sözə başladı: – O gün lotka(qayıq) ilə quş ovlamağa getmişdim. Gördüm vurduğum quşlar suya düşüb dibə enirlər. Ağlıma bir ideya gəldi. Xalçanı suyun üzünə sərdim. Hər dəfə quş vuranda xalçanın üstünə düşürdü. İdris güldükcə bunlar danışırdılar. Sanki əzələlərinə güc gəlirdi. Ardınca İlkin başladı, nə başladı:

– O gün Zöhrabla işdə söhbət edirdik. Kənar şəxslər zavoda daxil oldular. Zöhrabın beyni çöndü. Tüfəngi götürüb alnından nişan aldı. Bir atışa yad insan yerə uzandı. Rəis xəbər tutmasın deyə, onu aparıb zavodun arxasında basdırdım. Üç saat ərzində İdris o qədər güldü ki, çənəsi ağrayırdı. O, dostlarından geri qalmamaq üçün Hindistan səfirinin evində qonaq olmağından, onunla tut arağı içməyindən danışdı. Beləcə üç saatdan sonra üç dost xəstəxananı tərk etdi. Həkimin son diaqnozu belə olmuşdu:

– Xəstə turp kimidir. Buraxın getsin. Amma yaman zarafatlar edirdi. Onsuz darıxacağıq. Siz hələ bir onun yalanına baxın. Mənə deyir ki, bağıma oğru girmişdi. Yerkökü oğurlayırdı. Arxadan ona yaxınlaşdım. Boynundan yapışdım. Ayağa qaldıranda üzü göründü. Səməd Vurğun imiş. Dedim ki, nə edirsən, şair? Dedi, – nə edək, aclıqdı. Tibb bacılarını gülmək tutdu. Ağzını tutub gülən kim, at kimi kişnəyən kim...

Ölüm ayağında bütün hadisələri xatırlayan İdris xoş hal ilə göz qapaqlarını əbədi yumdu.  Onun haqqında müxtəlif rəvayətləri bu günə kimi atalar uşaqlarına danışırlar.

Dərgidə
# Sərgi





## Nərmin Qəniyeva















@ULDUZ_AYLIQ_EDEBIYYAT_DERQISI

ISNN 0134-522 İNDEKS AZ 1000
QİYMƏTİ: 2 AZN